RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 137 (10157) 4 avqust 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Zəfərə aparan tarixi yolun təməli

Hələ Baş nazir təyin olunmazdan əvvəl cənab İlham Əliyev Heydər Əliyev siyasi məktəbinin ən parlaq yetirməsi kimi özünü artıq təsdiqləmişdi. O, "Əsrin müqaviləsi"nin yaradıcılarından biri kimi ARDNŞ-də ölkəmizin neft strategiyasını dünya nəhənglərinə diktə edirdi.

AŞPA-dakı mübarizəsi ilə Avropanın tən ortasında Ermənistanın işğalçı xislətini beynəlxalq kürsülərdən nəzərə çarpdırır, haqq səsimizi dünyaya çatdırırdı. Məhz cənab İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan nümayəndə heyəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Avropa Şurasında müzakirəsi zamanı böyük uğurlar əldə etmişdi. Azərbaycan nümayəndə heyətinə rəhbərliyi dövründə AŞPA-nın vitse-prezidenti kimi mühüm posta seçilmiş cənab İlham Əliyevin ardıcıl səyləri nəticəsində bu qurum Ermənistanı işğalçı dövlət kimi tanımışdı. Eyni zamanda o, Milli Olimpiya Komitəsinin rəhbəri kimi sağlam və vətənpərvər Azərbaycan gəncliyinin yetişməsi üçün idman hərəkatının təməlini qoyurdu.

Bu keyfiyyətlər sayəsində cənab İlham Əliyevin Baş nazir təyinatı təkcə ölkə daxilində deyil, ABŞ də daxil olmaqla dünya ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Beynəlxalq aləm cənab İlham Əliyevin şəxsində müasir düşüncəli, uzaqgörən və verdiyi sözə sadiq bir lider gördü.

2003-cü il avqustun 4-də cənab İlham Əliyevin Milli Məclisin yekdil razılığı ilə Baş nazir vəzifəsinə təyin edilməsi, əslində, xalqın ona göstərdiyi böyük etimadın təcəssümü oldu.

Hökumət başçısı kimi bir neçə aylıq fəaliyyətində mühüm addımlar atan cənab İlham Əliyevin sonrakı prezidentlik fəaliyyəti dəqiq hesablanmış xüsusi inkişaf mərhələsi ilə bağlı oldu.

Prezident İlham Əliyev yaxşı bilirdi ki, iqtisadiyyatı güclü olmayan dövlətin hərbi qələbəsi mümkün ola bilməz. Buna görə də bu sahədə mühüm işlər görüldü, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi nəhəng layihələr gerçəkləşdirildi. Azərbaycan heç kimdən asılı olmayan qüdrətli dövlətə çevrildi.

İqtisadiyyatdan əldə olunan vəsaitin böyük hissəsi bilavasitə ordu quruculuğuna yönəldildi. Ən müasir texnologiyalar ölkəyə gətirildi, Xüsusi Təyinatlı Qüvvələr formalaşdırıldı və yerli hərbi sənaye yaradıldı. Məhz bu güclü ordu 2020-ci ildə düşmənin 30 ilə qurduğu keçilməz sədləri 44 günə yerlə yeksan etdi.

7

# Səngəçal terminalı ölkənin vahid enerji sistemi vasitəsilə elektrik enerjisi ilə təmin olunacaq

## Prezident İlham Əliyev "Yeni Səngəçal" yarımstansiyasının açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərenerji" ASC-nin 220/110/10 kV-luq "Yeni Səngəçal" yarımstansiyasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Balababa Rzayev dövlətimizin başçısına yarımstansiya barədə məlumat verdi.

Bildirildi ki, bu irimiqyaslı "yaşıl enerji" layihəsi Cəbrayıl rayonundakı 240 MVt gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasının Azərbaycan enerji sisteminə inteqrasiyasını və Səngəçal terminalının ölkənin vahid enerji sistemi vasitəsilə elektrik enerjisi ilə təmin olunmasını nəzərdə tutur. Layihə "Azərenerji" ASC ilə BP şirkəti arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində icra olunub.

2

# *Müasir Azərbaycan:* Dövlətçilik və dayanıqlı inkişaf modeli



İdarəetmədə şəffaflığın artırılması, institusional islahatların davam etdirilməsi, rəqəmsal texnologiyaların tətbiqi və vətəndaş məmnunluğunun dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilməsi Azərbaycanın inkişaf modelinin dinamik xarakter daşıdığını göstərir. Dövlət yalnız mövcud problemləri həll etməklə kifayətlənməməli, eyni zamanda gələcək çağırışları əvvəlcədən görərək onları imkanlara çevirməyi bacarmalıdır. Məhz strateji idarəetmənin əsas mahiyyəti də bundan ibarətdir. Son illər ölkəmizdə sosial sahədə həyata keçirilən islahatlar, yeni təhsil və səhiyyə layihələri, mədəni irsin qorunmasına yönəlmiş təşəbbüslər, ailə institutunun möhkəmləndirilməsi və həssas sosial qruplara göstərilən diqqət dövlət siyasətinin mərkəzində insan amilinin dayandığını nümayiş etdirir. Dövlət rəhbəri İlham Əliyevin müəyyən etdiyi inkişaf prioritetləri ilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın humanitar və sosial istiqamətdə həyata keçirdiyi təşəbbüslər vahid dövlət strategiyasının bir-birini tamamlayan istiqamətləri kimi çıxış edir.

7

# *Bakı-Bişkek:* ortaq tarix və qarşılıqlı etimad müttəfiqlik münasibətlərinə keçir



Prezident İlham Əliyevin xarici siyasət kursunda Mərkəzi Asiya, qeyd etdiyimiz kimi, prioritet istiqamətlərdəndir. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın artan geosiyasi çəkisi bu siyasətin daha fəal həyata keçirilməsinə imkan yaradır. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə xüsusi qonaq kimi dəvət olunması, daha sonra bu platformada tamhüquqlu iştirakına dair qərarın qəbul edilməsi ölkəmizin region üçün artan əhəmiyyətinin göstəricisidir. Cənab İlham Əliyevin də bəyanatında xatırlatdığı kimi, hazırda bu platforma "Mərkəzi Asiyanın və Azərbaycanın dövlət liderlərinin görüşü" adlanır, növbəti görüş bir müddətdən sonra keçiriləcək.

Bu amilləri nəzərə alsaq, Qırğız Respublikası Azərbaycan üçün yalnız ikitərəfli tərəfdaş yox, həm də Mərkəzi Asiyada çoxtərəfli əməkdaşlığın vacib iştirakçısıdır. Azərbaycanın Orta dəhliz layihəsində oynadığı rol, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və perspektivdə Zəngəzur dəhlizi (TRIPP) Qırğızıstanın da dünya bazarlarına çıxış imkanlarını genişləndirir. Beləliklə, Bakı ilə Bişkek arasında əməkdaşlıq artıq yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, Avrasiyanın yeni nəqliyyat və logistika xəritəsinin formalaşması kontekstində də strateji əhəmiyyət daşıyır.

9

# Qisas qiyamətə qalmadı



2022-ci il avqustun 3-də həyata keçirilən "Qisas" əməliyyatı postmüharibə dövründə formalaşmış təhlükəsizlik çağırışlarına verilən ölçülü, hüquqi əsaslara söykənən və hərbi baxımdan dəqiq hesablanmış cavab idi. Bu əməliyyat Azərbaycanın yeni təhlükəsizlik strategiyasının mahiyyətini nümayiş etdirdi - sülh təşəbbüsləri qətiyyətli müdafiə siyasəti ilə tamamlanmalı, dövlət suverenliyinə qarşı istənilən təhdid isə vaxtında və təsirli şəkildə neytrallaşdırılmalıdır. Məhz bu strateji yanaşma "Qisas" əməliyyatının qısa müddətdə uğurla başa çatmasını şərtləndirdi və onun hərbi-siyasi nəticələrini postmüharibə dövrünün mühüm hadisələrindən birinə çevirdi. "Qisas" əməliyyatı və onun doğurduğu nəticələr taktiki uğurun hüdudlarını aşaraq ölkəmizin postmüharibə təhlükəsizlik strategiyasında mühüm mərhələyə çevrildi.

Əməliyyat zamanı Azərbaycan Ordusu qarşıya qoyduğu vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Sarıbaba və Qırxqız yüksəklikləri, eləcə də bir sıra əlverişli mövqelər nəzarətə götürüldü, qanunsuz silahlı birləşmələrin dayaq məntəqələrinə və hərbi infrastrukturuna dəqiq zərbələr endirildi. Bu yüksəkliklər üzərində nəzarətin təmin olunması təkcə ərazinin fiziki nəzarəti demək deyildi, həm də dağlıq ərazilərdə yüksəkliklərə sahib olmaq, əməliyyat şəraitinə nəzarət etmək, müşahidə imkanlarını genişləndirmək, düşmənin hərəkətlərini məhdudlaşdırmaq və gələcək təhlükələrin qarşısını əvvəlcədən almaq baxımından xüsusi əhəmiyyət daşıyırdı.

11

# Səngəçal terminalı ölkənin vahid enerji sistemi vasitəsilə elektrik enerjisi ilə təmin olunacaq

## Prezident İlham Əliyev "Yeni Səngəçal" yarımstansiyasının açılışında iştirak edib






*Əvvəli 1-ci səh.*

İlk mərhələdə "Azərenerji" tərəfindən Cəbrayıl rayonunda tikilən 330 kV-luq yarımstansiyanın bu ilin mayında Prezident İlham Əliyevin iştirakı ilə açılışı olub.

Layihənin növbəti mərhələsi kimi Səngəçal terminalının bərpaolunan enerji ilə təchizatı üçün 220/110/10 kV-luq "Yeni Səngəçal" yarımstansiyası tikilib. Bununla da terminalda fəaliyyət göstərən qazla işləyən elektrik stansiyasının dayandırılması mümkün olacaq. Gələcəkdə Cəbrayıl rayonunda istehsal olunan günəş elektrik enerjisi ölkənin enerji sistemi vasitəsilə Səngəçal terminalına çatdırılacaq.







Layihənin icrası nəticəsində terminalın illik təxminən 500 milyon kVt-saat elektrik enerjisi tələbatı bərpaolunan enerji hesabına qarşılanacaq, hər il 120-150 milyon kubmetr təbii qaza qənaət ediləcək, karbon emissiyaları isə 260-330 min ton azalacaq.

Ümumi sahəsi 6,5 hektar olan "Yeni Səngəçal" yarımstansiyası 111 kilometrlik dörd yeni 220 kV-luq elektrik verilişi xətti ilə ölkənin enerji sisteminə qoşulub.

Yarımstansiyanın enerji təchizatı 785 MVt gücündə "Cənub" və 385 MVt gücündə "Qobu" elektrik stansiyaları, həmçinin 500 kV-luq "Abşeron" yarımstansiyası olmaqla, üç müstəqil mənbədən təmin edilir.

Eyni zamanda buradan Səngəçal terminalına qədər ümumi uzunluğu 25 kilometr olan 110 kV-luq beş hava-kabel xətti çəkilib. Növbəti mərhələdə 110 kV-luq əlavə iki hava-kabel xəttinin çəkilməsi nəzərdə tutulur. BP-nin Səngəçal terminalı (80 MVt) və Şahdəniz Kompressor Stansiyasının (85 MVt) elektrik enerjisi təchizatı da bu yarımstansiya vasitəsilə təmin ediləcək. Beləliklə, hər iki strateji obyektin illik 1 milyard kVt-saatdan çox enerji tələbatı ölkənin vahid enerji sistemi üzərindən qarşılanacaq.

Qeyd edək ki, yarımstansiyada qabaqcıl rəqəmsal idarəetmə panelləri, zəruri avadanlıq quraşdırılıb, SCADA sisteminə inteqrasiya təmin edilib, İdarəetmə Mərkəzi tikilib. Müasir texnologiyaların və rəqəmsal həllərin tətbiqi yarımstansiyanın etibarlılığını və dayanıqlılığını yüksək səviyyəyə qaldırıb.

## "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 901 (Cild I); 2025, № 1, maddə 10, № 5, maddə 431,№ 12 (I kitab), maddə 1122; 2026, № 1, maddə 6)16-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 16.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"16.3. Enerji effektivliyi fondunun vəsaiti bu Qanunun 15.2-ci maddəsində nəzərdə tutulan tədbirlərin və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aşağıdakı xərclərinin maliyyələşdirilməsi üçün istifadə olunur:

16.3.1. enerji effektivliyi informasiya sisteminin tətbiqi, təkmilləşdirilməsi, saxlanılması, altsistemlərinin yaradılması, habelə fondun fəaliyyəti ilə bağlı əməliyyatların uçotunun aparılması məqsədilə proqram təminatının əldə edilməsi;

16.3.2. bu Qanunun 18-ci maddəsində nəzərdə tutulan enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində informasiya təminatı və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi.".

2. Aşağıdakı məzmunda 16.3-1-ci maddə əlavə edilsin:

"16.3-1. Bu Qanunun 16.3.1-ci və 16.3.2-ci maddələrində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsinin yuxarı həddi bu Qanunun 16.4-cü maddəsində nəzərdə tutulan qayda ilə müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

## "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 466-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 466-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 16.3-cü maddəsinin birinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2.həmin Qanunun 16.3-cü maddəsinin birinci abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur.

2. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 925 (Cild I); 2026, № 1, maddə 30) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "16.1-ci" sözlərindən sonra "maddələrində, 16.3-cü maddəsinin birinci abzasında" sözləri əlavə edilsin;

2.2. 2.5-ci bəndə "maddələrində" sözündən sonra ", 16.3-cü maddəsinin birinci abzasında" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 mart tarixli 13 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 3, maddə 253; 2025, № 1, maddə 32; 2026, № 1, maddə 30) ilə təsdiq edilmiş "Enerji effektivliyi fondunun vəsaitlərinin formalaşdırılması və istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Fondun vəsaitindən Qanunun 15.2-ci maddəsində nəzərdə tutulan tədbirlərin və Azərbaycan Respublikası Energetika Nazirliyinin aşağıdakı xərclərinin maliyyələşdirilməsi üçün istifadə olunur:

1.2.1. enerji effektivliyi informasiya sisteminin tətbiqi, təkmilləşdirilməsi, saxlanılması, altsistemlərinin yaradılması, habelə fondun fəaliyyəti ilə bağlı əməliyyatların uçotunun aparılması məqsədilə proqram təminatının əldə edilməsi;

1.2.2. Qanunun 18-ci maddəsində nəzərdə tutulan enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində informasiya təminatı və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi.";

3.2. 2-ci hissə üzrə:

3.2.1. 2.4.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4.7-ci yarımbənd əlavə edilsin:

"2.4.7. bu Qaydanın 1.2.1-ci və 1.2.2-ci yarımbəndlərində nəzərdə tutulan xərclərin maliyyələşdirilməsi.";

3.2.2. aşağıdakı məzmunda 2.7-ci bənd əlavə edilsin:

"2.7. Bu Qaydanın 1.2.1-ci və 1.2.2-ci yarımbəndlərində nəzərdə tutulan xərclərin maliyyələşdirilməsinin yuxarı həddi müvafiq il ərzində Fondun vəsaitlərinin idarə edilməsindən əldə olunan gəlir məbləği həddində müəyyən olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 avqust 2026-cı il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 13-cü və 20-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 338-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024,№ 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282,(II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214, № 4 (I kitab), maddələr 307, 315, 318, 322, № 5, maddələr 432, 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744, № 11, maddə 1009, № 12 (I kitab), maddə 1118; 2026, № 1, maddələr 11, 14, 15, 16, 21, № 2, maddə 111; Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 396-VIIQD nömrəli və 26 may tarixli 413-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1.184.1.1 - 184.1.3-cü maddələrdə "190.1.1 - 190.1.3-cü" sözləri"190.1.1-ci və 190.1.2-ci" sözləri ilə əvəz edilsin;

1.2. 185.2-ci maddənin birinci abzasında "190.1.1?190.1.6-cı" sözləri "190.1.1-ci, 190.1.2-ci, 190.1.4-190.1.6-cı" sözləri ilə əvəz edilsin;

1.3. 186.1 - 186.3-cü və 186-1.4-cü maddələrdə "190.1.1 - 190.1.3-cü" sözləri "190.1.1-ci və 190.1.2-ci" sözləri ilə əvəz edilsin;

1.4. 188.1.1.4-cü maddədə "onların" sözü "onun" sözü ilə əvəz edilsin;

1.5. 190-cı maddə üzrə:

1.5.1. 190.1.2-ci maddədə, 190.3-cü maddənin birinci abzasında (ikinci halda) və 190.3.16-cı maddədə "onların" sözü "onun" sözü ilə əvəz edilsin;

1.5.2. 190.3-1-ci maddədə "190.3.12-ci" sözləri "190.3.13" rəqəmləri ilə əvəz edilsin;

1.6. 191.3-1-ci və 193.1-ci maddələrdə "190.1.1 - 190.1.3-cü" sözləri "190.1.1-ci və 190.1.2-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 55 (Cild I); 2024, № 6 (I kitab), maddə 631, № 8, maddə 933; 2026, № 2, maddə 109) aşağıdakı məzmunda 22-ci maddə əlavə edilsin:

"22. Elektron siqaretlər və onların komponentləri.".

**Maddə 3.** "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 579 (Cild I); 2024, № 3, maddə 249, №7, maddə 746) 1.1.1-ci maddəsinin ikinci cümləsinə "tütün məhsulları" sözlərindən sonra ", elektron siqaret" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

## "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Fələstin Dövlətinin Xarici İşlər Nazirliyi arasında Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı Səfirliyinə maliyyə yardımının göstərilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2026-cı il iyulun 10-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Fələstin Dövlətinin Xarici İşlər Nazirliyi arasında Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı Səfirliyinə maliyyə yardımının göstərilməsi barədə Protokol" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsi üçün tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Fələstin Dövləti Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 avqust 2026-cı il*

# Prezidentin sosial şəbəkə hesablarında Xalq şairi Nəriman Həsənzadənin vəfatı ilə bağlı paylaşım edilib

**Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Xalq şairi Nəriman Həsənzadənin vəfatı ilə bağlı paylaşım edilib.**

AZƏRTAC paylaşımı təqdim edir:

"Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Heydər Əliyev mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi, Xalq şairi Nəriman Əliməmməd oğlu Həsənzadə 2026-cı il avqustun 1-də ömrünün 96-cı ilində vəfat etmişdir.

Nəriman Həsənzadə 1931-ci il fevralın 2-də Qazax rayonunun Poylu kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1949-1953-cü illərdə Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsində ali təhsil almış, 1957-1961-ci illərdə isə Moskvada Qorki adına Ədəbiyyat İnstitutunda oxumuşdur.

1962-ci ildə indiki Bakı Dövlət Universitetinin aspiranturasına daxil olan Nəriman Həsənzadə 1965-ci ildə aspiranturanı bitirib dissertasiya müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışdır.

Əmək fəaliyyətinə 1962-ci ildən başlayan Nəriman Həsənzadə "Azərbaycan gəncləri" qəzetində, "Azərbaycan" jurnalında və Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində müxtəlif vəzifələrdə çalışmışdır. O, 1978-1991-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru işləyərkən qəzetin ədəbi-ictimai mühitdə nüfuzunun daha da genişləndirilməsi üçün böyük əmək sərf etmişdir.




Nəriman Həsənzadə 1991-2001-ci illərdə Azərbaycan Respublikası mətbuat və informasiya nazirinin birinci müavini və nazir əvəzi vəzifələrində çalışmışdır. O, 2001-ci ildən ömrünün sonunadək Milli Aviasiya Akademiyasının Humanitar fənlər kafedrasına rəhbərlik etmişdir.

Böyük söz ustası Nəriman Həsənzadə poeziya aləminə qədəm qoyduğu ilk vaxtlardan ədəbiyyatımıza yeni nəfəs gətirmişdir. Şair milli ədəbiyyatın çoxəsrlik parlaq ənənələrinə sadiq qalmaqla, özünəməxsus ifadə tərzi və dəst-xəti sayəsində Azərbaycan xalqının poetik fikir xəzinəsinə dəyərli töhfələr bəxş etmişdir. Qayəsini Vətən məhəbbəti, milli azadlıq duyğuları, ənənəvi dəyərlərə bağlılıq və mənəvi ucalığa çağırış təşkil edən əsərləri onu həmişə ədəbi prosesin ön mövqelərində saxlamışdır. Şairin öz həzinliyi və səmimiliyi, dil səlisliyi, axıcılığı və təbiiliyi ilə seçilən şeirlərində müasirlərimizin hiss və düşüncələri dolğun bədii əksini tapmışdır. Nəriman Həsənzadə poema və mənzum pyeslərində keçmişimizin uzaq və yaxın dövrlərinin taleyüklü mühüm hadisələrini və böyük şəxsiyyətlərini tarixi həqiqətlər işığında dərin vətənpərvərlik və milli dövlətçilik duyğusu ilə canlandırmışdır. Azərbaycan xalqının mübarizliyini və qəhrəmanlığını tərənnüm edən bu əsərlər teatr səhnələrində uğurla tamaşaya qoyulmuş, tamaşaçıların dərin rəğbətini qazanmışdır. Dilimizin tükənməz imkanlarından ustalıqla bəhrələnmiş şairin sözlərinə bu gün də sevilə-sevilə oxunan çox sayda mahnılar bəstələnmişdir.

Sənətkarın ədəbi şəxsiyyəti ilə vəhdət təşkil edən alim, pedaqoq və ictimai xadim kimi dolğun fəaliyyəti Vətənə və xalqa ləyaqətlə xidmətin bariz nümunəsidir. Nəriman Həsənzadə respublikamızın ictimai-siyasi və mədəni həyatında daim yaxından iştirak etmiş, müxtəlif illərdə SSRİ Ədəbiyyat Fondunun Azərbaycan şöbəsinin direktoru, eləcə də rayon, şəhər sovetinin və XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur.

Ölkənin və cəmiyyətin həyatında baş verən proseslərə daim dərin vətəndaşlıq duyğusu ilə yanaşmış Nəriman Həsənzadə mədəniyyətimizin tərəqqisi, milli-mənəvi dəyərlərimizin qorunub yaşadılması üçün var qüvvəsini sərf etmişdir.

Nəriman Həsənzadənin Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafı naminə uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatları - "Şöhrət" (2001), "Şərəf" (2011) və "İstiqlal" (2021) ordenləri ilə təltif edilmiş, 2026-cı ildə isə "Heydər Əliyev" ordeninə layiq görülmüşdür.

Görkəmli şair və dramaturq, tanınmış ictimai xadim, səmimi və təvazökar insan Nəriman Əliməmməd oğlu Həsənzadənin əziz xatirəsi onu tanıyanların qəlbində hər zaman yaşayacaqdır.

**Allah rəhmət eləsin!".**

# Nəriman Əliməmməd oğlu Həsənzadə

**Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Heydər Əliyev mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi, Xalq şairi Nəriman Əliməmməd oğlu Həsənzadə 2026-cı il avqustun 1-də ömrünün 96-cı ilində vəfat etmişdir.**



Nəriman Həsənzadə 1931-ci il fevralın 2-də Qazax rayonunun Poylu kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1949-1953-cü illərdə Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsində ali təhsil almış, 1957-1961-ci illərdə isə Moskvada Qorki adına Ədəbiyyat İnstitutunda oxumuşdur.

1962-ci ildə indiki Bakı Dövlət Universitetinin aspiranturasına daxil olan Nəriman Həsənzadə 1965-ci ildə aspiranturanı bitirib dissertasiya müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışdır.

Əmək fəaliyyətinə 1962-ci ildən başlayan Nəriman Həsənzadə "Azərbaycan gəncləri" qəzetində, "Azərbaycan" jurnalında və Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində müxtəlif vəzifələrdə çalışmışdır. O, 1978-1991-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru işləyərkən qəzetin ədəbi-ictimai mühitdə nüfuzunun daha da genişləndirilməsi üçün böyük əmək sərf etmişdir.

Nəriman Həsənzadə 1991-2001-ci illərdə Azərbaycan Respublikası mətbuat və informasiya nazirinin birinci müavini və nazir əvəzi vəzifələrində çalışmışdır. O, 2001-ci ildən ömrünün sonunadək Milli Aviasiya Akademiyasının Humanitar fənlər kafedrasına rəhbərlik etmişdir.

Böyük söz ustası Nəriman Həsənzadə poeziya aləminə qədəm qoyduğu ilk vaxtlardan ədəbiyyatımıza yeni nəfəs gətirmişdir. Şair milli ədəbiyyatın çoxəsrlik parlaq ənənələrinə sadiq qalmaqla, özünəməxsus ifadə tərzi və dəst-xəti sayəsində Azərbaycan xalqının poetik fikir xəzinəsinə dəyərli töhfələr bəxş etmişdir. Qayəsini Vətən məhəbbəti, milli azadlıq duyğuları, ənənəvi dəyərlərə bağlılıq və mənəvi ucalığa çağırış təşkil edən əsərləri onu həmişə ədəbi prosesin ön mövqelərində saxlamışdır. Şairin öz həzinliyi və səmimiliyi, dil səlisliyi, axıcılığı və təbiiliyi ilə seçilən şeirlərində müasirlərimizin hiss və düşüncələri dolğun bədii əksini tapmışdır. Nəriman Həsənzadə poema və mənzum pyeslərində keçmişimizin uzaq və yaxın dövrlərinin taleyüklü mühüm hadisələrini və böyük şəxsiyyətlərini tarixi həqiqətlər işığında dərin vətənpərvərlik və milli dövlətçilik duyğusu ilə canlandırmışdır. Azərbaycan xalqının mübarizliyini və qəhrəmanlığını tərənnüm edən bu əsərlər teatr səhnələrində uğurla tamaşaya qoyulmuş, tamaşaçıların dərin rəğbətini qazanmışdır. Dilimizin tükənməz imkanlarından ustalıqla bəhrələnmiş şairin sözlərinə bu gün də sevilə-sevilə oxunan çox sayda mahnılar bəstələnmişdir.

Sənətkarın ədəbi şəxsiyyəti ilə vəhdət təşkil edən alim, pedaqoq və ictimai xadim kimi dolğun fəaliyyəti Vətənə və xalqa ləyaqətlə xidmətin bariz nümunəsidir. Nəriman Həsənzadə respublikamızın ictimai-siyasi və mədəni həyatında daim yaxından iştirak etmiş, müxtəlif illərdə SSRİ Ədəbiyyat Fondunun Azərbaycan şöbəsinin direktoru, eləcə də rayon, şəhər sovetinin və XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur.

Ölkənin və cəmiyyətin həyatında baş verən proseslərə daim dərin vətəndaşlıq duyğusu ilə yanaşmış Nəriman Həsənzadə mədəniyyətimizin tərəqqisi, milli-mənəvi dəyərlərimizin qorunub yaşadılması üçün var qüvvəsini sərf etmişdir.

Nəriman Həsənzadənin Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafı naminə uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatları - "Şöhrət" (2001), "Şərəf"(2011) və "İstiqlal" (2021) ordenləri ilə təltif edilmiş, 2026-cı ildə isə "Heydər Əliyev" ordeninə layiq görülmüşdür.

Görkəmli şair və dramaturq, tanınmış ictimai xadim, səmimi və təvazökar insan Nəriman Əliməmməd oğlu Həsənzadənin əziz xatirəsi onu tanıyanların qəlbində hər zaman yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV, Fərəh ƏLİYEVA, Adil KƏRİMLİ, Polad BÜLBÜLOĞLU, İsa HƏBİBBƏYLİ, Arif PAŞAYEV, Anar RZAYEV, Çingiz ABDULLAYEV, Rəşad MƏCİD, Sabir RÜSTƏMXANLI, Kamal ABDULLAYEV***

# Birinci vitse-prezident Mehriban Əliyeva Xalq şairi Nəriman Həsənzadənin vəfatı ilə bağlı paylaşım edib

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesablarında Xalq şairi Nəriman Həsənzadənin vəfatı ilə bağlı paylaşım edib.**



AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Nəriman Həsənzadə dünyasını dəyişdi. Onun xatirəsi yalnız böyük Ustad, Xalq şairi kimi deyil, hər şeydən əvvəl nurlu, mehriban, qayğıkeş, səmimi, sözün əsl mənasında Böyük İnsan kimi daim qəlbimdə yaşayacaq. Allah rəhmət eləsin".

# Prezident İlham Əliyevin sosial media hesablarında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ilə bağlı paylaşım edilib




Prezident İlham Əliyevin sosial media hesablarında 1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ilə bağlı paylaşım edilib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti".

# İsveçrə Konfederasiyasının Prezidenti zati-aliləri cənab Qi Parmölənə

Hörmətli cənab Prezident!

İsveçrə Konfederasiyasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Biz Azərbaycan ilə İsveçrə arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə böyük əhəmiyyət veririk. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin və əməkdaşlığımızın möhkəmləndirilməsi naminə bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza daim rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2026-cı il*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 247** **Bakı şəhəri, 30 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 262 (Cild I); 2025, № 9, maddə 868; 2026, № 4, maddə 369) ilə təsdiq edilmiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nın "56. Hüquq elmləri" bölməsinə "5615.01 Mülki proses" ixtisasından sonra aşağıdakı ixtisaslar əlavə edilsin:

| | |
|---|---|
| 5616.01 | Ədalət mühakiməsi hüququ |
| 5617.01 | Hava hüququ və hava məkanının təhlükəsizliyi |
| 5618.01 | Mədəniyyət hüququ |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 249** **Bakı şəhəri, 31 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428; 2025, № 9, maddə 879, № 10, maddələr 972, 996; 2026, № 3, maddələr 270, 272; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 20 iyul tarixli 219 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlinin 8-ci hissəsinin "cəmi" və "aparat üzrə" sütunlarında "7" rəqəmi "8" rəqəmi ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımaları həyata keçirən daşıyıcılar tərəfindən məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin göstərilməsinə görə ödənilən subsidiyanın hesablanması və ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 250** **Bakı şəhəri, 31 iyul 2026-cı il**

"Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 sentyabr tarixli 497 nömrəli Fərmanının 3.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımaları həyata keçirən daşıyıcılar tərəfindən məsafə əsaslı avtomobil nəqliyyatı xidmətinin göstərilməsinə görə subsidiyanın hesablanması və ödənilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Xalq şairi Nəriman Həsənzadə ilə vida mərasimi keçirilib

**Avqustun 2-də Beynəlxalq Muğam Mərkəzində müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Heydər Əliyev mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi, Xalq şairi Nəriman Həsənzadə ilə vida mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, vida mərasimində Milli Məclisin deputatları, tanınmış elm və mədəniyyət xadimləri iştirak ediblər.

Mərhumun cənazəsi Beynəlxalq Muğam Mərkəzinin matəmsayağı bəzədilən səhnəsində postament üzərinə qoyulmuşdu.



Postamentin ətrafına Azərbaycan Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın, dövlət və hökumət təşkilatları adından əklil düzülmüşdü.

Xalq şairi Nəriman Həsənzadənin həmkarları, dostları, tanınmış mədəniyyət və incəsənət xadimləri, mərhumun sənətini sevənlər mərkəzin binasına gələrək Azərbaycan poeziyasının görkəmli nümayəndəsinə son borclarını yerinə yetiriblər.

Vida mərasimində əvvəlcə Nəriman Həsənzadənin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova mədəniyyət naziri Adil Kərimlinin adından mərhumun ailə üzvlərinə və yaxınlarına başsağlığı verib.

Vida mərasimində çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, AMEA prezidenti, akademik İsa Həbibbəyli, Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, mədəniyyət nazirinin müşaviri Orxan Fikrətoğlu, Xalq şairi Vahid Əziz Xalq şairi Nəriman Həsənzadənin zəngin yaradıcılığından, Azərbaycan ədəbiyyatına verdiyi dəyərli töhfələrdən danışıblar.

Ailə üzvləri adından çıxış edən oğlu Nazim Həsənzadə atasının yaradıcılığına hər zaman böyük diqqətlə yanaşan ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Xalq şairi Nəriman Həsənzadənin cənazəsi Beynəlxalq Muğam Mərkəzinin binasından qaldırılaraq Fəxri xiyabana aparılıb.

❖ ❖ ❖

Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Heydər Əliyev mükafatı laureatı, Xalq şairi Nəriman Həsənzadə avqustun 2-də Fəxri xiyabanda dəfn edilib.

Burada mərhumun ruhuna dualar oxunub, məzarı üzərinə gül dəstələri, əkliller qoyulub.

# Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 15-ci və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 444 (Cild I); 2024, № 2, maddə 134, № 4, maddə 365; 2025, № 1, maddə 1; 2026, № 1, maddə 2) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 2.2-1 - 2.2-3-cü və 3.1-1-ci maddələr əlavə edilsin:

"2.2-1. Avtonom gəmi - səfərin hər hansı bir hissəsində və ya bütün səfər boyunca insan tərəfindən birbaşa və ya davamlı idarəetmə müdaxiləsi olmadan avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə hərəkət edə bilən mülki təyinatlı gəmi.

2.2-2. Avtonom gəminin operatoru (bundan sonra - operator) - avtonom gəminin avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətini təmin edən, müvafiq şəhadətnaməyə malik şəxs.

2.2-3. Məsafədən idarəetmə mərkəzi - avtonom gəminin avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətinin təmininin məsafədən həyata keçirildiyi idarəetmə məntəqəsi.";

"3.1-1. Bu Məcəllə yüksək (avtonom gəminin hərəkətinin idarə edilməsinin, hərəkət zamanı obyekt və hadisələrin aşkarlanması, o cümlədən adekvat reaksiya verilməsi prosesinin və ehtiyat idarəetmənin sistem tərəfindən, idarəetməyə nəzarətin operator tərəfindən həyata keçirildiyi səviyyə) və tam (avtonom gəminin hərəkətinin idarə edilməsinin, hərəkət zamanı obyekt və hadisələrin aşkarlanması, o cümlədən adekvat reaksiya verilməsi prosesinin və ehtiyat idarəetmənin sistem tərəfindən operatorun idarəetməyə nəzarəti olmadan həyata keçirildiyi səviyyə) avtomatlaşdırma səviyyəsi olan avtonom gəmilərin istismarına və fəaliyyətinə şamil edilir.";

1.2. IV fəsil üzrə:

1.2.1. adında "GƏMİ KAPİTANI" sözləri "AVTONOM GƏMİ" sözləri ilə əvəz edilsin;

1.2.2. aşağıdakı məzmunda 48.6-cı, 48.7-ci və 60-1-ci maddələr əlavə edilsin:

"48.6. Avtonom gəminin sahibi bu Məcəllənin 48.1-ci, 48.2-ci, 48.4-cü və 48.5-ci maddələrində qeyd olunan vəzifələrlə yanaşı, həmin gəminin istehsalçısı tərəfindən müəyyən edilmiş texniki və proqram təminatı tələblərinə uyğun vəziyyətdə saxlanılmasını, müvafiq şəhadətnaməyə malik operatorun avtonom gəminin idarə edilməsinə cəlb olunmasını, eləcə də istismar qaydalarının, nasazlıq və fövqəladə hallarda (hadisələrdə) müdaxilə (hərəkətin dayandırılması ilə bağlı) prosedurlarının istehsalçıdan əldə olunmasını təmin etməlidir.

48.7. Avtonom gəminin sahibi və ya onun mülki hüquqi müqavilə əsasında cəlb etdiyi operator məsafədən idarəetmə mərkəzini yaradır və həmin mərkəzin proqram təminatının mütəmadi yenilənməsini, kibertəhlükəsizliyinin təminini və təhlükəsizlik auditinin keçirilməsini qeyd olunan mərkəzi yaradan şəxs təmin edir.";

**"60-1. Avtonom gəminin istismarının əsasları və fəaliyyətinin tənzimlənməsi**

60-1.1. Avtonom gəmilərə, məsafədən idarəetmə mərkəzinə və operatora dair tələblər "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları, habelə dəniz nəqliyyatı sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən olunur. Bu Məcəllənin gəmilərə, gəmi heyətinə, gəmilərin və onlara olan hüquqların qeydiyyata alınmasına, dövlət bayraq və liman nəzarətinə, ərazi sularında üzməyə və daşımaların həyata keçirilməsinə dair tələbləri avtonom gəmilərə də şamil edilir.

60-1.2. Avtonom gəmi yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən ərazidə hərəkət edə bilər.

60-1.3. Fiziki və hüquqi şəxslər, o cümlədən xarici hüquqi şəxsin filialı və nümayəndəliyi operator qismində fəaliyyət göstərmək üçün "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun 15-1-ci maddəsi ilə müəyyən edilmiş qaydada şəhadətnamə almalıdırlar.

60-1.4. Operatorun vəzifələri aşağıdakılardır:

60-1.4.1. avtonom gəminin istismarı zamanı avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətinə nəzarət etmək;

60-1.4.2. hava şəraiti avtonom gəminin istismarına təhlükə yaratdığı, avtonom gəminin bu Məcəllənin 60-1.2-ci maddəsində müəyyən edilmiş ərazidən kənara çıxması, avtomatlaşdırılmış idarəetmə sisteminə kənar müdaxilənin baş verməsi, nasazlıq və fövqəladə hallar (hadisələr) baş verdikdə avtonom gəminin avtomatlaşdırılmış idarəetmə sistemi tərəfindən verilən xəbərdarlıqlara uyğun olaraq həmin sistemə təlimatlar verməklə operativ müdaxilə (hərəkətin dayandırılması ilə bağlı) etmək;

60-1.4.3. avtonom gəminin avtomatlaşdırılmış idarəetmə sistemində olan məlumatların, habelə avtonom gəminin iştirakı ilə qəza baş verdiyi təqdirdə bu barədə məlumatların real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülməsini və gəmi sahibinə verilməsini təmin etmək;

60-1.4.4. avtonom gəminin istifadəsi ilə bağlı son 6 (altı) ayı əhatə edən məlumatların saxlanmasını və mühafizəsini təmin etmək.

60-1.5. Operator fiziki şəxs olduqda özü, hüquqi şəxs olduqda isə avtonom gəminin avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə idarə edilməsinə nəzarəti həyata keçirən işçiləri, avtomatlaşdırılmış idarəetmə sistemi və məsafədən idarəetmə mərkəzi "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 5-ci, 6-cı hissələrində və 22-1-ci maddəsinin 2 - 4-cü, 6-cı, 8-ci hissələrində qeyd edilən tələblərə cavab verməlidir.".

**Maddə 2.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564 (Cild I); 2024, № 7, maddə 771, № 8, maddə 932; 2025, № 1, maddə 16, № 2, maddə 94, № 6, maddə 523, № 12 (I kitab), maddə 1125; 2026, № 4, maddə 292; Azərbaycan Respublikasının 2026-cı il 17 mart tarixli 379-VIIQD nömrəli və 1 may tarixli 402-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci maddənin birinci hissəsi üzrə:

2.1.1. 17-ci bəndə "tərəfindən" sözündən sonra "(avtonom nəqliyyat vasitələrinə münasibətdə həmçinin avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə)" sözləri əlavə edilsin;

2.1.2. aşağıdakı məzmunda 18-1 - 18-3-cü bəndlər əlavə edilsin:

"18-1) **avtonom nəqliyyat vasitəsi** - avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə hərəkət edən və aşağıdakı tələblərə cavab verən mülki təyinatlı nəqliyyat vasitəsidir:

insan tərəfindən birbaşa və ya davamlı idarəetmə müdaxiləsi olmadan özü hərəkət edən;

yol hərəkətinin təhlükəsizliyi pozulduqda və ya avtonom nəqliyyat vasitəsində nasazlıq yarandıqda özü-özünü təhlükəsiz hərəkət rejiminə gətirə bilən;

avtomatlaşdırılmış idarəetmə sistemi yüksək avtomatlaşdırılmış (avtomatlaşdırılmış idarəetmə sistemi yalnız bu Qanunun 46-3-cü maddəsinin II hissəsində nəzərdə tutulmuş ərazidə bütün hərəkətini və ətraf mühitin monitorinqini tam həyata keçirə bilmə, habelə özü-özünü minimal risk vəziyyətinə müstəqil şəkildə keçirə bilmə imkanına malik olma) və ya tam avtomatlaşdırılmış (avtomatlaşdırılmış idarəetmə sistemi istənilən ərazidə bütün hərəkətini və ətraf mühitin monitorinqini tam həyata keçirə bilmə, habelə özü-özünü minimal risk vəziyyətinə müstəqil şəkildə keçirə bilmə imkanına malik olma) səviyyələrində olan;

18-2) **avtonom nəqliyyat vasitəsinin operatoru** - avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətini təmin edən, müvafiq şəhadətnaməyə malik şəxsdir;

18-3) **məsafədən idarəetmə mərkəzi** - avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətinin təmininin məsafədən həyata keçirildiyi idarəetmə məntəqəsidir;";

2.2. 20-ci maddənin IV hissəsinə "idarə etdikləri" sözlərindən sonra "(avtonom nəqliyyat vasitələrinə münasibətdə isə avtonom nəqliyyat vasitəsinin operatoru)" sözləri əlavə edilsin;

2.3. 24-cü maddənin I hissəsinin 6-cı bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7-ci bənd əlavə edilsin:

"7) avtonom nəqliyyat vasitəsinin operatorları.";

2.4. 25-ci maddənin I hissəsinə "sürücülərin" sözündən sonra ", avtonom nəqliyyat vasitəsinin operatorlarının" sözləri əlavə edilsin;

2.5. 33-cü maddənin I hissəsinə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətinə nəzarət etmək üçün sürücülük vəsiqəsi tələb olunmur. Avtonom nəqliyyat vasitəsinin texniki parametrləri imkan verdiyi halda avtonom nəqliyyat vasitəsinin bilavasitə idarə edilməsi zamanı həmin nəqliyyat vasitəsini idarə edən şəxsin müvafiq kateqoriyalı sürücülük vəsiqəsi olmalıdır.";

2.6. aşağıdakı məzmunda 46-3 - 46-5-ci maddələr əlavə edilsin:

**"Maddə 46-3. Avtonom nəqliyyat vasitələrinin hərəkətinə dair tələblər**

I. Avtonom nəqliyyat vasitəsi bu Qanunun 14-cü maddəsi və üçüncü fəsli, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş tələblərə cavab verdiyi təqdirdə, o cümlədən bu Qanunun 27-ci maddəsinə uyğun olaraq dövlət qeydiyyatına alındıqdan sonra yol hərəkətində iştiraka buraxılır.

II. Avtonom nəqliyyat vasitəsi yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla müəyyən edilən ərazidə və avtomobil yolunda hərəkət edə bilər.

**Maddə 46-4. Avtonom nəqliyyat vasitələrinin fəaliyyətinə nəzarət**

I. Avtonom nəqliyyat vasitələrinin avtomatlaşdırılmış idarəetmə sistemləri həmin sistemlərin fəaliyyətinə nəzarətin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılan idarəetməyə nəzarət mərkəzi ilə inteqrasiya edilməlidir.

II. İdarəetməyə nəzarət mərkəzinin aşağıdakı vəzifələri vardır:

1) avtonom nəqliyyat vasitələrinin hərəkətinin monitorinqinin və təhlilinin aparılması (fərdi məlumatların mühafizəsi ilə bağlı normativ hüquqi aktların tələblərinə riayət edilməsi, o cümlədən anonimliyin və konfidensiallığın təmini şərtilə);

2) avtonom nəqliyyat vasitələrinin istismarı ilə əlaqədar formalaşan məlumatların saxlanılmasının təmin edilməsi;

3) aşağıdakı hallarda avtonom nəqliyyat vasitələrinin yol hərəkətindən kənarlaşdırılması ilə bağlı tədbirlərin görülməsi:

avtonom nəqliyyat vasitəsində və ya onun avtomatlaşdırılmış idarəetmə sistemində nasazlıq müəyyən edildikdə;

avtonom nəqliyyat vasitəsinin bu Qanunun 46-3-cü maddəsinin II hissəsində müəyyən edilmiş ərazi və ya avtomobil yolundan kənara çıxması halları müəyyən edildikdə;

yol hərəkəti şəraitinin avtonom nəqliyyat vasitəsinin istismarına təhlükə yaratdıqda.

**Maddə 46-5. Avtonom nəqliyyat vasitəsinin operatorunun vəzifələri**

I. Avtonom nəqliyyat vasitələrinin operatorlarının aşağıdakı vəzifələri vardır:

1) avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətinə nəzarət etmək;

2) avtonom nəqliyyat vasitəsinin istismarı təhlükə yaratdıqda, avtonom nəqliyyat vasitəsinin bu Qanunun 46-3-cü maddəsinin II hissəsində müəyyən edilmiş ərazidən və ya avtomobil yolundan kənara çıxdıqda, avtomatlaşdırılmış idarəetmə sisteminə kənar müdaxilə baş verdikdə, nasazlıq və fövqəladə hallar (hadisələr) baş verdikdə avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sistemi tərəfindən verilən xəbərdarlıqlara uyğun olaraq həmin sistemə təlimatlar verməklə operativ müdaxilə (hərəkətin dayandırılması ilə bağlı) etmək;

3) avtonom nəqliyyat vasitəsinin üzərində aydın görünən yerdə və oxuna bilən ölçülərdə avtonom nəqliyyat vasitəsinin operatorunun əlaqə məlumatlarını (mobil nömrə və qaynar xətt) yerləşdirmək və avtonom nəqliyyat vasitəsinin yol hərəkətində iştirakı zamanı üzərində göstərilmiş əlaqə məlumatlarının daim əlçatan olmasını təmin etmək;

4) avtonom nəqliyyat vasitəsinin istifadəsi ilə bağlı son 6 (altı) ayı əhatə edən məlumatların saxlanılmasını və mühafizəsini təmin etmək;

5) avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sistemində olan məlumatların real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sisteminə ötürülməsini təmin etmək;

6) avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sisteminin bu Qanunun 36-cı maddəsinin I hissəsinin 1 - 3-cü bəndlərində, 37-ci maddəsinin I hissəsinin 3-7-ci və 11-ci bəndlərində, 42-ci maddəsində, 43-cü maddəsinin I, II və IV hissələrində, 44-cü maddəsinin I və II hissələrində, III hissəsinin 1 - 6-cı bəndlərində, IV hissəsində, 48 - 51-ci maddələrində, 52-ci maddəsinin I - VIII hissələrində, 53-cü maddəsinin IV, X, X-I, X-II, XV, XVI, XVII, XXIII, XXIV hissələrində, 54-cü, 56 - 58-ci və 60-cı maddələrində nəzərdə tutulan tələblərə uyğun fəaliyyətinə nəzarət etmək;

7) avtonom nəqliyyat vasitəsinin iştirakı ilə yol-nəqliyyat hadisəsi baş verdiyi təqdirdə avtonom nəqliyyat vasitəsinin dayanmasını təmin etmək, yol hərəkətinə, insanların həyatı və ya əmlakına təhlükə yaratmaması üçün tədbirlər görmək, habelə bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dərhal məlumat vermək.

II. Fiziki və hüquqi şəxslər, o cümlədən xarici hüquqi şəxsin filialı və nümayəndəliyi operator qismində fəaliyyət göstərmək üçün "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun 15-1-ci maddəsi ilə müəyyən edilmiş qaydada şəhadətnamə almalıdırlar.

III. Operator fiziki şəxs olduqda özü, hüquqi şəxs olduqda isə avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə idarə edilməsinə nəzarəti həyata keçirən işçiləri, avtomatlaşdırılmış idarəetmə sistemi və məsafədən idarəetmə mərkəzi "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 5-ci hissəsində və 22-1-ci maddəsinin 2 - 4-cü, 8-ci hissələrində qeyd edilən tələblərə cavab verməlidir.

IV. Avtonom nəqliyyat vasitəsinin mülkiyyətçisi (sahibi) həmin nəqliyyat vasitəsinin "Avtonom nəqliyyat vasitəsi" tanınma nişanı ilə təchiz edilməsini, istehsalçısı tərəfindən müəyyən edilmiş texniki və proqram təminatı tələblərinə uyğun vəziyyətdə saxlanılmasını, müvafiq şəhadətnaməyə malik operatorun nəqliyyat vasitəsinin avtonom idarə edilməsinə cəlb olunmasını, eləcə də istismar qaydalarının, nasazlıq və fövqəladə hallarda (hadisələrdə) müdaxilə (hərəkətin dayandırılması ilə bağlı) prosedurlarının istehsalçıdan əldə olunmasını təmin etməlidir.

V. Avtonom nəqliyyat vasitəsinin mülkiyyətçisi (sahibi) və ya onun mülki hüquqi müqavilə əsasında cəlb etdiyi operator məsafədən idarəetmə mərkəzini yaradır və həmin mərkəzin proqram təminatının mütəmadi yenilənməsini, kibertəhlükəsizliyinin təminini və təhlükəsizlik auditinin keçirilməsini qeyd olunan mərkəzi yaradan şəxs təmin edir.";

2.7. 66-cı maddənin II hissəsinin üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"Göy fon avtomagistral və bütün avtomobil yolları deməkdir.";

2.8. 72-ci maddənin birinci hissəsinin 13-cü bəndində nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 14-cü bənd əlavə edilsin:

"14) Avtonom nəqliyyat vasitəsinin tanınma nişanı" - avtomatlaşdırılmış idarəetmə sistemi ilə təchiz edilmiş nəqliyyat vasitələrinin arxasında eni 200 mm ölçüdə, hündürlüyü 250 mm ölçüdə ağ haşiyəyə alınmış göy rəngli düzbucaq şəklində tanınma nişanı quraşdırılır, yol hərəkətinin digər iştirakçılarını xəbərdar etmək məqsədilə lövhənin yuxarı hissəsində simsiz ötürülmə dalğaları təsvir edilmiş avtomobil simvolu, aşağı hissəsində isə ağ rənglə "AVTONOM NƏQLİYYAT VASİTƏSİ" sözləri yazılır.";

2.9. həmin Qanuna 4 saylı Əlavənin "V. Məlumatverici-göstərici nişanlar" qrupunda "5.1. Avtomagistral" və "5.2. Avtomagistralın qurtaracağı" nişanları yeni təsvirdə verilsin (1 nömrəli əlavə);

2.10. həmin Qanuna 7 saylı Əlavəyə "Avtonom nəqliyyat vasitəsinin tanınma nişanı" əlavə edilsin (2 nömrəli əlavə).

**Maddə 3.** "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 399 (Cild I); 2025, № 4 (I kitab), maddə 319, № 6, maddə 524; 2026, № 1, maddə 2) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1-ci maddənin birinci hissəsi üzrə:

3.1.1. ikinci abzasa "metropoliten," sözündən sonra "tramvay," sözü əlavə edilsin;

3.1.2. aşağıdakı məzmunda altıncı - doqquzuncu abzaslar əlavə edilsin:

"avtonom nəqliyyat vasitəsi" - insan tərəfindən birbaşa və ya davamlı idarəetmə müdaxiləsi olmadan avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə hərəkət edə bilən mülki təyinatlı nəqliyyat vasitəsidir.

"avtonom nəqliyyat vasitəsinin operatoru" (bundan sonra - operator) - avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətini təmin edən, müvafiq şəhadətnaməyə malik şəxsdir.

"məsafədən idarəetmə mərkəzi" - avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətinin təmininin məsafədən həyata keçirildiyi idarəetmə məntəqəsidir.

"avtomatlaşdırılmış idarəetmə sistemi" - avtonom nəqliyyat vasitəsinin hərəkətini təmin edən və bu Qanunun 22-1-ci maddəsinin 2 - 7-ci hissələrində qeyd edilən tələblərə cavab verən texniki avadanlıqların və proqram təminatının məcmusudur.";

3.2. 2-ci maddəyə aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qanun yüksək (avtonom nəqliyyat vasitəsinin hərəkətinin idarə edilməsinin, hərəkət zamanı obyekt və hadisələrin aşkarlanması, o cümlədən adekvat reaksiya verilməsi prosesinin və ehtiyat idarəetmənin sistem tərəfindən, idarəetməyə nəzarətin operator tərəfindən həyata keçirildiyi səviyyə) və tam (avtonom nəqliyyat vasitəsinin hərəkətinin idarə edilməsinin, hərəkət zamanı obyekt və hadisələrin aşkarlanması, o cümlədən adekvat reaksiya verilməsi prosesinin və ehtiyat idarəetmənin sistem tərəfindən operatorun idarəetməyə nəzarəti olmadan həyata keçirildiyi səviyyə) avtomatlaşdırma səviyyəsi olan avtonom nəqliyyat vasitəsinin istismarına və fəaliyyətinə şamil edilir.";

3.3. 3-cü maddənin 3-cü hissəsinə "metropoliten" sözündən sonra "və tramvay xətləri (infrastrukturu)" sözləri əlavə edilsin;

3.4. 6-cı maddənin birinci hissəsinin onuncu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on birinci abzas əlavə edilsin:

"avtonom nəqliyyat vasitələrinin fəaliyyətinə dair hüquqi bazanın yaradılmasının, onların avtomatlaşdırılmış idarəetmə sistemlərinin effektivliyinin tənzimləyici test mühiti çərçivəsində qiymətləndirilməsinin, habelə təhlükəsiz istismarının təmin edilməsi.";

3.5. 8-ci maddənin 5-ci hissəsinə "metropolitenin," sözündən sonra "tramvayın," sözü əlavə edilsin;

3.6. aşağıdakı məzmunda 8-1-ci maddə əlavə edilsin:

**"Maddə 8-1. Avtonom nəqliyyat vasitəsinin istismarının əsasları və fəaliyyətinin tənzimlənməsi**

1. Avtonom nəqliyyat vasitəsi bu Qanun, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən olunan tələblərə uyğun olduğu halda, o cümlədən dövlət qeydiyyatına alındıqdan sonra istismar edilə bilər.

2. Avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sisteminin effektivliyi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada tənzimləyici test mühiti çərçivəsində qiymətləndirilir. Tənzimləyici test mühitinin həyata keçirilməsi nəticəsində avtomatlaşdırılmış idarəetmə sisteminin sınaqlarının nəticəsi uğursuz olduqda həmin avtonom nəqliyyat vasitələri istismara buraxılmır.

3. Avtonom nəqliyyat vasitəsi yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən (avtomobil yoluna münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla) müəyyən edilən ərazidə, dəmiryolunda, metro və tramvay xətlərində, hava məkanında, habelə avtomobil yolunda hərəkət edə bilər.

4. Avtonom nəqliyyat vasitəsinin istismarı nəticəsində vurulan zərərə görə həmin nəqliyyat vasitəsinin mülkiyyətçisi (sahibi) və ya istismarçısı (sahib qismində çıxış etdikdə) məsuliyyət daşıyır. Vurulan zərərin avtonom nəqliyyat vasitəsinin və ya avtomatlaşdırılmış idarəetmə sisteminin istehsalçısının, yaxud həmin sistemə texniki xidməti göstərən şəxsin, eləcə də mülki hüquqi müqavilə əsasında cəlb edilən operatorun təqsiri üzündən baş verdiyi sübut edilərsə həmin nəqliyyat vasitəsinin mülkiyyətçisi (sahibi) və ya istismarçısı Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələblərinə əsasən onlara qarşı reqres qaydasında tələb irəli sürə bilər. Qeyd edilən zərərin avtonom nəqliyyat vasitəsinin mülkiyyətçisi (sahibi) və ya istismarçısı ilə əmək münasibətlərində olan operatorun təqsiri üzündən baş verdiyi sübut edilərsə həmin zərərin ödənilməsi Azərbaycan Respublikası Əmək Məcəlləsinin 30-cu və 32-ci fəsillərinin tələblərinə uyğun olaraq tənzimlənir.

5. Avtonom nəqliyyat vasitəsinin, eləcə də həmin nəqliyyat vasitəsilə sərnişinlərin və yüklərin daşınması ilə bağlı sığortalanma nəqliyyat vasitəsinin mülkiyyətçisi (sahibi) və ya istismarçısı (sahib qismində çıxış etdikdə) tərəfindən bu Qanunun 23-cü maddəsi və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada təmin edilir.

6. Avtonom nəqliyyat vasitəsinin mülkiyyətçisi (sahibi) və ya istismarçısı (sahib qismində çıxış etdikdə) həmin nəqliyyat vasitəsinin istehsalçısı tərəfindən müəyyən edilmiş texniki və proqram təminatı tələblərinə uyğun vəziyyətdə saxlanılmasını, müvafiq şəhadətnaməyə malik operatorun nəqliyyat vasitəsinin avtonom idarə edilməsinə cəlb olunmasını, eləcə də istismar qaydalarının, nasazlıq və fövqəladə hallarda (hadisələrdə) müdaxilə (hərəkətin dayandırılması ilə bağlı) prosedurlarının istehsalçıdan əldə olunmasını təmin etməlidir.

7. Avtonom nəqliyyat vasitəsinin mülkiyyətçisi (sahibi), yaxud istismarçısı (sahib qismində çıxış etdikdə) və ya onun mülki hüquqi müqavilə əsasında cəlb etdiyi operator məsafədən idarəetmə mərkəzini yaradır və həmin mərkəzin proqram təminatının mütəmadi yenilənməsini, kibertəhlükəsizliyinin təminini və təhlükəsizlik auditinin keçirilməsini qeyd olunan mərkəzi yaradan şəxs təmin edir.

8. Avtonom nəqliyyat vasitəsinə və hərəkətinə dair digər tələblər, habelə həmin nəqliyyat vasitəsinin dövlət qeydiyyatı və istismarı, o cümlədən onlar vasitəsilə yüklərin və sərnişinlərin daşınması ilə bağlı bu Qanunla tənzimlənməyən digər məsələlər Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin, "Yol hərəkəti haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun olaraq tənzimlənir.";

3.7. 15-ci maddə üzrə:

3.7.1. 1-ci hissənin ikinci cümləsində "Nəqliyyat" sözü "Bu Qanunun 15-ci maddəsinin 5-ci hissəsinin tələbi nəzərə alınmaqla, nəqliyyat" sözləri ilə əvəz edilsin;

3.7.2. aşağıdakı məzmunda 3 - 6-cı hissələr əlavə edilsin:

"3. Avtonom pilotsuz uçuş aparatlarının operator tərəfindən avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə istismarı məsafədən idarəetmə mərkəzindən kənarda həyata keçirildiyi hallar istisna olmaqla, avtonom nəqliyyat vasitəsinin yerlərdə istismarı operator tərəfindən avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə məsafədən idarəetmə mərkəzindən həyata keçirilir.

4. Operatorun vəzifələri aşağıdakılardır:

4.1. avtonom nəqliyyat vasitəsinin istismarı zamanı avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətinə nəzarət etmək;

4.2. hava və ya yol şəraiti avtonom nəqliyyat vasitəsinin istismarına təhlükə yaratdığı, avtonom nəqliyyat vasitəsinin bu Qanunun 8-1-ci maddəsinin üçüncü hissəsinə uyğun olaraq müəyyən edilmiş ərazidən, dəmiryolu, metro və tramvay xətlərindən, hava məkanından, habelə avtomobil yolundan kənara çıxması, avtomatlaşdırılmış idarəetmə sisteminə kənar müdaxilənin baş verməsi, nasazlıq və fövqəladə hallar (hadisələr) baş verdikdə avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sistemi tərəfindən verilən xəbərdarlıqlara uyğun olaraq həmin sistemə təlimatlar verməklə operativ müdaxilə (hərəkətin dayandırılması ilə bağlı) etmək;

4.3. avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sistemində olan məlumatların real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sisteminə ötürülməsini təmin etmək;

4.4. avtonom nəqliyyat vasitəsinin istifadəsi ilə bağlı son 6 (altı) ayı əhatə edən məlumatların saxlanmasını və mühafizəsini təmin etmək;

4.5. avtonom nəqliyyat vasitəsinin iştirakı ilə hadisə, qəza və ya insident baş verdiyi təqdirdə bu barədə dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) (aidiyyəti dövlət qurumlarının da məlumatlandırılması məqsədilə) məlumat vermək;

4.6. bu Qanunla və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

5. Bu Qanunun 15-ci maddəsinin 6-cı hissəsinin tələbi nəzərə alınmaqla, avtonom nəqliyyat vasitələrinin avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə idarə edilməsinə nəzarəti həyata keçirən operator fiziki şəxs olduqda özü, hüquqi şəxs olduqda isə işçiləri aşağıdakı tələblərə cavab verməlidir:

5.1. avtonom nəqliyyat vasitələrinin istismarı, avtomatlaşdırılmış idarəetmə sistemləri, nasazlıq və fövqəladə hallar (hadisələr) baş verdikdə müdaxilə (hərəkətin dayandırılması ilə bağlı) üzrə hazırlıq və təlim keçməli;

5.2. terrorçuluq, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə, həyat və sağlamlıq əleyhinə, mülkiyyət əleyhinə, iqtisadi fəaliyyət sahəsində, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar ağır və (və ya) xüsusilə ağır cinayətlərə görə məhkum edilməməli;

5.3. ödənilməmiş və ya götürülməmiş məhkumluğu olmamalı;

5.4. fəaliyyət qabiliyyətinə malik olmaması və ya məhdud fəaliyyət qabiliyyətinə malik olmasına dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olmamalı;

5.5. barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olmamalı;

5.6. fiziki və psixi cəhətdən sağlam olmalı.

6. Avtonom gəminin və avtonom pilotsuz uçuş aparatının idarə edilməsini həyata keçirən operator fiziki şəxs olduqda özü, hüquqi şəxs olduqda isə onun avtonom nəqliyyat vasitələrinin avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə idarə edilməsinə nəzarəti həyata keçirən işçiləri bu Qanunun 15-ci maddəsinin 5-ci hissəsində qeyd edilən tələblərlə yanaşı, müvafiq olaraq "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair" 1978-ci il 7 iyul tarixli Beynəlxalq Konvensiyanın tələblərinə uyğun olaraq, gəminin komandir heyəti üzvləri üçün müəyyən edilmiş tələblərə və "Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiyaya və onun əlavələri ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartları və tövsiyə olunan təcrübəsi ilə müəyyən edilmiş tələblərə cavab verməlidir.";

3.8. aşağıdakı məzmunda 15-1-ci və 22-1-ci maddələr əlavə edilsin:

**"Maddə 15-1. Operatorlara şəhadətnamələrin verilməsi qaydası**

1. Hüquqi və ya fiziki şəxs müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) şəhadətnamə aldıqdan sonra operator qismində fəaliyyət göstərə bilər.

2. Şəhadətnamənin alınması üçün ərizəçi müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqana (quruma) "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada elektron ərizə təqdim edir. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir (bu Qanunun 15-1-ci maddəsinin 3-cü hissəsində göstərilən hal nəzərə alınmaqla):

2.1. ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;

2.2. ərizəçi fiziki şəxs olduqda, şəxsiyyət vəsiqəsinin surəti;

2.3. ərizəçinin vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnaməsinin surəti;

2.4. ərizəçinin avtonom nəqliyyat vasitələrinin avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə idarə edilməsinə nəzarəti həyata keçirən işçilərinin şəxsiyyət vəsiqələrinin surəti;

2.5. bu Qanunun 15-ci maddəsinin 3-cü hissəsində qeyd edilən hal nəzərə alınmaqla, aidiyyəti üzrə bu Qanunun 15-ci maddəsinin 5-ci və 6-cı hissələrində qeyd edilən tələbləri təsdiq edən sənədlər (məlumatlar).

3. Bu Qanunun 15-1-ci maddəsinin 2-ci hissəsində göstərilən sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət qurumundan tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

4. Müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) ərizəçinin təqdim etdiyi ərizənin və ona əlavə edilmiş sənədlərin bu Qanunun 15-1-ci maddəsinin 2-ci hissəsinin tələblərinə uyğunluğunu yoxlayır. Ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və şəhadətnamənin verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq onların aradan qaldırılması barədə məlumat ərizəçiyə elektron qaydada təqdim edilir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Bütün çatışmazlıqlar ərizəçiyə eyni zamanda bildirilməlidir.

5. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 (on) iş günü ərzində aradan qaldırmalıdır. Bu zaman şəhadətnamənin verilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət şəhadətnamənin verilməsi müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

6. Ərizəçi ərizədə və ona əlavə edilmiş sənədlərdə aşkar olunmuş çatışmazlıqları bu Qanunun 15-1-ci maddəsinin 5-ci hissəsində göstərilən müddətdə aradan qaldırmadıqda müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) ərizənin baxılmamış saxlanılması haqqında inzibati akt qəbul edir və bu barədə məlumatı 2 (iki) iş günü ərzində ərizəçiyə elektron qaydada təqdim edir.

7. Ərizəçi aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra şəhadətnamənin alınması üçün təkrar ərizə ilə müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqana (quruma) müraciət edə bilər.

8. Müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) təqdim edilən ərizəyə baxarkən aidiyyəti dövlət qurumlarının rəyini ala, habelə ekspert və ya mütəxəssis cəlb edə bilər.

9. Bu Qanunun 15-1-ci maddəsinin 8-ci hissəsinə uyğun olaraq, müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) rəy (razılıq) alınması üçün aidiyyəti dövlət qurumlarına müraciət etdikdə, ona 7 (yeddi) iş günü ərzində baxılaraq cavab verilir. Aidiyyəti dövlət qurumlarının əsaslandırılmış müraciəti ilə həmin müddət 20 (iyirmi) gündən çox olmayan müddətə uzadıla bilər. Bu müddət ərzində rəy (razılıq) bildirilmədikdə, rəy müsbət və razılıq verilmiş hesab olunur. Mənfi rəy, habelə razılığın verilməsindən imtina normativ hüquqi aktlara istinad edilməklə əsaslandırılmalıdır. Aidiyyəti dövlət qurumlarının rəy (razılıq) verilməsi üçün bu Qanunla nəzərdə tutulan müddət şəhadətnamənin verilməsi ilə bağlı müddətə daxil edilmir.

10. Bu Qanunun 15-1-ci maddəsinin 9-cu hissəsinə uyğun olaraq müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) ekspert və ya mütəxəssisin cəlb olunması ilə bağlı aidiyyəti dövlət qurumuna müraciət etdikdə, həmin dövlət qurumu 1 (bir) iş günü ərzində öz ekspert və ya mütəxəssisini təqdim etməlidir. Ekspert rəyinin alınması və ya mütəxəssis fikrinin ifadəsi üçün təyin olunan müddət 5 (beş) iş günündən çox olmamalıdır. Bu müddət şəhadətnamənin verilməsi ilə bağlı müddətə daxil edilmir.

11. Müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) təqdim olunmuş ərizəyə və ona əlavə edilmiş sənədlərə baxılmasının nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən 20 (iyirmi) iş günündən gec olmayaraq təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş elektron şəhadətnaməni verir və ya verilməsindən imtina haqqında inzibati akt qəbul edir. Bu barədə ərizəçiyə 2 (iki) iş günü ərzində elektron qaydada məlumat verilir. Şəhadətnamə 5 (beş) il müddətinə verilir. Operator bu müddətin bitməsinə 30 (otuz) gün qalanadək yeni şəhadətnamənin alınması üçün bu Qanunun 15-1-ci maddəsinə uyğun olaraq yenidən müraciət etməlidir.

12. Şəhadətnamədə aşağıdakılar göstərilir:

12.1. şəhadətnamənin verilmə tarixi və qeydiyyat nömrəsi;

12.2. şəhadətnamə verən orqanın adı və ünvanı;

*Ardı 5-ci səh.*

# Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

12.3. operator barədə məlumatlar (hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və hüquqi ünvanı, fiziki şəxsin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi və vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) yerləşdiyi ünvanı, hüquqi şəxsin və fərdi sahibkarın vergi ödəyicisinin eyniləşdirmə nömrəsi);

12.4. şəhadətnamənin müddəti (başlama və başa çatma tarixləri göstərilməklə);

12.5. şəhadətnaməni imzalayan vəzifəli şəxsin soyadı, adı, vəzifəsi, imzası və möhür.

13. Operator tərəfindən şəhadətnamənin üzərində hər hansı formada düzəlişlərin aparılmasına, o cümlədən şəhadətnamənin başqa şəxsə verilməsinə yol verilmir. Şəhadətnamə alınması üçün təqdim edilmiş sənədlərdə (məlumatlarda) dəyişikliklər olduqda müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqana (quruma) 2 (iki) iş günü ərzində elektron qaydada məlumat (təsdiqedici sənədlərlə birlikdə) verilməlidir. Bu zaman müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan (qurum) ərizə daxil olduqdan 5 (beş) iş günü ərzində yenidən rəsmiləşdirilmiş (təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş) elektron şəhadətnaməni operatora elektron qaydada təqdim edir.

14. Bu Qanunun 15-ci maddəsinin 5-ci, 6-cı hissələrində və 22-1-ci maddəsinin 2 - 6-cı, 8-ci hissələrində qeyd edilən tələblər aidiyyəti üzrə təmin edilmədikdə şəhadətnamənin verilməsindən imtina edilir.

15. Şəhadətnamə aşağıdakı hallarda ləğv edilir:

15.1. operator tərəfindən müvafiq ərizə təqdim edildikdə;

15.2. şəhadətnamənin müddəti bitdikdə;

15.3. operator olan hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi ləğv edildikdə;

15.4. operator olan fiziki şəxsin fərdi sahibkar kimi fəaliyyətinə xitam verildikdə;

15.5. operator olan fiziki şəxs vəfat etdikdə;

15.6. məhkəmənin müvafiq qərarı olduqda;

15.7. şəhadətnamənin verilməsi üçün təqdim edilmiş sənədlərdə (məlumatlarda) sonralar düzgün olmayan məlumatlar aşkar edildikdə.

16. Şəhadətnamə bu Qanunun 15-1-ci maddəsinin 15-ci hissəsində göstərilən hallara (bu Qanunun 15-1-ci maddəsinin 15.6-cı bəndi istisna olmaqla) istinad edilməklə, müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqanın (qurumun) inzibati aktı ilə ləğv edilir. Həmin inzibati akt qəbul olunduğu tarixdən 2 (iki) iş günü ərzində operatora elektron qaydada təqdim edilir.

17. Şəhadətnamənin verilməsindən imtina edilməsi və ya onun ləğvi haqqında inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.";

**"Maddə 22-1. Avtonom nəqliyyat vasitəsinə və məsafədən idarəetmə mərkəzinə dair tələblər**

1. Avtonom nəqliyyat vasitəsinin Azərbaycan Respublikasının normativ hüquqi aktları və tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən olunan hərəkət təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, kibertəhlükəsizlik və təhlükəsiz istismar tələblərinə uyğunluğu ölkə ərazisində onun layihələndirilmə, istehsal, sınaq (istismara hazırlanma), istismar, texniki xidmət, təkmilləşdirmə və istismardan çıxarılma mərhələlərində aidiyyəti şəxslər və həmin mərhələləri idarə edən qurumlar tərəfindən təmin olunmalıdır.

2. Avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sistemində istifadə olunan texniki avadanlıqlar və proqram təminatı sistemlərarası inteqrasiyanı, fasiləsiz monitorinqi, özünüdiaqnostikanı, nasazlıq və ya fövqəladə hallar (hadisələr) baş verdikdə idarə etməyə müdaxiləni, habelə hadisə, qəza və insidentlərə dair məlumatların avtomatik qeydiyyatını və 6 (altı) ay saxlanılmasını təmin etməlidir.

3. Avtonom nəqliyyat vasitəsi üzrə istismar qaydaları, nasazlıq və ya fövqəladə hallar (hadisələr) baş verdikdə müdaxilə (hərəkətin dayandırılması ilə bağlı) prosedurları, habelə personalın peşə səriştəsi avtomatlaşdırılmış idarəetmə sisteminin avtomatlaşdırma səviyyəsinə, istismar edildiyi əraziyə (yola, hava məkanına), texniki xüsusiyyətlərinə və ətraf mühitin mühafizəsi üzrə tələblərə uyğun olmalıdır.

4. Avtonom nəqliyyat vasitələrinin avtomatlaşdırılmış idarəetmə sistemi məsafədən avtomatik idarəetmə sistemi, onların yerinin real vaxt rejimində monitorinq sistemi, ətraf mühitin monitorinqi üçün kamera, sensor (o cümlədən ehtiyat sensor), naviqasiya, radar və lidar sistemləri, hadisə, insident və qəza məlumatlarının avtomatik qeydiyyatı sistemi, nəqliyyat vasitəsinin təhlükəsiz dayanmasını təmin edən avtomatik təhlükəsizlik sistemi və kibertəhlükəsizlik müdafiə mexanizmləri ilə təchiz olunmalıdır.

5. Avtonom dəmir yolu, metro və tramvay nəqliyyat vasitələrinin avtomatlaşdırılmış idarəetmə sistemi bu maddənin 4-cü hissəsində qeyd edilənlərə əlavə olaraq mərkəzləşdirilmiş dispetçer nəzarət sistemi, platforma təhlükəsizlik sistemi və avtomatik qapı idarəetmə sistemi ilə təchiz olunmalıdır. Avtonom dəmir yolu, metro və tramvay nəqliyyat vasitələrinin hərəkəti yalnız müvafiq infrastrukturun texniki uyğunluğu təmin edildikdən sonra həyata keçirilə bilər.

6. Avtonom gəminin avtomatlaşdırılmış idarəetmə sistemi bu maddənin 4-cü hissəsində qeyd edilənlərə əlavə olaraq avtomatik toqquşmanın qarşısını alma sistemi ilə təchiz olunmalıdır. Dəniz limanlarının və dəniz əməliyyatı bazalarının ərazilərində avtonom gəmilərin hərəkəti liman kapitanının icazəsi ilə həyata keçirilir.

7. Avtonom dəmir yolu, metro və tramvay nəqliyyat vasitələrinin hərəkətinin idarə edilməsi, monitorinqi və təhlükəsiz istismarı bu maddənin 5-ci hissəsində nəzərdə tutulmuş mərkəzləşdirilmiş dispetçer nəzarət sistemi əsasında, müvafiq nəqliyyat növü üzrə fəaliyyət göstərən məsafədən idarəetmə mərkəzləri vasitəsilə həyata keçirilir.

8. Avtonom nəqliyyat vasitələrinin məsafədən idarəetmə mərkəzi aşağıdakı tələblərə cavab verməlidir:

8.1. avtonom nəqliyyat vasitəsinin hərəkətinin fasiləsiz monitorinqini, onunla etibarlı və fasiləsiz rabitəni təmin edən avadanlıqlara, o cümlədən videomüşahidə və vizuallaşdırma avadanlıqlarına və proqram təminatına malik olması;

8.2. operator tərəfindən avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətinə nəzarət olunmasını, nasazlıq və fövqəladə hallar (hadisələr) baş verdikdə həmin nəqliyyat vasitəsinin hərəkətinin dayandırılmasını təmin etməyə imkan verən işçi interfeysinin olması;

8.3. avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sisteminə giriş zamanı identikləşdirmə, girişə nəzarət və əməliyyatların qeydiyyatı üzrə texniki həllərin mövcud olması.";

3.9. 23-cü maddənin 2-ci hissəsinə "dəmiryolu" sözündən sonra ", tramvay" sözü əlavə edilsin;

3.10. aşağıdakı məzmunda 25-1-ci maddə əlavə edilsin:

**"Maddə 25-1. Avtonom nəqliyyat vasitəsinin istismarı sahəsində nəzarət**

1. Avtonom nəqliyyat vasitələrinin istismarına, avtomatlaşdırılmış idarəetmə sistemlərinin effektivliyinin tənzimləyici test mühiti çərçivəsində qiymətləndirilməsinə, eləcə də operatorlar tərəfindən həmin nəqliyyat vasitələrinin avtomatlaşdırılmış idarəetmə sistemlərində olan məlumatların qeydiyyatı və saxlanılması tələblərinə əməl olunmasına nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

2. Operator nəzarət tədbirlərinin həyata keçirilməsi üçün bu Qanunun 22-1-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulan monitorinq, özünüdiaqnostika, nasazlıq və ya kənar müdaxilə halları, hadisə, qəza və insidentlərə dair məlumatları (sənədləri) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) sorğusu əsasında 3 (üç) iş günündən gec olmayaraq təqdim etməlidir.".

**Maddə 4.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626, № 12 (I kitab), maddələr 1118, 1129; 2026, № 1, maddələr 8, 13, 20; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 2.0.10-3-cü və 29-1-ci maddələr əlavə edilsin:

"2.0.10-3. avtonom nəqliyyat vasitəsinin operatoruna şəhadətnamənin verilməsi;";

**"Maddə 29-1. Avtonom nəqliyyat vasitəsinin operatoruna şəhadətnamənin verilməsinə görə tutulan dövlət rüsumunun dərəcəsi**

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| Avtonom nəqliyyat vasitəsinin operatoruna şəhadətnamənin verilməsi | 20 manat |

**Maddə 5.** "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 56 (Cild I); 2024, № 8, maddə 933; 2025, № 6, maddə 524) 18-ci maddəsinə birinci halda "aparatları" sözündən sonra ", o cümlədən mülki təyinatlı avtonom pilotsuz uçuş aparatları" sözləri əlavə edilsin.

**Maddə 6.** "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599 (Cild I); 2024, № 8, maddə 932; 2025, № 11, maddə 1010; 2026, № 1, maddə 2, № 3, maddə 213) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1-ci maddəyə aşağıdakı məzmunda 1.0.1-1-ci maddə əlavə edilsin:

"1.0.1-1. **avtonom nəqliyyat vasitəsi** - avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə hərəkət edə bilən və aşağıdakı meyarlara cavab verən mülki təyinatlı nəqliyyat vasitəsidir:

1.0.1-1.1. insan tərəfindən birbaşa və ya davamlı idarəetmə müdaxiləsi olmadan özü hərəkət edə bilən;

1.0.1-1.2. yol hərəkətinin təhlükəsizliyi pozulduqda özü-özünü təhlükəsiz hərəkət rejiminə gətirə bilən;

1.0.1-1.3. avtomatlaşdırılmış idarəetmə sistemi yüksək avtomatlaşdırılmış (avtomatlaşdırılmış idarəetmə sistemi yalnız "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 46-3-cü maddəsinin II hissəsində nəzərdə tutulmuş ərazidə bütün sürüş funksiyalarını və ətraf mühitin monitorinqini tam həyata keçirə bilmə, habelə özü-özünü minimal risk vəziyyətinə müstəqil şəkildə keçirə bilmə imkanına malik olma) və ya tam avtomatlaşdırılmış (avtomatlaşdırılmış idarəetmə sistemi istənilən ərazidə bütün sürüş funksiyalarını və ətraf mühitin monitorinqini tam həyata keçirə bilmə, habelə özü-özünü minimal risk vəziyyətinə müstəqil şəkildə keçirə bilmə imkanına malik olma) səviyyələrində olan;

1.0.1-1.4. "Avtonom nəqliyyat vasitəsi" tanınma nişanı ilə təchiz edilən;";

6.2. 14-cü maddə üzrə:

6.2.1. 14.1.5-ci maddəyə "sürücüləri" sözündən sonra "(avtonom nəqliyyat vasitəsi istisna olmaqla)" sözləri əlavə edilsin;

6.2.2. 14.3.1-ci maddəyə "sürücülərin" sözündən sonra "(avtonom nəqliyyat vasitəsi istisna olmaqla)" sözləri əlavə edilsin;

6.2.3. 14.3.7-ci maddəyə "sürücünün" sözündən sonra "(avtonom nəqliyyat vasitəsi istisna olmaqla)" sözləri əlavə edilsin.

**Maddə 7.** "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 133 (Cild I); 2025, № 4 (I kitab), maddə 306, № 6, maddə 521) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1-ci maddə üzrə:

7.1.1. aşağıdakı məzmunda 1.1.11-1-ci, 1.1.11-2-ci və 1.1.55-1-ci maddələr əlavə edilsin:

"1.1.11-1. **avtonom pilotsuz uçuş aparatı** - uçuş zamanı insan tərəfindən birbaşa və ya davamlı idarəetmə müdaxiləsi olmadan avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə hərəkət edən mülki təyinatlı avtonom nəqliyyat vasitəsi;

1.1.11-2. **avtonom pilotsuz uçuş aparatının operatoru** - avtonom pilotsuz uçuş aparatının öncədən uçuş marşrutunu proqramlaşdıran, avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətini təmin edən, müvafiq şəhadətnaməyə malik şəxs;";

"1.1.55-1. **məsafədən idarəetmə mərkəzi** - avtonom pilotsuz uçuş aparatının avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətinin təmininin məsafədən həyata keçirildiyi idarəetmə məntəqəsi;";

7.1.2. 1.1.61-ci maddəyə "aparatının" sözündən sonra "(avtonom pilotsuz uçuş aparatı istisna olmaqla)" sözləri əlavə edilsin;

7.1.3. 1.1.65-ci maddəyə ikinci halda "əməliyyatının" sözündən sonra "(avtonom pilotsuz uçuş aparatı sistemləri əməliyyatı istisna olmaqla)" sözləri əlavə edilsin;

7.2. 3-cü maddəyə ikinci halda "münasibətləri" sözündən sonra ", yüksək (avtonom pilotsuz uçuş aparatının hərəkətinin idarə edilməsinin, hərəkət zamanı obyekt və hadisələrin aşkarlanması, o cümlədən adekvat reaksiya verilməsi prosesinin və ehtiyat idarəetmənin sistem tərəfindən, idarəetməyə nəzarətin operator tərəfindən həyata keçirildiyi səviyyə) və tam (avtonom pilotsuz uçuş aparatının hərəkətinin idarə edilməsinin, hərəkət zamanı obyekt və hadisələrin aşkarlanması, o cümlədən adekvat reaksiya verilməsi prosesinin və ehtiyat idarəetmənin sistem tərəfindən operatorun idarəetməyə nəzarəti olmadan həyata keçirildiyi səviyyə) avtomatlaşdırma səviyyəsi olan avtonom pilotsuz uçuş aparatının Azərbaycan Respublikasının hava məkanında uçuş əməliyyatlarını həyata keçirməsi zamanı yaranan münasibətləri " sözləri əlavə edilsin;

7.3. aşağıdakı məzmunda 13-1-ci fəsil əlavə edilsin:

**"13-1-ci fəsil**

**AVTONOM PİLOTSUZ UÇUŞ APARATLARI**

**Maddə 63-1. Mülki və eksperimental aviasiyada avtonom pilotsuz uçuş aparatının istismarının əsasları və fəaliyyətinin tənzimlənməsi**

63-1.1. Avtonom pilotsuz uçuş aparatına dair tələblər "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları, habelə aviasiya sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən olunur. Həmin uçuş aparatlarının istismarı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanuna və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq verilən qeydiyyat sertifikatı və istismarçı sertifikatı (və əməliyyat icazəsi) əsasında həyata keçirilir. Bu Qanunun 60.1 - 60.4-cü, 60.7-ci, 60.11-ci, 60.12-ci və 63-cü maddələrində qeyd edilən tələblər avtonom pilotsuz uçuş aparatlarına da şamil edilir.

63-1.2. Avtonom pilotsuz uçuş aparatı yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi meyarlar əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən coğrafi zonalarda uça bilər.

63-1.3. Avtonom pilotsuz uçuş aparatının layihələndirilməsi və istehsalı aşağıdakı tələblərə cavab verməlidir:

63-1.3.1. istənilən uçuş şəraitində yarana biləcək risklərə mütənasib davamlılıq nümayiş etdirməli, kibertəhlükəsizlik tələblərinə uyğun olmalı;

63-1.3.2. istismar olunduğu istənilən şəraitdə, həmçinin sistemlərin biri, yaxud bir neçəsində nasazlıq baş verdikdə təhlükəsiz idarə edilə bilən və manevr qabiliyyətinə malik olmalı;

63-1.3.3. onların mühərrikləri, pərləri və digər hissələri bütün istismar şəraitlərində işlək olmalı, habelə hər hansı nasazlıq zamanı yerdə olan üçüncü şəxslərin və digər hava məkanı istifadəçilərinin təhlükəsizliyinə qarşı yarana biləcək riskləri azaltmalı;

63-1.3.4. uçuşların təhlükəsizliyinə risk yarandığı ehtimal olunan hər hansı vəziyyət və fövqəladə halların (hadisələrin) idarə edilməsini və əmlakın təhlükəsizliyini təmin etməli.

63-1.4. Fiziki və hüquqi şəxslər, o cümlədən xarici hüquqi şəxsin filialı və nümayəndəliyi operator qismində fəaliyyət göstərmək üçün "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun 15-1-ci maddəsi ilə müəyyən edilmiş qaydada şəhadətnamə almalıdırlar.

63-1.5. Avtonom pilotsuz uçuş aparatı operatorunun aşağıdakı vəzifələri vardır:

63-1.5.1. avtonom pilotsuz uçuş aparatının istismarı zamanı avtomatlaşdırılmış idarəetmə sisteminin fəaliyyətinə nəzarət etmək;

63-1.5.2. hava şəraiti avtonom pilotsuz uçuş aparatının istismarına təhlükə yaratdığı, avtonom pilotsuz uçuş aparatının bu Qanunun 63-1.2-ci maddəsində qeyd edilən coğrafi zonalardan kənara çıxması, avtomatlaşdırılmış idarəetmə sisteminə kənar müdaxilənin baş verməsi, nasazlıq və fövqəladə hallar (hadisələr) baş verdikdə avtonom pilotsuz uçuş aparatının avtomatlaşdırılmış idarəetmə sistemi tərəfindən verilən xəbərdarlıqlara uyğun olaraq həmin sistemə təlimatlar verməklə operativ müdaxilə (hərəkətin dayandırılması ilə bağlı) etmək;

63-1.5.3. avtonom pilotsuz uçuş aparatının istifadəsi ilə bağlı son 6 (altı) ayı əhatə edən məlumatların saxlanılmasını və mühafizəsini təmin etmək;

63-1.5.4. avtonom pilotsuz uçuş aparatının avtomatlaşdırılmış idarəetmə sistemində olan məlumatların real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müvafiq informasiya sisteminə ötürülməsini təmin etmək, həmçinin həmin informasiya sistemi vasitəsilə yayımlanan interaktiv xəritədə əks olunan coğrafi zonalar və onlarla əlaqədar məhdudiyyətlər haqqında son məlumatları əldə etmək;

63-1.5.5. avtonom pilotsuz uçuş aparatının iştirakı ilə aviasiya hadisəsi və insidenti baş verdiyi təqdirdə aidiyyəti dövlət qurumlarının məlumatlandırılması məqsədilə bu barədə dərhal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat vermək;

63-1.5.6. istehsalçının təlimatlarına və coğrafi zonalarla əlaqədar əməliyyat məhdudiyyətlərinə riayət etmək;

63-1.5.7. əməliyyatın davam etdirilməsi digər hava gəmilərinə, insanlara, heyvanlara, ətraf mühitə və ya əmlaka təhlükə törətdikdə əməliyyatı dayandırmaq.

63-1.6. Avtonom pilotsuz uçuş aparatının idarə edilməsini həyata keçirən operator fiziki şəxs olduqda özü, hüquqi şəxs olduqda isə onun avtonom nəqliyyat vasitələrinin avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə idarə edilməsinə nəzarəti həyata keçirən işçiləri, avtomatlaşdırılmış idarəetmə sistemi və məsafədən idarəetmə mərkəzi "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 5-ci, 6-cı hissələrində və 22-1-ci maddəsinin 2 - 4-cü, 8-ci hissələrində qeyd edilən tələblərə cavab verməlidir.

63-1.7. Avtonom pilotsuz uçuş aparatının mülkiyyətçisi (sahibi) və ya istismarçısı (sahib qismində çıxış etdikdə) həmin uçuş aparatının istehsalçısı tərəfindən müəyyən edilmiş texniki və proqram təminatı tələblərinə uyğun vəziyyətdə saxlanılmasını, avtonom pilotsuz uçuş aparatının müvafiq şəhadətnaməyə malik operatorunun pilotsuz uçuş aparatının avtonom idarə edilməsinə cəlb olunmasını, eləcə də istismar qaydalarının, nasazlıq və fövqəladə hallarda (hadisələrdə) müdaxilə (hərəkətin dayandırılması ilə bağlı) prosedurlarının istehsalçıdan əldə olunmasını təmin etməlidir.

63-1.8. Avtonom pilotsuz uçuş aparatının mülkiyyətçisi (sahibi), yaxud istismarçısı (sahib qismində çıxış etdikdə) və ya onun mülki hüquqi müqavilə əsasında cəlb etdiyi operator məsafədən idarəetmə mərkəzini yaradır (avtonom pilotsuz uçuş aparatlarının avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə istismarı məsafədən idarəetmə mərkəzindən kənarda həyata keçirildiyi hallar istisna olmaqla) və həmin mərkəzin proqram təminatının mütəmadi yenilənməsini, kibertəhlükəsizliyinin təminini və təhlükəsizlik auditinin keçirilməsini qeyd olunan mərkəzi yaradan şəxs təmin edir.

63-1.9. Avtonom pilotsuz uçuş aparatının uçuş əməliyyatlarına Azərbaycan Respublikasının hava məkanı hüdudlarında hava məkanından istifadənin planlaşdırılmasını və koordinasiyanı, hava hərəkətinin təşkilini, eləcə də hava hərəkətinin təşkilinə görə məsuliyyətin Azərbaycan Respublikasına həvalə olunduğu rayonlarda nəzarəti təmin edən pilotsuz uçuş aparatının uçuşlarının idarə edilməsi və əlaqələndirilməsi mərkəzi tərəfindən icazə verilir.

63-1.10. Avtonom pilotsuz uçuş aparatının əməliyyatları coğrafi zonaların şərtlərinə və məhdudiyyətlərinə uyğun həyata keçirilməlidir.

63-1.11. Nəzarət olunan hava məkanında və aerodromyanı ərazidə avtonom pilotsuz uçuş aparatının əməliyyatları pilotsuz uçuş aparatının uçuşlarının idarə edilməsi və əlaqələndirilməsi mərkəzinin icazəsi ilə həyata keçirilir. Mərkəzdən bu icazənin alınması üçün avtonom pilotsuz uçuş aparatının operatoru aşağıdakı məlumatları və sənədləri əməliyyata başlamazdan azı 3 (üç) saat əvvəl mərkəz tərəfindən müəyyən edilmiş elektron poçt ünvanına təqdim etməlidir:

63-1.11.1. istismarçının adı;

63-1.11.2. istifadə ediləcək avtonom pilotsuz uçuş aparatının qeydiyyat sertifikatının nömrəsi;

63-1.11.3. əməliyyatın başlama və başa çatma vaxtı;

63-1.11.4. əməliyyatın xüsusiyyətləri;

63-1.11.5. istismarçı sertifikatının və əməliyyat icazəsinin surəti.

63-1.12. Pilotsuz uçuş aparatının uçuşlarının idarə edilməsi və əlaqələndirilməsi mərkəzi bu Qanunun 63-1.11-ci maddəsində müəyyən olunan məlumat və sənədləri aldıqdan sonra 3 (üç) saatdan gec olmayaraq uçuşa icazənin verilməsi və ya icazənin verilməsindən imtina haqqında qərar qəbul edir və bu barədə icazə üçün müraciət edən avtonom pilotsuz uçuş aparatının operatorunu müəyyən edilmiş elektron poçt ünvanı üzərindən məlumatlandırır.

63-1.13. Mərkəz icazənin verilməsindən aşağıdakı hallarda imtina edir:

63-1.13.1. düzgün olmayan məlumatlar və sənədlər təqdim olunduqda;

63-1.13.2. hava şəraiti ilə əlaqədar icazə verilməsi mümkün olmadıqda;

63-1.13.3. coğrafi zonalarda uçuş əməliyyatlarına məhdudiyyət qoyulduqda.

**Maddə 63-2. Mülki və eksperimental aviasiyada avtonom pilotsuz uçuş aparatlarına dair nəzarət və yoxlamaların aparılması**

63-2.1. Bu Qanunun 13-1-ci fəslində müəyyən edilmiş müddəaların yerinə yetirilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.

63-2.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) avtonom pilotsuz uçuş aparatının istismarçısı sertifikatını və əməliyyat icazəsini əldə etmiş həmin pilotsuz uçuş aparatının istismarçıları tərəfindən bu Qanunun 13-1-ci fəslinin tələblərinə riayət olunmasına "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (sahibkarlıq subyektlərinə münasibətdə) və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş qaydada nəzarət edir.

63-2.3. Avtonom pilotsuz uçuş aparatlarının mülki dövriyyəsinə nəzarət "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktlara əsasən həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2026-cı il*

## "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 438-VIIQD nömrəli Qanununa 1 nömrəli Əlavə



5.1 Avtomagistral



5.2 Avtomagistralın qurtaracağı

## "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 438-VIIQD nömrəli Qanununa 2 nömrəli Əlavə



# "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 438-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 438-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 60-1.2-ci və 60-1.4.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 60-1.2-ci maddəsində"orqan (qurum)"dedikdə Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 60-1.4.3-cü maddəsində"orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Dənizçilik" informasiya sistemi nəzərdə tutulur;

1.4. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 46-3-cü maddəsinin II hissəsində (hər iki halda), 46-4-cü maddəsinin I hissəsində və 46-5-ci maddəsinin I hissəsinin 5-ci və 7-ci bəndlərində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Qanunun 46-3-cü maddəsinin II hissəsində birinci halda"orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 46-3-cü maddəsinin II hissəsində ikinci halda və 46-5-ci maddəsinin I hissəsinin 7-ci bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 46-4-cü maddəsinin I hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.8. həmin Qanunun 46-5-ci maddəsinin I hissəsinin 5-ci bəndində"orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;

1.9. "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun 8-1-ci maddəsinin 2-ci hissəsinin birinci cümləsində, 3-cü hissəsində (hər iki halda), 15-ci maddəsinin 4-cü hissəsinin 4.3-cü və 4.5-ci bəndlərində, 15-1-ci maddəsinin 1-ci hissəsində, 2-ci və 4-cü hissələrinin birinci cümlələrində, 6-8-ci hissələrində, 9 - 11-ci hissələrinin birinci cümlələrində,13-cü hissəsinin ikinci və üçüncü cümlələrində, 16-cı hissəsinin birinci cümləsində, 25-1-ci maddəsinin 1-ci və 2-ci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.10. həmin Qanunun 8-1-ci maddəsinin 2-ci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.11. həmin Qanunun 8-1-ci maddəsinin 3-cü hissəsində birinci halda "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Dövlət Dəniz və Liman Agentliyi və Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, daimi coğrafi zonalara münasibətdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, müvəqqəti coğrafi zonalara münasibətdə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə birlikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.12. həmin Qanunun 8-1-ci maddəsinin 3-cü hissəsində ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.13. həmin Qanunun 15-ci maddəsinin 4-cü hissəsinin 4.3-cü bəndində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Elektron Hökumət İnformasiya Sistemi,"Dənizçilik" informasiya sistemi, "AYNA" informasiya sistemi və "Mülki pilotsuz uçuş aparatlarının idarə edilməsi" informasiya sistemi, avtonom avtomobil nəqliyyat vasitələrinə münasibətdə isə həmçinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;

1.14. həmin Qanunun 15-ci maddəsinin 4-cü hissəsinin 4.5-ci bəndində "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Dövlət Dəniz və Liman Agentliyi və Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, yol-nəqliyyat hadisələrinə münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.15. həmin Qanunun 15-1-ci maddəsinin 1-ci hissəsində, 2-ci və 4-cü hissələrinin birinci cümlələrində, 6 - 8-ci hissələrində, 9 - 11-ci hissələrinin birinci cümlələrində, 13-cü hissəsinin ikinci və üçüncü cümlələrində, 16-cı hissəsinin birinci cümləsində, 25-1-ci maddəsinin 1-ci və 2-ci hissələrində "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Dövlət Dəniz və Liman Agentliyi və Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, avtonom tramvay, avtonom metro və avtonom dəmiryol nəqliyyatı vasitələrinə münasibətdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.16. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 63-1.1-ci maddəsinin ikinci cümləsində, 63-1.2-ci maddəsində (hər iki halda), 63-1.5.4-cü, 63-1.5.5-ci, 63-2.1-ci və 63-2.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.17. həmin Qanunun 63-1.2-ci maddəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.18. həmin Qanunun 63-1.1-ci maddəsinin ikinci cümləsində, 63-1.5.5-ci, 63-2.1-ci və 63-2.2-ci maddələrində "orqan (qurum)" dedikdə Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.19. həmin Qanunun 63-1.2-ci maddəsində ikinci halda "orqan (qurum)" dedikdə daimi coğrafi zonalara münasibətdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, müvəqqəti coğrafi zonalara münasibətdə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə birlikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.20. həmin Qanunun 63-1.5.4-cü maddəsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin" Mülki pilotsuz uçuş aparatlarının idarə edilməsi" informasiya sistemi nəzərdə tutulur;

1.21. "Dənizçilik" informasiya sisteminin sahibi funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, operatoru funksiyalarını isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi həyata keçirir;

1.22. "Mülki pilotsuz uçuş aparatlarının idarə edilməsi" informasiya sisteminin sahibi funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, operatoru funksiyalarını isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi həyata keçirir.

2. Aşağıdakı informasiya sistemləri yaradılsın:

2.1. dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin olunması üçün Azərbaycan Respublikasının ərazi sularında olan gəmilər barədə məlumatların toplanması, gəmilərin naviqasiya məlumatları ilə təmin edilməsi, dəniz limanlarına və dəniz əməliyyatları bazalarına gəmilərin girişinə və çıxışına icazə verilməsi, habelə bununla bağlı sənədlərin elektron tərtibi və qeydiyyatı, dəniz limanlarının, dəniz əməliyyatları bazalarının, gəmilərin (inşa edilməkdə olan gəmilər daxil olmaqla), bunker yanacağı təchizatçılarının reyestrinin aparılması məqsədilə "Dənizçilik" informasiya sistemi;

2.2. pilotsuz uçuş aparatlarının dövriyyəsinə xüsusi icazənin verilməsi və qeydiyyatının aparılması, eləcə də pilot (operator) şəhadətnaməsi, əməliyyat icazəsinin, istismarçı sertifikatının və model PUA klublarına və assosiasiyalarına icazələrin verilməsi məqsədilə "Mülki pilotsuz uçuş aparatlarının idarə edilməsi" informasiya sistemi.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. doqquz ay müddətində:

3.1.1. "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 438-VIIQD nömrəli Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. "Dənizçilik" və "Mülki pilotsuz uçuş aparatlarının idarə edilməsi" informasiya sistemlərinin əsasnamələrini təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

4.1. "Dənizçilik" və "Mülki pilotsuz uçuş aparatlarının idarə edilməsi" informasiya sistemlərinin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

4.2. "Dənizçilik" və "Mülki pilotsuz uçuş aparatlarının idarə edilməsi" informasiya sistemlərinin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə sistemlərin "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün;

4.3. "Mülki pilotsuz uçuş aparatlarının idarə edilməsi" informasiya sistemində formalaşdırılan məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin müvafiq informasiya sisteminə ötürülməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

6. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə"Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I); 2024, № 3, maddə 260, № 7, maddə 815, № 8, maddələr 937, 947, № 10, maddə 1138; 2025, № 6, maddə 542, № 11, maddələr 1018, 1036; № 12 (I kitab), maddə 1150; 2026, № 1, maddə 24, № 4, maddə 306) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bəndə ikinci halda "bəndlərində,"sözündən sonra "46-3-cü maddəsinin II hissəsində (hər iki halda), 46-4-cü maddəsinin I hissəsində, 46-5-ci maddəsinin I hissəsinin 5-ci və 7-ci bəndlərində," sözləri əlavə edilsin;

6.2. 2.31-ci bəndə "bəndində" sözündən sonra "və 46-5-ci maddəsinin I hissəsinin 5-ci bəndində" sözləri əlavə edilsin;

6.3.aşağıdakı məzmunda 2.31-2-ci bənd əlavə edilsin:

"2.31-2. həmin Qanunun 46-4-cü maddəsinin I hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;";

6.4. 2.36-cı bəndə "Qanunun" sözündən sonra "46-3-cü maddəsinin II hissəsində (ikinci halda), 46-5-ci maddəsinin I hissəsinin 7-ci bəndində," sözləri əlavə edilsin;

6.5. 2.36-2-ci bəndə "bəndində," sözündən sonra "46-3-cü maddəsinin II hissəsində (birinci halda)," sözləri əlavə edilsin.

7. "Nəqliyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 165 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 427 (Cild I); 2025, № 4 (I kitab), maddə 344) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.1-ci bəndə "halda" sözündən sonra ", 8-1-ci maddəsinin 2-cihissəsinin birinci cümləsində, 3-cü hissəsində(hər iki halda), 15-ci maddəsinin 4-cü hissəsinin 4.3-cü və 4.5-ci bəndlərində, 15-1-ci maddəsinin 1-ci hissəsində, 2-ci və 4-cü hissələrinin birinci cümlələrində, 6-8-ci hissələrində, 9-11-ci hissələrinin birinci cümlələrində, 13-cü hissəsinin ikinci və üçüncü cümlələrində, 16-cı hissəsinin birinci cümləsində, 25-1-ci maddəsinin 1-ci və 2-ci hissələrində" sözləri əlavə edilsin;

7.2. 2.2-ci bəndə "halda" sözündən sonra " və 8-1-ci maddəsinin 2-ci hissəsinin birinci cümləsində" sözləri əlavə edilsin;

7.3. 2.4-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.5 - 2.9-cu bəndlər əlavə edilsin:

"2.5. həmin Qanunun 8-1-ci maddəsinin 3-cü hissəsində birinci halda "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Dövlət Dəniz və Liman Agentliyi və Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, daimi coğrafi zonalara münasibətdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, müvəqqəti coğrafi zonalara münasibətdə "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə birlikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.6. həmin Qanunun 8-1-ci maddəsinin 3-cü hissəsində ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

2.7. həmin Qanunun 15-ci maddəsinin 4-cü hissəsinin 4.3-cü bəndində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Elektron Hökumət İnformasiya Sistemi,"Dənizçilik" informasiya sistemi, "AYNA" informasiya sistemi və "Mülki pilotsuz uçuş aparatlarının idarə edilməsi" informasiya sistemi, avtonom avtomobil nəqliyyat vasitələrinə münasibətdə isə həmçinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;

2.8. həmin Qanunun 15-ci maddəsinin 4-cü hissəsinin 4.5-ci bəndində "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Dövlət Dəniz və Liman Agentliyi və Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, yol-nəqliyyat hadisələrinə münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

2.9. həmin Qanunun 15-1-ci maddəsinin 1-ci hissəsində, 2-ci və 4-cü hissələrinin birinci cümlələrində, 6-cı - 8-ci hissələrində, 9 - 11-ci hissələrinin birinci cümlələrində, 13-cü hissəsinin ikinci və üçüncü cümlələrində, 16-cı hissəsinin birinci cümləsində, 25-1-ci maddəsinin 1-ci və 2-ci hissələrində "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Dövlət Dəniz və Liman Agentliyi və Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, avtonom tramvay, avtonom metro və avtonom dəmiryol nəqliyyatı vasitələrinə münasibətdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur.".

8. "Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 541 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 478 (Cild I); 2024, № 2, maddə 150; 2025, № 8, maddə 749) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.1-ci bəndə "49.3-cü" sözlərindən sonra ", 60-1.2-ci, 60-1.4.3-cü" sözləri əlavə edilsin;

8.2. 2.14-cü bəndə "49.3-cü" sözlərindən sonra ", 60-1.2-ci" sözləri əlavə edilsin;

8.3. 2.15-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.16-cı bənd əlavə edilsin:

"2.16. həmin Məcəllənin 60-1.4.3-cü maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "Dənizçilik" informasiya sistemi nəzərdə tutulur.".

9. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəliFərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 798 (Cild I); 2024, № 8, maddə 950; 2025, № 6, maddə 552; 2026, № 2, maddə 123) ilə təsdiq edilmiş əlavə 2 - "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı"nın17-ci hissəsinin "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar" sütununa birinci halda "aparatları" sözündən sonra ", o cümlədən mülki təyinatlı avtonom pilotsuz uçuş aparatları" sözləri əlavə edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287; 2025, № 3, maddələr 224, 227, № 6, maddə 552, № 8, maddə 759; 2026, № 3, maddə 227; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 2 iyun tarixli 676 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda3.0.16-6-cı yarımbənd əlavə edilsin:

"3.0.16-6. bilavasitə (avtonom tramvay, avtonom metro və avtonom dəmiryol nəqliyyatı vasitələrinə münasibətdə) və tabeliyindəki qurumlar (digər avtonom nəqliyyatı vasitələrinə münasibətdə) vasitəsilə avtonom nəqliyyat vasitələrinin istismarına, eləcə də avtonom nəqliyyat vasitələrinin operatorları tərəfindən həmin nəqliyyat vasitələrinin avtomatlaşdırılmış idarəetmə sistemlərində olan məlumatların qeydiyyatı və saxlanılması tələblərinə əməl olunmasına nəzarət etmək, habelə həmin operatorlara şəhadətnamələr vermək;".

11. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1462 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1106 (Cild I); 2024, № 2, maddə 150; 2025, № 3, maddə 227) ilə təsdiq edilmiş "Dövlət Dəniz və Liman Agentliyinin Nizamnaməsi"nə aşağıdakı məzmunda3.1.60-1-ci yarımbənd əlavə edilsin:

"3.1.60-1. avtonom gəminin istismarına, eləcə də avtonom gəminin operatorları tərəfindən həmin gəminin avtomatlaşdırılmış idarəetmə sistemlərində olan məlumatların qeydiyyatı və saxlanılması tələblərinə əməl olunmasına nəzarət etmək, habelə həmin operatorlara şəhadətnamələr vermək;".

12. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəliFərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031 (Cild I); 2024, № 8, maddə 948, № 11, maddə 1199; 2025, № 3, maddə 227, № 9, maddə 820, № 11, maddələr 1024, 1037; 2026, № 4, maddə 306) ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.25-12-ci yarımbənd əlavə edilsin:

"3.1.25-12. avtonom avtomobil nəqliyyat vasitələrinin istismarına, eləcə də avtonom avtomobil nəqliyyat vasitələrinin operatorları tərəfindən həmin nəqliyyat vasitələrinin avtomatlaşdırılmış idarəetmə sistemlərində olan məlumatların qeydiyyatı və saxlanılması tələblərinə əməl olunmasına nəzarət etmək, habelə həmin operatorlara şəhadətnamələr vermək;".

13. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 sentyabr tarixli 1845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1034 (Cild I); 2024, № 2, maddələr 147, 158, № 6 (I kitab), maddə 654, №7, maddələr 814, 815, № 8, maddələr 937, 948; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 iyul tarixli 711 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamə"dəaşağıdakı dəyişikliklər edilsin:

13.1. aşağıdakı məzmunda 6.1.18-1-ci yarımbənd əlavə edilsin:

"6.1.18-1. Sistem vasitəsilə avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sistemində olan məlumatların ilkin mənbədən real vaxt rejimində əldə edilməsi və emalı;";

13.2. 7.4.16-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 7.4.17-ci yarımbənd əlavə edilsin:

"7.4.17. avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sistemində olan məlumatlar.".

14. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1466 (Cild I); 2024, № 8, maddə 937; 2025, № 11, maddə 1024, № 12 (I kitab), maddə 1154; 2026, № 3, maddə 224) ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin 5.2.11-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.2.12-ci yarımbənd əlavə edilsin:

"5.2.12. avtonom nəqliyyat vasitəsinin avtomatlaşdırılmış idarəetmə sistemində olan məlumatlar.".

15. "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 149; 2025, № 4 (I kitab), maddə 337; № 6, maddə 540; 2026, № 2, maddə 123) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

15.1. 1.1-ci bəndə"63.2-ci" sözlərindən sonra "maddələrində, 63-1.1-ci maddəsinin ikinci cümləsində, 63-1.2-ci maddəsində (hər iki halda), 63-1.5.4-cü, 63-1.5.5-ci, 63-2.1-ci, 63-2.2-ci" sözləri əlavə edilsin;

15.2. 1.3-cü bəndə "62.1-ci (birinci halda)," sözlərindən sonra "63-1.2-ci (birinci halda)," sözləri əlavə edilsin;

15.3. 1.11-2-ci bənddə "maddəsində (ikinci halda)" sözləri "(ikinci halda) və63-1.2-ci (ikinci halda) maddələrində"sözləri ilə əvəz edilsin;

15.4. 1.12-ci bənddə "və 61.2-ci maddələrində" sözləri ", 61.2-ci maddələrində, 63-1.1-ci maddəsinin ikinci cümləsində, 63-1.5.5-ci, 63-2.1-ci və 63-2.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

15.5. 1.13-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.13-1-ci bənd əlavə edilsin:

"1.13-1. həmin Qanunun 63-1.5.4-cü maddəsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin"Mülki pilotsuz uçuş aparatlarının idarə edilməsi" informasiya sistemi nəzərdə tutulur.".

16. "Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 133, № 10, maddə 909) ilə təsdiq edilmiş "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.28-1-ci yarımbənd əlavə edilsin:

"3.1.28-1. avtonom pilotsuz uçuşaparatının istismarına, eləcə də avtonom pilotsuz uçuş aparatının operatorları tərəfindən həmin aparatın avtomatlaşdırılmış idarəetmə sistemlərində olan məlumatların qeydiyyatı və saxlanılması tələblərinə əməl olunmasına nəzarət etmək, habelə həmin operatorlara şəhadətnamələr vermək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 avqust 2026-cı il*



# İLHAM ƏLİYEVİN UĞUR FORMULU

## Düşünülmüş strategiya, düzgün taktika



# Zəfərə aparan tarixi yolun təməli

**Bəzən tarixdə bircə an bütün bir xalqın qismətini yenidən yazır. 2003-cü il avqustun 4-də cənab İlham Əliyevin Baş nazir təyin edilməsi də yalnız idarəçilik dəyişikliyi deyildi. O gün Azərbaycanın taleyinə həkk olunan möhtəşəm Zəfər yürüşünün ilk addımı atıldı. Həmin tarixdə Milli Məclisdə qəbul edilən qərar, əslində, 30 illik həsrətə son qoyacaq, Şuşada bayrağımızı dalğalandıracaq və ölkəmizin tam suverenliyini təmin edəcək "dəmir iradə"nin rəsmi təsdiqi oldu.**

### Böyük etimad, müdrik seçim

2003-cü ilin avqustunda verilən bu tarixi qərar təsadüfi bir seçim deyildi. Hələ Baş nazir təyin olunmazdan əvvəl cənab İlham Əliyev Heydər Əliyev siyasi məktəbinin ən parlaq yetirməsi kimi özünü artıq təsdiqləmişdi. O, "Əsrin müqaviləsi"nin yaradıcılarından biri kimi ARDNŞ-də ölkəmizin neft strategiyasını dünya nəhənglərinə diktə edirdi.

AŞPA-dakı mübarizəsi ilə Avropanın tən ortasında Ermənistanın işğalçı xislətini beynəlxalq kürsülərdən nəzərə çarpdırır, haqq səsimizi dünyaya çatdırırdı. Məhz cənab İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan nümayəndə heyəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Avropa Şurasında müzakirəsi zamanı böyük uğurlar əldə etmişdi. Azərbaycan nümayəndə heyətinə rəhbərliyi dövründə AŞPA-nın vitse-prezidenti kimi mühüm posta seçilmiş cənab İlham Əliyevin ardıcıl səyləri nəticəsində bu qurum Ermənistanı işğalçı dövlət kimi tanımışdı.

Eyni zamanda o, Milli Olimpiya Komitəsinin rəhbəri kimi sağlam və vətənpərvər Azərbaycan gəncliyinin yetişməsi üçün idman hərəkatının təməlini qoyurdu.

Bu keyfiyyətlər sayəsində cənab İlham Əliyevin Baş nazir təyinatı təkcə ölkə daxilində deyil, ABŞ də daxil olmaqla dünya ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Beynəlxalq aləm cənab İlham Əliyevin şəxsində müasir düşüncəli, uzaqgörən və verdiyi sözə sadiq bir lider gördü.

2003-cü il avqustun 4-də cənab İlham Əliyevin Milli Məclisin yekdil razılığı ilə Baş nazir vəzifəsinə təyin edilməsi, əslində, xalqın ona göstərdiyi böyük etimadın təcəssümü oldu.

Hökumət başçısı kimi bir neçə aylıq fəaliyyətində mühüm addımlar atan cənab İlham Əliyevin sonrakı prezidentlik fəaliyyəti dəqiq hesablanmış xüsusi inkişaf mərhələsi ilə bağlı oldu.

Prezident İlham Əliyev yaxşı bilirdi ki, iqtisadiyyatı güclü olmayan dövlətin hərbi qələbəsi mümkün ola bilməz. Buna görə də bu sahədə mühüm işlər görüldü, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi nəhəng layihələr gerçəkləş-dirildi. Azərbaycan heç kimdən asılı olmayan qüdrətli dövlətə çevrildi.

İqtisadiyyatdan əldə olunan vəsaitin böyük hissəsi bilavasitə ordu quruculuğuna yönəldildi. Ən müasir texnologiyalar ölkəyə gətirildi, Xüsusi Təyinatlı Qüvvələr formalaşdırıldı və yerli hərbi sənaye yaradıldı. Məhz bu güclü ordu 2020-ci ildə düşmənin 30 ilə qurduğu keçilməz sədləri 44 günə yerlə yeksan etdi.

Prezident İlham Əliyev həm də diplomatiya sahəsində siyasi iradəsini və şərtlərini diktə etdi. Nüfuzlu təşkilatlarda Qarabağın Azərbaycanın tarixi torpağı olduğu həqiqətini hüquqi sənədlərlə beynəlxalq birliyə çatdırdı. Aparılan fundamental diplomatik siyasətin nəticəsi idi ki, İkinci Qarabağ müharibəsi başlayanda dünya birliyi Azərbaycanın öz ərazisində haqq savaşı apardığını qəbul etməyə məcbur oldu.

### Siyasi və hərbi qətiyyətin zirvəsi

Cənab İlham Əliyevin Baş nazirlikdən başlayan idarəçilik fəlsəfəsinin ana xəttini tək bir ali məqsəd - işğal altındakı torpaqların azad olunması təşkil edirdi. İllər boyu toplanan iqtisadi güc, müasir hərbi üstünlük və ən əsası milli ruhun yüksəlişi 2020-ci ilin payızında öz məntiqi nəticəsini verdi. 44 günlük Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu düşmənin 30 il boyunca qurduğu keçilməz sədləri yararaq tarixi Zəfərə imza atdı. Əvəzsiz hərbi strategiya və Şuşanın azad olunması əməliyyatı dünya hərb dərsliklərinə qızıl hərflərlə yazıldı.

Qarabağ Zəfəri təkcə döyüş meydanında deyil, eyni zamanda gərgin diplomatik və informasiya müstəvisində qazanıldı. Müharibə günlərində Prezident İlham Əliyev dünyanın ən nüfuzlu media orqanlarına 30-dan çox müsahibə verərək psixoloji hücumları təkbaşına dəf etdi. Səlis xarici dili, dəmir kimi məntiqi və sarsılmaz faktları ilə qərəzli jurnalistləri susduran dövlətimizin başçısı Azərbaycanın haqq savaşını dünyaya çatdırdı. Diplomatik cəbhədəki dəqiq gedişlər beynəlxalq təzyiqlərin qarşısını aldı və hərbi qələbəmizin hüquqi zəminini sarsılmaz etdi.

2020-ci ilin Zəfəri böyük bir zirvə idi, lakin milli maraqlara xidmət edən proses yarımçıq qala bilməzdi. 2023-cü ilin sentyabrında keçirilən cəmi 23 saatlıq lokal xarakterli antiterror tədbirləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi və hərbi qətiyyətinin yeni bir zirvəsi oldu. Cəsarətli və zərgər dəqiqliyi ilə həyata keçirilən bu əməliyyat nəticəsində Qarabağdakı separatçı rejim təslim oldu, qanunsuz hərbi birləşmələr tərksilah edildi. Bununla da Azərbaycan özünün bütün suveren ərazilərində dövlət bayrağını ucaltdı. Xankəndidə, Xocalıda, Əsgəranda dalğalanan üçrəngli bayrağımız ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin mütləq təminatının rəmzinə çevrildi.

### Sülhün və tərəqqinin böyük memarı

Bu gün Azərbaycan yalnız regional deyil, qlobal səviyyədə söz sahibi olan, geosiyasi proseslərə istiqamət verən aparıcı dövlətdir. Qoşulmama Hərəkatına uğurlu sədrlik, Türk Dövlətləri Təşkilatında aparıcı rol, BMT-nin COP29 kimi möhtəşəm qlobal tədbirlərinə evsahibliyi etməsi kimi nümunələr ölkəmizin beynəlxalq aləmdəki yüksək nüfuzunun bariz göstəricisidir. Prezident İlham Əliyevin liderliyi ilə Cənubi Qafqazda tamamilə yeni reallıqlar yaradılıb. Azərbaycan qlobal səviyyədə strateji enerji və nəqliyyat qovşağına çevrilib.

İşğaldan azad edilmiş torpaqlarda dünyada analoqu olmayan sürətlə "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyaları ilə nəhəng bərpa-quruculuq işləri aparılır. "Böyük qayıdış" proqramı uğurla gerçəkləşdirilir. Bu gün Qarabağ və Şərqi Zəngəzurda 90 mindən çox insan təhsil alır, çalışır, yaşayır...

Azərbaycan regionda davamlı sülhün və sabitliyin əsas təşəbbüskarı kimi çıxış edir. Prezident İlham Əliyevin irəli sürdüyü 5 prinsipə əsaslanan sülh gündəliyi Cənubi Qafqazı ədavət məkanından əməkdaşlıq regionuna çevirməyi hədəfləyir. Azərbaycanın sülh təklifləri beynəlxalq hüquq, sərhədlərin toxunulmazlığı və gələcək nəsillərin təhlükəsizliyi üzərində qurulub. Bu yanaşma Prezident İlham Əliyevin yalnız qalib lider deyil, həm də regional sülhün və tərəqqinin böyük memarı olduğunu sübut edir.

2003-cü il avqustun 4-dən başlanan bu şərəfli yol, sadəcə, bir siyasi liderin salnaməsi deyil. Bu, haqq uğrunda sarsılmaz mübarizə aparan, parçalanmış torpaqlarını bütövləşdirən bir xalqın dirçəliş dastanıdır.

Baş nazir kimi başladığı tarixi missiyanı Müzəffər Ali Baş Komandanlıq zirvəsinə qaldıran Prezident İlham Əliyev 23 illik fəaliyyəti ilə Azərbaycanın adını qalib dövlətlər sırasına əbədi olaraq həkk etdi.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# *Müasir Azərbaycan:* Dövlətçilik və dayanıqlı inkişaf modeli

**Tarix dövlətlərin taleyini yalnız onların malik olduqları resurslarla deyil, həm də qəbul etdikləri qərarlarla yazır. Elə məqamlar olur ki, siyasi iradə, milli birlik və gələcəyə hesablanmış strateji baxış bütöv bir xalqın inkişaf istiqamətini müəyyən edir. Məhz belə dövrlərdə dövlətçilik anlayışı hüquqi termin olmaqdan çıxaraq milli məsuliyyətə, ictimai həmrəyliyə və gələcəyə inamın simvoluna çevrilir.**

Dünya yeni geosiyasi düzənin formalaşdığı, beynəlxalq münasibətlərin mürəkkəbləşdiyi və qlobal çağırışların dövlətlər qarşısında daha ciddi məsuliyyətlər qoyduğu bir mərhələdən keçir. Artıq ölkələrin gücü yalnız iqtisadi göstəricilərlə və ya hərbi potensialla ölçülmür. Dövlətin dayanıqlılığı onun siyasi iradəsi, milli birliyi, strateji baxışı və xalqla hakimiyyət arasında formalaşmış qarşılıqlı etimad ilə müəyyən olunur. Məhz buna görə də müasir dövlətçilik anlayışı təkcə idarəetmə sistemi deyil, həm də milli düşüncə tərzi, gələcəyə baxış və ümumi məsuliyyət fəlsəfəsidir.

Azərbaycanın son onilliklər ərzində keçdiyi inkişaf yolu göstərir ki, davamlı tərəqqinin əsasında təsadüfi qərarlar deyil, uzunmüddətli strateji baxış dayanır. Müstəqilliyini möhkəmləndirən, ərazi bütövlüyünü bərpa edən, iqtisadi potensialını gücləndirən və beynəlxalq nüfuzunu artıran Azərbaycan bu gün regionda sabitliyin, əməkdaşlığın və etibarlı tərəfdaşlığın əsas ünvanlarından biri kimi qəbul olunur. Bu, hər hansı bir qısamüddətli uğurun deyil, dövlətçilik ənənələrinin, ardıcıl siyasi kursun və milli maraqlara əsaslanan idarəetmənin nəticəsidir.

Müasir Azərbaycanın inkişaf modeli diqqəti ilk növbədə balanslı siyasəti ilə cəlb edir. Bir tərəfdən iqtisadi islahatlar, müasir infrastruktur, rəqəmsal transformasiya və beynəlxalq layihələrin həyata keçirilməsi ilə, digər tərəfdən isə sosial müdafiənin gücləndirilməsi, insan kapitalının inkişafı, milli-mənəvi dəyərlərin qorunması və vətəndaş rifahının yüksəldilməsi dövlət siyasətinin ayrılmaz hissəsi kimi diqqət çəkir. Bu tarazlıq ölkəmizin inkişafının təsadüfi deyil, strateji planlaşdırmaya əsaslanan düşünülmüş və yürüdülmüş sistemli siyasətin nəticəsi olduğunu göstərir.

Azərbaycanın beynəlxalq mövqeyi də məhz bu inkişaf modelinin məntiqi nəticəsidir. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, regional əməkdaşlıq təşəbbüsləri və çoxtərəfli diplomatik platformalarda fəal iştirak ölkəmizin etibarlı tərəfdaş kimi nüfuzunu daha da möhkəmləndirib. Xarici siyasətdə milli maraqların ardıcıl və prinsipial şəkildə müdafiə olunması, beynəlxalq hüquqa söykənən mövqe və qarşılıqlı hörmət prinsipi Azərbaycanın müasir diplomatiyasının başlıca xüsusiyyətlərinə çevrilmişdir.

Azərbaycanın bugünkü inkişafının əsasında məqsədyönlü və ardıcıl dövlət idarəçiliyi dayanır. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmiz müstəqilliyini və suverenliyini daha da möhkəmləndirmiş, milli maraqların etibarlı şəkildə qorunmasını təmin etmiş, regionda etibarlı tərəfdaş və təşəbbüskar dövlət kimi mövqeyini gücləndirmişdir. İqtisadiyyatın şaxələndirilməsi, müasir infrastrukturun qurulması, nəqliyyat və enerji layihələrinin uğurla reallaşdırılması, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparılması, eyni zamanda beynəlxalq müstəvidə prinsipial və praqmatik siyasətin həyata keçirilməsi Azərbaycanın inkişaf strategiyasının ardıcıl xarakter daşıdığını nümayiş etdirir. Bu siyasətin əsas məqsədi yalnız bugünkü uğurları möhkəmləndirmək deyil, həm də gələcək nəsillər üçün güclü, rəqabətqabiliyyətli və dayanıqlı dövlət formalaşdırmaqdır.



Müasir dövlət idarəçiliyinin əsas göstəricilərindən biri cəmiyyətin dəyişən tələblərinə çevik reaksiya vermək bacarığıdır. İdarəetmədə şəffaflığın artırılması, institusional islahatların davam etdirilməsi, rəqəmsal texnologiyaların tətbiqi və vətəndaş məmnunluğunun dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilməsi Azərbaycanın inkişaf modelinin dinamik xarakter daşıdığını göstərir. Dövlət yalnız mövcud problemləri həll etməklə kifayətlənməməli, eyni zamanda gələcək çağırışları əvvəlcədən görərək onları imkanlara çevirməyi bacarmalıdır. Məhz strateji idarəetmənin əsas mahiyyəti də bundan ibarətdir. Son illər ölkəmizdə sosial sahədə həyata keçirilən islahatlar, yeni təhsil və səhiyyə layihələri, mədəni irsin qorunmasına yönəlmiş təşəbbüslər, ailə institutunun möhkəmləndirilməsi və həssas sosial qruplara göstərilən diqqət dövlət siyasətinin mərkəzində insan amilinin dayandığını nümayiş etdirir. Dövlət rəhbəri İlham Əliyevin müəyyən etdiyi inkişaf prioritetləri ilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın humanitar və sosial istiqamətdə həyata keçirdiyi təşəbbüslər vahid dövlət strategiyasının bir-birini tamamlayan istiqamətləri kimi çıxış edir. Bu vəhdət iqtisadi inkişafın sosial məsuliyyətlə uzlaşdırılmasının və dövlət siyasətində insan faktoruna verilən önəmin bariz ifadəsidir.

Müasir dövrdə dövlətçilik anlayışı yalnız dövlət orqanlarının fəaliyyəti ilə məhdudlaşmır. Dövlətçilik cəmiyyətin hər bir üzvünün milli maraqlara münasibətində, qanuna hörmətində, vətəndaş məsuliyyətində və Vətənə bağlılığında özünü göstərir. Məhz bu mənəvi bağ dövlətin dayaqlarını möhkəmləndirən əsas qüvvədir. Güclü dövlət ilk növbədə güclü və məsuliyyətli cəmiyyət üzərində qurulur.

Dövlətçilik anlayışı eyni zamanda milli yaddaşın, tarixi irsin və mənəvi dəyərlərin qorunması deməkdir. Tarixi keçmişinə söykənməyən, milli kimliyini yaşatmayan cəmiyyətlərin gələcəyə inamla addımlaması çətin olur. Azərbaycan isə qədim dövlətçilik ənənələrini müasir inkişaf prinsipləri ilə uzlaşdıraraq milli-mənəvi dəyərləri inkişafın mühüm tərkib hissəsinə çevirməyi bacarmışdır. Məhz bu vəhdət cəmiyyətin həm daxili dayanıqlılığını gücləndirir, həm də dövlətin beynəlxalq nüfuzunun mənəvi əsaslarını formalaşdırır.

Bu gün informasiya məkanı da siyasi rəqabətin əsas meydanlarından birinə çevrilib. Dezinformasiya, manipulyasiya və müxtəlif təsir mexanizmləri vasitəsilə dövlətlərin daxili sabitliyinə təsir göstərmək cəhdləri müşahidə olunur.

Azərbaycanın son illərdə qazandığı uğurlar, artan beynəlxalq nüfuzu və müstəqil siyasəti bəzi xarici siyasi mərkəzlərin və ölkəmizin güclənməsini qəbul etmək istəməyən dairələrin narahatlığına səbəb olur. Məhz bu səbəbdən zaman-zaman Azərbaycana qarşı koordinasiyalı dezinformasiya kampaniyaları aparılır, əsassız ittihamlar səsləndirilir, qara piar texnologiyalarından istifadə edilir və ölkəmizin beynəlxalq imicinə xələl gətirməyə yönəlmiş cəhdlər edilir. Ayrı-ayrı xarici maraq qrupları və onların təsiri altında fəaliyyət göstərən şəbəkələr Azərbaycanın müstəqil qərar qəbul etmək hüququna təzyiq göstərməyə, cəmiyyətdə inamsızlıq yaratmağa və milli birliyi zəiflətməyə çalışırlar. Təəssüf doğuran məqamlardan biri də odur ki, şəxsi və ya siyasi ambisiyalarını milli maraqlardan üstün tutan bəzi şəxslər və qruplar da bu qərəzli kampaniyaların təsiri altına düşərək və ya onlara qoşularaq ölkənin maraqlarına zidd mövqelər nümayiş etdirirlər. Lakin bütün bu cəhdlər Azərbaycanın müstəqil inkişaf kursunu dəyişdirə, xalqın dövlətinə olan etimadını sarsıda və milli iradəni zəiflədə bilməz. Əksinə, belə təzyiqlər cəmiyyətin dövlətçilik dəyərləri ətrafında daha sıx birləşməsinə, həmrəyliyin möhkəmlənməsinə və ölkəmizin milli maraqlara əsaslanan siyasətinin daha da qətiyyətlə davam etdirilməsinə səbəb olur.

Belə şəraitdə milli həmrəylik, sağlam ictimai düşüncə və dövlət maraqlarına sadiqlik xüsusi əhəmiyyət daşıyır. Fərqli siyasi baxışlar demokratik cəmiyyətin təbii elementidir. Ancaq milli maraqlar, dövlət müstəqilliyi və xalqın gələcəyi bütün fərqliliklərin fövqündə dayanmalıdır. Tarix dəfələrlə sübut edib ki, milli birlik olan yerdə dövlət daha güclü, cəmiyyət isə daha dayanıqlı olur.

Azərbaycanın bugünkü uğurları keçilmiş yolun sonu deyil. Qarşıda daha böyük hədəflər dayanır. İşğaldan azad edilmiş ərazilərin tam bərpası, innovasiya əsaslı iqtisadiyyatın qurulması, rəqəmsal transformasiyanın dərinləşdirilməsi, "yaşıl enerji" siyasətinin genişləndirilməsi, süni intellekt və yüksək texnologiyaların tətbiqi, eləcə də insan kapitalına yönəlmiş investisiyaların artırılması növbəti inkişaf mərhələsinin əsas istiqamətləridir. Bu məqsədlərə nail olmaq üçün dövlət idarəçiliyinin daim yenilənməsi, ictimai etimadın qorunması və milli maraqların dəyişməz prioritet kimi saxlanılması xüsusi əhəmiyyət kəsb edir.

Tarixən böyük dövlətlər yalnız qazandıqları qələbələrə görə deyil, həmin qələbələri uzunmüddətli inkişafa çevirmək bacarığına görə qiymətləndirilib. Azərbaycanın qarşısında da məhz belə bir tarixi vəzifə dayanır. Bu vəzifənin uğurla yerinə yetirilməsi isə siyasi uzaqgörənlik, milli həmrəylik, güclü dövlətçilik ənənələri və gələcəyə hesablanmış strateji düşüncə tələb edir.

Qarşıdakı dövr yalnız iqtisadi inkişaf mərhələsi deyil, həm də keyfiyyətcə yeni idarəetmə mərhələsi olacaqdır. Dünyada süni intellekt, rəqəmsal iqtisadiyyat, "yaşıl enerji" və innovativ texnologiyalar dövlətlərin rəqabət qabiliyyətini müəyyən edən əsas amillərə çevrilir. Azərbaycan da bu proseslərin fəal iştirakçısı olmaqla yeni inkişaf prioritetlərini formalaşdırır. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasət göstərir ki, ölkəmizin strateji hədəfi yalnız bugünkü nailiyyətləri qorumaq deyil, gələcəyin çağırışlarına hazır olan güclü, müasir və rəqabətqabiliyyətli dövlət modelini daha da möhkəmləndirməkdir.

Bu gün hər bir Azərbaycan vətəndaşı ölkəsinin inkişafında öz məsuliyyətini dərk etməlidir. Çünki dövlətçilik yalnız siyasi institutların fəaliyyəti deyil, bütövlükdə xalqın ortaq iradəsinin ifadəsidir. Dövlətin qüdrəti də məhz bu vəhdətdən doğur.

Azərbaycanın ən böyük üstünlüyü təkcə iqtisadi imkanlarında, beynəlxalq nüfuzunda və ya strateji coğrafi mövqeyində deyil. Ən böyük üstünlüyü milli birliyimiz, dövlətçilik ənənələrimiz və gələcəyə inamdır. Bu dəyərlər qorunduqca Azərbaycan öz inkişaf yolunu inamla davam etdirəcək, milli maraqlara söykənən dövlətçilik modeli ilə regionda və beynəlxalq müstəvidə güclü, etibarlı və nüfuzlu dövlət kimi, müasir dövlət idarəçiliyinin uğurlu nümunələrindən biri kimi mövqeyini daha da möhkəmləndirəcəkdir.

*Asif ƏSGƏROV,*
*Milli Məclisin deputatı*



# Bu səfər Xəzərlə İssık-Kul arasında körpünü daha da möhkəmləndirdi

**Mübaliğəsiz demək olar ki, Azərbaycan-Qırğızıstan əməkdaşlığı iqtisadiyyatın əksər sahələrini əhatə edəcək. İndiyədək əməkdaşlıq edən sahələr əlaqələrini daha da genişləndirəcək və möhkəmləndirəcək, bu sıraya digər sahələr də qoşulacaq. Başqa sözlə, Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri ölkələrimiz arasında hərtərəfli əlaqələrin, o cümlədən iqtisadi əməkdaşlığın yeni bir mərhələsinin bünövrəsini qoydu.**

Səfər çərçivəsində imzalanmış çoxsaylı sənədləri xatırlatmaq kifayətdir. Onlardan iqtisadiyyata aid olanların bir neçəsinin adını çəkək. "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş" imzalanıb. Daha bir sənəd "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qırğız Respublikasının Nəqliyyat və Kommunikasiya Nazirliyi arasında yükdaşımalar, gəmiçilik və gəmiqayırma sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" adlanır.

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Qırğız Respublikasının Energetika Nazirliyi arasında neft məhsullarının tədarükü sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" mübadilə edilib. Mübadilə olunan sənədlər arasında "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında energetika sahəsində əməkdaşlıq üzrə 2026-2028-ci illər üçün Yol Xəritəsi", "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qırğız Respublikasının Milli Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə Qırğız Respublikasının İqtisadiyyat və Ticarət Nazirliyi yanında Maliyyə Bazarının Tənzimlənməsi və Nəzarəti Xidməti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" da var.

Eləcə də "AzerGold" QSC ilə "Kyrgyzaltyn" ASC arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Memorandum" imzalanıb. Digər iki sənədə əsasən, Azərbaycanın Şuşa şəhəri ilə Qırğızıstanın Çolpon-Ata, eləcə də Azərbaycanın Qəbələ şəhəri ilə Qırğızıstanın Karakol şəhəri qardaşlaşacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Çolpon-Ata şəhərində mətbuata bəyanatlarla çıxış edərkən söylədikləri fikirlər də yaxın gələcəkdə iqtisadi əlaqələrin daha sıx olacağını göstərir.

Dövlətimizin başçısı öz bəyanatında demişdir: "Biz bütün təşəbbüslərdə - həm beynəlxalq platformalarda, həm də iqtisadi-ticari sahədə və təhlükəsizliyin möhkəmləndirilməsində bir-birimizi bundan sonra da dəstəkləyəcəyik. Siz qeyd etdiyiniz kimi, bu gün imzalanan sənədlər zərfi qarşılıqlı fəaliyyətimizin geniş sferasını nümayiş etdirir. Əminəm ki, səfərimin nəticələrinə görə əldə olunan razılaşmalar da əvvəlkilər kimi uğurla həyata keçiriləcək. Bu gün biz birgə Azərbaycan-Qırğız İnvestisiya Fondunun maliyyə vəsaitinin iki dəfə - 200 milyon dollara qədər artırılması barədə razılıq əldə etdik. Əminəm ki, bu da son hədd deyil, çünki fondun fəaliyyəti üzrə bizə nümayiş etdirilən təqdimat konkret məzmunla zənginləşir. Qırğızıstanda həyata keçirilən çoxlu layihə var və onlar birgə istehsal, yeni iş yerləri yaradır, qarşılıqlı fəaliyyətimizin iqtisadi potensialını möhkəmləndirir".

Bir neçə kəlmə də Dövlətlərarası Şuranın 3-cü iclası barədə. Burada da bütün sahələrdə qarşıya qoyulmuş məqsədlərin hamısına nail olunacağına əminlik ifadə olunub. Azərbaycan-Qırğız Fondunun uğurla fəaliyyət göstərdiyi, fondun vəsaitlərinin artırılması barədə qərar qəbul edildiyi bildirilib. Bir neçə layihə artıq həyata keçirilir. Fond inkişaf etdikcə layihələrin sayı da artacaq və bu, ortaq məqsədlərə xidmət edəcək.

Dövlətlərarası Şuranın iclasında qərar imzalanıb. Şuranın qərarlarının həyata keçirilməsinə dair informasiya dinlənilib və birgə təşəbbüslərin yerinə yetirilməsinin gedişatı, o cümlədən Azərbaycan-Qırğızıstan Fondunun fəaiyyəti müzakirə edilib.

Məlum olduğu kimi, səfər çərçivəsində Azərbaycan-Qırğızıstan əməkdaşlığına dair məsələlərin bütün kompleksi üzrə ətraflı və etimada əsaslanan danışıqlar aparılıb. İkitərəfli qarşılıqlı fəaliyyətin əsas istiqamətləri nəzərdən keçirilib və tərəfdaşlığın inkişafına dair yeni addımlar müəyyən edilib. Danışıqların mühüm yekunu kimi müttəfiqlik münasibətləri haqqında müqavilə imzalanıb.

Bu barədə Qırğızıstan Prezidenti Sadır Japarov belə deyib: "Bu tarixi hadisə, həqiqətən də, Qırğızıstan-Azərbaycan əməkdaşlığının yeni mərhələsinin əsasını qoyur. Bundan başqa, energetika, nəqliyyat, kibertəhlükəsizlik, təhsil, maliyyə bazarının tənzimlənməsini, həmçinin qiymətli metalların dövriyyəsini əhatə edən ikitərəfli sənədlərdən ibarət sanballı zərf imzalanıb. Qarşılıqlı iqtisadi-ticari fəaliyyətin davamlı inkişafını və əmtəə dövriyyəsinin dayanıqlı artımını qeyd etdik. Gələcəkdə də işgüzar əlaqələrin genişlənməsi, müştərək investisiya layihələrinin həyata keçirilməsi üçün əlverişli şərait yaradılmasına dair razılıq əldə etdik. Bu gün Azərbaycan-Qırğızıstan Fondunun fəaliyyəti çərçivəsində 3 birgə layihənin açılışı oldu və 8 təşəbbüsün həyata keçirilməsinə start verildi".

Səfər çərçivəsində eləcə də nəqliyyat dəhlizlərinin inkişafı və ölkələrimizin tranzit potensialından səmərəli istifadə edilməsi məsələlərinə xüsusi diqqət yetirilib. Azərbaycanın Mərkəzi Asiyanı Avropa bazarları ilə birləşdirən Orta dəhlizin əsas bəndi kimi mühüm rolu qeyd olunub. Energetika sahəsində perspektivli istiqamətlər və birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə edilib. İssık-Kul gölü sahilində Azərbaycanın inşa etdiyi ilk beşulduzlu hotelin təntənəli açılışı olub.

Prezident İlham Əliyev İssık-Kulun sahilində ilk beşulduzlu hotelin Azərbaycan dövlətinin vəsaiti ilə inşa edildiyi və "Bakı" adını daşıdığına görə sevindiyimizi və fəxr etdiyimizi bildirib. Dövlətimizin başçısı həmçinin Qarabağın bərpasına göstərilən kömək üçün Qırğızıstana minnətdarlığımızı ifadə edib. Ağdam rayonunda Manas adını daşıyan məktəbin qırğız xalqının 30 il ərzində işğaldan zərər çəkən Qarabağın bərpası işinə böyük töhfəsi olduğunu deyib.

Qarşıda isə iki xalqın dostluğunu və qardaşlığını daha da möhkəmləndirəcək yeni-yeni layihələr durur. Qeyd etdiyimiz kimi, bunu imzalanmış sənədlər də təsdiqləyir.

Ekspertlər imzalanan sənədlərin yalnız çoxluğunu deyil, onların müxtəlif sahələri əhatə etdiyini də vurğulayırlar. Bu isə əməkdaşlıq imkanlarının çoxluğunu, perspektivlərin böyük olduğunu əks etdirir. Bir sözlə, Prezidentimizin Qırğızıstana dövlət səfəri iki dost və qardaş ölkə arasında iqtisadi inkişafa da yeni impuls verib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin dövlət başçılarının qeyri-rəsmi görüşü regionda yeni güc mərkəzinin formalaşdığını göstərir



**"Qırğızıstanda keçirilən Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin dövlət başçılarının qeyri-rəsmi görüşü Avrasiya regionunda yeni güc mərkəzinin formalaşdığını göstərir. Asiya İnkişaf Bankının "Asian Development Outlook" (Asiya İnkişaf Perspektivləri) adlı hesabatında bildirilib ki, Mərkəzi Asiyanın ümumi daxili məhsul istehsalı 2025-ci ildə 4,5, 2026-cı ildə isə 5 faiz artacaq. Son 30 ildə əhalinin sayı 47 faiz (23 milyon nəfər) artıb. Region dünya bazarına ildə 8 milyon ton pambıq ixrac edir. Mərkəzi Asiya respublikaları ümumilikdə 30 milyard ton neft və 20 trilyon kubmetr təbii qaz ehtiyatına malikdir. Regionun İpək yolunun üzərində yerləşməsi onun nəqliyyat-tranzit potensialını artırır, Avropa ilə Çini və Cənub Şərqi Asiya ölkələrini birləşdirir. Bütün bunlar əlbəttə ki, böyük iqtisadi potensialın göstəricisidir".**

Bu fikri AZƏRTAC-a açıqlaması zamanı **Milli Məclisin deputatı Ziyad SƏMƏDZADƏ** bildirib.

Onun sözlərinə görə, bu iqtisadi gücü Azərbaycan özünün nəqliyyat və tranzit imkanları və yaratdığı infrastrukturla daha da artırır.

"Azərbaycan Mərkəzi Asiya respublikalarının (Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğızıstan) dünya bazarlarına çıxışını təmin edir və bu ölkələrlə Azərbaycanın iqtisadi və siyasi inteqrasiya prosesləri formalaşan yeni güc mərkəzinin dünya miqyasında tanınmasını və qəbul edilməsini təşkil edir. Dünyada mövcud olan ittifaqlar yalnız iqtisadi birliklə güc mərkəzinə çevrilə biliblər. Avropa İttifaqı və digər qurumlar yalnız iqtisadi əməkdaşlıq nəticəsində qlobal siyasətə təsir etmək imkanı qazanıblar. Azərbaycan və Mərkəzi Asiya respublikaları da Türk Dövlətləri Təşkilatında birləşiblər. Bu təşkilatın gələcək gücü onun iqtisadi inteqrasiyasından asılı olacaq. Azərbaycan və Mərkəzi Asiya respublikalarının eyni dinə, mədəniyyətə və xalqların eyni tarixi kökə malik olmaları siyasi birliyi də şərtləndirir. Bununla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Zəfər qazanması və sülhə doğru addımları inteqrasiya prosesləri üçün münbit şərait yaradıb və buna görə də Azərbaycan Prezidentinin hər dəfə Mərkəzi Asiya dövlət başçılarının görüşlərinə dəvət edilməsi təsadüfi xarakter daşımır", - deyə akademik vurğulayıb.

Ziyad Səmədzadə əlavə edib ki, praqmatizm siyasi mənada müəyyən güzəştlərlə maraqların üst-üstə düşməsini təmin etməkdir: "ABŞ Prezidentinin təşəbbüsü Amerikanın, Mərkəzi Asiya respublikalarının və Azərbaycanın maraqlarının üst-üstə düşməsini təmin edir. Buna misal olaraq Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunu misal göstərə bilərik. Bu yolla Çin öz mallarını Mərkəzi Asiya və Azərbaycandan tranzit keçməklə Avropaya ixrac edir. ABŞ-nin Avropadakı müttəfiqləri ticarət əlaqələrini genişləndirir, Azərbaycan və Mərkəzi Asiya respublikaları tranzit gəlir əldə edir. ABŞ-nin logistika şirkətləri marşrutun ehtiyacı olan infrastruktur layihələrə sərmayə yatırıb qazanc əldə edir. Bir sözlə, layihədə iştirak edən bütün tərəflər qazanc əldə edir ki, bu da praqmatizmin nümunəsidir. Bu praqmatizm Azərbaycan və Mərkəzi Asiya respublikalarına qlobal siyasətdə aparıcı rol oynamaqlarına imkan verir və burada Azərbaycanın rolu xüsusi qeyd edilməlidir. Bu mühüm rolun əldə edilməsinin təməli isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağın 44 günlük Vətən müharibəsində azad edilməsi və regionda yeni siyasi və iqtisadi reallıqların yaradılması ilə qoyulub".

# *Avrasiyanın türk qütbü:*
# Bakı və Bişkek arasında sarsılmaz müttəfiqlik müstəvisi



**Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri və Çolpon-Ata şəhərində baş tutan "Mərkəzi Asiya-Azərbaycan" qeyri-rəsmi sammiti postsovet məkanında analoqu az tapılan yüksələn trayektoriyanın növbəti mərhələsi kimi qiymətləndirilməlidir. Bir neçə il əvvəl Bakı və Bişkek arasında münasibətlər çoxtərəfli sammitlərdə iştirakla məhdudlaşırdısa, bu gün artıq müttəfiqlik formatına - iki ölkənin ardıcıl və sürətlə irəlilədiyi münasibətlərin ən ali pilləsinə keçiddən söhbət gedir. Tərəfdaşlıqdan müttəfiqliyə gedən yol cəmi bir neçə ili əhatə etdi və bu dinamikanın özü münasibətlərin hansı səviyyədə olduğunu aydın şəkildə ifadə edir.**

**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında deyib ki, iki ölkə arasında diplomatik münasibətlər 1993-cü ilin yanvarında qurulsa da, onların tarixi bünövrəsi Heydər Əliyevin 1995-ci ilin avqustunda Qırğızıstana - türkdilli dövlətlərin sammitinə və "Manas" dastanının minillik yubileyinə səfəri ilə qoyulub: "Keyfiyyətcə yeni sıçrayış isə son illərə təsadüf edir. Son 5 ildə tərəflər ali səviyyədə 13 səfər həyata keçirib, ümumilikdə iki ölkə arasında 105 sənəd imzalanıb. Prezident İlham Əliyev Bişkekə ilk dövlət səfərini 2022-ci il oktyabrın 11-də edib və bu səfər zamanı Strateji Tərəfdaşlıq Haqqında Bəyannamə qəbul olunub, eləcə də Dostluq parkı açılıb. 2024-cü ilin aprelində Sadır Japarov Bakıya dövlət səfərinə gəlib və bu əldə olunmuş nailiyyətləri daha da sürətləndirib. İndiki səfər isə münasibətləri ən yüksək pilləyə qaldıraraq müttəfiqlik münasibətləri haqqında müqavilənin imzalanması ilə keyfiyyətcə yeni mərhələnin başlanğıc nöqtəsi olub. Bu yolda atılan hər bir addım real məzmunla zənginləşdirildiyi üçün münasibətlər sürətlə inkişaf edib".

Deputat qeyd edib ki, münasibətlərin məzmun nüvəsini Azərbaycan-Qırğız İnkişaf Fondu təşkil edir və onun fəaliyyəti siyasi bəyanatların arxasında real iqtisadiyyatın dayandığını aydın göstərir. 2022-ci ildə təsis edilmiş fond qısa müddətdə sahibkarların artan müraciətlərini qarşılamaq üçün nizamnamə kapitalını yüz milyon dollara qədər artırmağa nail olub. İndiyə qədər bu struktur ümumi dəyəri 52,7 milyon dollar olan strateji layihələri maliyyələşdirib və daha 10-dək müraciətə baxılmaqdadır. Ən mühümü isə odur ki, bu vəsaitlər Qırğızıstan iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən sahələrə yönəldilir: Tyup çayı üzərində kiçik su-elektrik stansiyasının tikintisi, Çuy vilayətində ölkənin ilk xalça fabrikinin inşası, logistika və turizm layihələri buna bariz nümunədir. "Süni şəkildə qurulan bir çox ittifaqdan fərqli olaraq, bu yaxınlaşmanın möhkəm bünövrəsi - ümumi sivilizasiya dayağı mövcuddur. Azərbaycan və Qırğızıstan türk qardaşlığı, Böyük İpək yolunun tarixi marşrutları dil və mədəniyyət yaxınlığı ilə bir-birinə bağlıdır. Bu birlik politoloqların siyasi konyunktura xatirinə uydurduğu nəzəriyyə deyil, mövcud olan obyektiv bir reallıqdır və müasir institusional arxitektura da təbii şəkildə bu bünövrə üzərində bərqərar olur. Türk Dövlətləri Təşkilatı qarşılıqlı fəaliyyətin siyasi çərçivəsini formalaşdıraraq, bütün türk xalqları üçün ümumi dəyər və strateji məkan müəyyənləşdirir. Ekspert mühitində C6 kimi tanınan "Mərkəzi Asiya-Azərbaycan" formatı isə birgə layihələrin praktiki reallaşdırılmasına fokuslanır. Bu mexanizmlər bir-biri ilə rəqabət aparmır, əksinə, siyasət, iqtisadiyyat və mədəniyyətin vahid zəncirdə birləşdiyi çoxsəviyyəli regional inteqrasiya sistemini gücləndirir", - deyə o əlavə edib.

K.Bayramov bildirib ki, Qırğızıstan istiqamətinə xüsusi çəki verən digər amil böyük Avrasiya tranzitinin coğrafiyasıdır. Azərbaycan uzun müddətdir ki, Çin və Mərkəzi Asiyanı Rusiyadan keçən şimal və İrandan keçən cənub marşrutlarından yan keçməklə, Avropa ilə birləşdirən Orta dəhlizin əsas halqası kimi çıxış edir. Açıq dənizlərə birbaşa çıxışı olmayan Mərkəzi Asiya dövlətləri üçün Xəzər dənizi və Qərbə uzanan Azərbaycan marşrutu dünya bazarlarına çıxış qapısı, həm də strateji zərurətdir. Qırğızıstan bu sistemə inteqrasiya olunaraq özünə dost qonşu və tərəfdaş qazanır. Azərbaycan isə öz növbəsində Tanrı dağlarından Aralıq dənizinə qədər mal, enerji və insan axınlarının kəsişdiyi yeni türk Avrasiyasının sistemyaradıcı qovşağına çevrilir.

Deputat deyib ki, bu yaxınlaşma yalnız iqtisadiyyat və logistika ilə məhdudlaşmayıb, dövlətlərarası əlaqələrin bütün spektrini əhatə etməsiylə diqqət çəkir: mədəni mübadilələr genişlənir, birbaşa aviabirlik inkişaf edir - AZAL Bakı-Bişkek marşrutu üzrə həftədə dörd müntəzəm reys və İssık-Kula mövsümi uçuşlar həyata keçirir. Qırğızıstanın paytaxtında Bakının dəstəyi ilə Heydər Əliyev adına təhsil kompleksi, Dostluq parkı və Nizami Gəncəvi adına məktəb açılıb. 2024-cü ilin aprelində isə iki dövlət başçısının iştirakı ilə Çingiz Aytmatovun abidəsinin açılış mərasimi keçirilib. Bu sıx bəşəri və humanitar bağlılıq həqiqi müttəfiqliyi kağız üzərindəki razılaşmalardan fərqləndirən əsas amildir: müqavilələri hökumətlər imzalayır, tərəfdaşlıq isə insanlar arasındakı canlı təmaslarda yaşayır. "Bu müttəfiqliyin həqiqi mənada qarşılıqlı xarakter daşıması və bunun ən aydın şəkildə Qarabağa münasibətdə özünü göstərməsi xüsusi qeyd olunmalıdır. Qırğızıstan azad edilmiş Azərbaycan ərazilərinin bərpası prosesinə kənardan tamaşa etmədi, birbaşa iştirak etdi. Qırğız hökumətinin maliyyə dəstəyi ilə Ağdam rayonunun Xıdırlı kəndində tikilən və 2025-ci ilin yayında hər iki ölkə prezidentinin iştirakı ilə təntənəli şəkildə açılan Ayköl Manas adına tam orta məktəb bu baxımdan dərin rəmzi məna kəsb edir. İki xalq protokollarla deyil, öz qəhrəmanlarının adları ilə mübadilə edərək onları bir-birinin gündəlik həyatına həkk etdi. Buna azad olunmuş ərazilərin dağlıq otlaqlarında yetişdirilmək üçün Qırğızıstan tərəfindən hədiyyə edilən 225 baş yak da praktiki töhfə kimi əlavə olundu. Bütün bunlar praktikada uğurla sınaqdan çıxmış sarsılmaz qardaşlıq bağlarıdır. Qırğızıstan misalında təzahür edən bu təcrübə ikitərəfli münasibətlərin çərçivəsini aşan universal əhəmiyyətə malikdir, çünki o, bütün Mərkəzi Asiya regionu üçün nümunəvi inteqrasiya modelini nümayiş etdirir", - deyə K.Bayramov bildirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan-Qırğızıstan əməkdaşlığının güclənməsi Orta dəhlizin potensialını daha da artırır

**"Azərbaycan ilə Qırğızıstan arasında münasibətlərin yeni mərhələyə yüksəlməsi təkcə iki qardaş ölkə arasında əməkdaşlığın genişlənməsi baxımından deyil, bütövlükdə Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında strateji tərəfdaşlığın möhkəmləndirilməsi, türk dünyasının inteqrasiyasının sürətlənməsi və Avrasiya məkanında yeni iqtisadi əməkdaşlıq modelinin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır".**

Bu fikirləri AZƏRTAC-a açıqlaması zamanı **türkiyəli iqtisadçı-ekspert İlhan İŞBAŞ** deyib.

Ekspert bildirib ki, Azərbaycanın son illərdə Mərkəzi Asiya dövlətləri ilə münasibətləri ardıcıl şəkildə inkişaf etdirməsi ölkənin uzunmüddətli xarici siyasət strategiyasının mühüm istiqamətlərindən biridir. Onun sözlərinə görə, Qırğızıstanla əlaqələrin dərinləşdirilməsi bu siyasətin mühüm tərkib hissəsi olmaqla yanaşı, Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanın daha da güclənməsinə xidmət edir.



"Azərbaycan Prezidentinin Qırğızıstana səfəri iki ölkə arasında siyasi etimadın daha da möhkəmləndiyini nümayiş etdirir. Bu səfər iqtisadiyyat, ticarət, nəqliyyat, logistika, enerji, kənd təsərrüfatı, rəqəmsal transformasiya, təhsil və turizm kimi sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradır. Münasibətlərin bu səviyyəyə yüksəlməsi təkcə Azərbaycan və Qırğızıstan üçün deyil, bütövlükdə türk dünyasının gələcəyi baxımından mühüm strateji əhəmiyyət kəsb edir. Son illərdə Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən ortaq layihələr üzv dövlətlər arasında iqtisadi inteqrasiyanı sürətləndirir, investisiya mühitini yaxşılaşdırır və qarşılıqlı ticarətin həcminin artmasına töhfə verir. Azərbaycan və Qırğızıstan arasında əməkdaşlığın yeni mərhələyə keçməsi də bu prosesin mühüm tərkib hissəsidir. Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə inkişaf etdirilən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) türk dövlətləri arasında iqtisadi əlaqələrin möhkəmlənməsində əsas platformaya çevrilib. Qırğızıstanın bu marşrutun imkanlarından daha fəal istifadə etməsi region ölkələrinin beynəlxalq bazarlara çıxışını asanlaşdıracaq, yükdaşımaların həcmini artıracaq və Avropa ilə Asiya arasında etibarlı logistika zəncirinin daha da güclənməsinə şərait yaradacaq", - deyə ekspert qeyd edib.

İlhan İşbaş bildirib ki, Orta dəhlizin inkişafı təkcə nəqliyyat layihəsi deyil, həm də türk dövlətlərinin iqtisadi inteqrasiyasını dərinləşdirən strateji platformadır: "Bu marşrut istehsal, logistika, sənaye əməkdaşlığı və ixrac potensialının genişlənməsi üçün yeni imkanlar yaradır. Azərbaycanın müasir liman infrastrukturu, dəmir yolu şəbəkəsi və logistika imkanları Mərkəzi Asiya ölkələrinin dünya bazarlarına çıxışında mühüm rol oynayır. Azərbaycan ilə Qırğızıstan arasında investisiyaların təşviqi, birgə sənaye layihələrinin həyata keçirilməsi və sahibkarlar arasında əməkdaşlığın genişləndirilməsi gələcək illərdə iqtisadi münasibətlərin daha da şaxələndirilməsinə şərait yaradacaq. Bu əməkdaşlıq kənd təsərrüfatı məhsullarının emalı, bərpaolunan enerji, rəqəmsal iqtisadiyyat və innovasiya sahələrində də yeni perspektivlər açır".

İ.İşbaş vurğulayıb ki, türk dünyasında iqtisadi inteqrasiyanın dərinləşməsi siyasi həmrəyliyin də möhkəmlənməsinə xidmət edir. Dövlət başçıları arasında qarşılıqlı etimada əsaslanan münasibətlər ortaq qərarların qəbulunu sürətləndirir, regional təhlükəsizlik, iqtisadi dayanıqlılıq və davamlı inkişaf istiqamətində birgə fəaliyyət imkanlarını genişləndirir.



# Bakı-Bişkek: ortaq tarix və qarşılıqlı etimad müttəfiqlik münasibətlərinə keçir

**Azərbaycanın son illər həyata keçirdiyi xarici siyasətin əsas istiqamətlərindən biri Mərkəzi Asiya ilə əlaqələrin strateji səviyyədə genişləndirilməsidir. Türk dünyasının inteqrasiyasının gücləndirilməsi, Orta dəhlizin imkanlarının artırılması, nəqliyyat-logistika, enerji, investisiya və humanitar əməkdaşlığın dərinləşdirilməsi Prezident İlham Əliyevin formalaşdırdığı Mərkəzi Asiya siyasətinin başlıca prioritetləri kimi çıxış edir. Bu siyasət nəticəsində Azərbaycan region dövlətləri ilə münasibətlərini yeni keyfiyyət mərhələsinə yüksəldərək etibarlı siyasi tərəfdaş, mühüm iqtisadi investor və türk dünyasında inteqrasiya proseslərinin aparıcı təşəbbüskarlarından biri kimi mövqeyini daha da möhkəmləndirir.**

Məhz bu strateji kursun məntiqi davamı olaraq Prezident İlham Əliyevin bu günlər Qırğız Respublikasına həyata keçirilən dövlət səfəri Azərbaycanın Mərkəzi Asiya siyasətində növbəti mühüm mərhələ kimi tarixə düşdü. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da iştirak etdiyi səfərin nəticələri bir daha göstərdi ki, son illərdə Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələri ilə siyasi dialoqu intensivləşdirməsi, Dövlətlərarası Şuranın 3-cü iclasındakı çıxışı, "Müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin qəbul edilməsi, qarşılıqlı investisiyaların təşviqi, regional nəqliyyat-kommunikasiya layihələrinin əlaqələndirilməsi və Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanın dərinləşdirilməsi istiqamətində həyata keçirdiyi ardıcıl siyasət Azərbaycanı regionun etibarlı strateji tərəfdaşına çevirib. Qırğızıstanla münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəlməsi isə bu siyasətin ən uğurlu və məntiqi nəticələrindən biri kimi qiymətləndirilə bilər.

Dövlət səfərinin proqramı da münasibətlərin miqyasını aydın göstərir, siyasi, iqtisadi və humanitar gündəliyin bütün istiqamətlərini əhatə edən kompleks əməkdaşlıq modelinin formalaşdığını ortaya qoyurdu. Bu kontekstdə Prezident İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sadır Japarova xitabən mətbuata bəyanatında səsləndirdiyi fikirlər Azərbaycan və Qırğız Respublikası arasındakı münasibətlərin yeni mərhələsinin siyasi mahiyyətini ifadə edir: "Bu gün biz Sizinlə dövlətlərarası münasibətləri ən yüksək səviyyəyə qaldırdıq, qarşılıqlı fəaliyyətimizin möhkəmlənməsinə birgə səyləri bir daha nümayiş etdirdik.

Müttəfiqlik münasibətləri çox böyük məsuliyyət deməkdir və biz bu məsuliyyətə hazırıq. Biz bütün təşəbbüslərdə - həm beynəlxalq platformalarda, həm də iqtisadi-ticari sahədə və təhlükəsizliyin möhkəmləndirilməsində bir-birimizi bundan sonra da dəstəkləyəcəyik".

Qırğız Respublikasının Prezidenti Sadır Japarov isə əmin olduğunu bildirdi ki, bu səfər qardaş münasibətlərimizin möhkəmlənməsinə yeni impuls verəcək: "Qırğızıstan ilə Azərbaycan bir-birini daim dəstəkləyir və qarşılıqlı maraq doğuran məsələlər üzrə mövqelərini uğurla əlaqələndirir. Məmnunluqla qeyd edirəm ki, Qırğızıstanla Azərbaycan arasında siyasi dialoq bu gün ən yüksək səviyyədədir. Müntəzəm təmaslar və qarşılıqlı etimad bu gün qurulan müttəfiqlik münasibətləri üçün möhkəm zəmin yaradır".

## Möhkəm təməllər üzərində qurulmuş müttəfiqlik

Azərbaycan-Qırğızıstan münasibətlərinin bugünkü səviyyəsi yalnız son illərin siyasi proseslərindən başlanmır, bu əməkdaşlıq ortaq türk kimliyi, müştərək tarix, mədəniyyət və mənəvi dəyərlər üzərində formalaşmış möhkəm təmələ söykənir. İki ölkə arasında diplomatik münasibətlər 1993-cü il yanvarın 19-da qurulsa da, siyasi münasibətlərin ideoloji əsasları Ümummilli Lider Heydər Əliyevin 1995-ci ildə "Manas" eposunun 1000 illik yubileyi münasibətilə Qırğız Respublikasına səfəri zamanı formalaşmağa başlamışdı. Sonrakı illərdə qarşılıqlı səfirliklərin açılması ikitərəfli münasibətlərin institusional inkişafına təkan vermişdir.

Cənab İlham Əliyevin prezidentliyi dövründə isə Qırğız Respublikası ilə münasibətlər yeni məzmun qazandı. Dövlətimizin başçısının Mərkəzi Asiya regionuna verdiyi strateji əhəmiyyət Bişkeklə əməkdaşlığın da sürətlə inkişafına şərait yaratdı. Son beş il ərzində həyata keçirilmiş 13 yüksəksəviyyəli qarşılıqlı səfər bunu təsdiqləyən ən mühüm göstəricilərdəndir. Prezident İlham Əliyevin 2022-ci ildə Qırğız Respublikasına dövlət səfəri, Prezident Sadır Japarovun isə 2022-ci ildə ölkəmizə rəsmi, 2024-cü ildə dövlət səfərləri son illər münasibətlərin dinamik inkişafını təmin edib. Bu gün iki ölkə arasında imzalanmış 105 sənədin mövcudluğu, Dövlətlərarası Şuranın fəaliyyət göstərməsi, hökumətlərarası komissiyaların müntəzəm işi və parlamentlərarası əməkdaşlığın genişlənməsi göstərir ki, münasibətlər artıq sistemli və institusional xarakter daşıyır. Bu tarixi inkişafın məntiqi nəticəsi kimi dövlət səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" iki ölkənin əlaqələrinin hüquqi bazasını daha da yüksək səviyyəyə qaldırdı.

Əgər əvvəlki mərhələdə münasibətlər "Strateji Tərəfdaşlıq haqqında Bəyannamə" əsasında inkişaf edirdisə, artıq yeni müqavilə dövlətlərin hər ikisinin təhlükəsizlik, xarici siyasət, iqtisadiyyat, enerji, nəqliyyat, rəqəmsallaşma və beynəlxalq təşkilatlarla koordinasiyasının inkişafına geniş perspektivlər açır. Bu sənəd təkcə ikitərəfli münasibətlər üçün deyil, bütövlükdə türk dünyasında inteqrasiya prosesləri baxımından da mühüm siyasi hadisə kimi qiymətləndirilə bilər.

Səfər çərçivəsində energetika, avtomobil nəqliyyatı, gəmiçilik, statistika, kibertəhlükəsizlik, maliyyə bazarlarının tənzimlənməsi, şəhərlərin qardaşlaşması, neft məhsullarının tədarükü və digər istiqamətlər üzrə imzalanaraq mübadilə edilmiş çoxsaylı sənədlər müttəfiqliyin yalnız siyasi deyil, həm də böyük praktik məzmun daşıdığını nümayiş etdirir.

## Azərbaycanın Mərkəzi Asiya siyasətində Qırğızıstanın xüsusi yeri

Prezident İlham Əliyevin xarici siyasət kursunda Mərkəzi Asiya, qeyd etdiyimiz kimi, prioritet istiqamətlərdəndir. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın artan geosiyasi çəkisi bu siyasətin daha fəal həyata keçirilməsinə imkan yaradır. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərinə xüsusi qonaq kimi dəvət olunması, daha sonra bu platformada tamhüquqlu iştirakına dair qərarın qəbul edilməsi ölkəmizin region üçün artan əhəmiyyətinin göstəricisidir. Cənab İlham Əliyevin də bəyanatında xatırlatdığı kimi, hazırda bu platforma "Mərkəzi Asiyanın və Azərbaycanın dövlət liderlərinin görüşü" adlanır, növbəti görüş bir müddətdən sonra keçiriləcək.

Bu amilləri nəzərə alsaq, Qırğız Respublikası Azərbaycan üçün yalnız ikitərəfli tərəfdaş yox, həm də Mərkəzi Asiyada çoxtərəfli əməkdaşlığın vacib iştirakçısıdır. Azərbaycanın Orta dəhliz layihəsində oynadığı rol, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və perspektivdə Zəngəzur dəhlizi (TRIPP) Qırğızıstanın da dünya bazarlarına çıxış imkanlarını genişləndirir. Beləliklə, Bakı ilə Bişkek arasında əməkdaşlıq artıq yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, Avrasiyanın yeni nəqliyyat və logistika xəritəsinin formalaşması kontekstində də strateji əhəmiyyət daşıyır.

Siyasi münasibətlərdə müşahidə olunan dinamika digər iqtisadi sahələr üzrə əməkdaşlıqda da öz əksini tapır. 2025-ci ildə Azərbaycanla Qırğız Respublikası arasında qarşılıqlı ticarət dövriyyəsinin 77,17 milyon dollara çatması, Azərbaycanda 100-ə yaxın Qırğızıstan şirkətinin fəaliyyət göstərməsi, Azərbaycan-Qırğız İnkişaf Fondunun kapitalının 200 milyon dollara qədər artırılması barədə razılığın əldə edilməsi və artıq on milyonlarla dollar dəyərində layihələrin maliyyələşdirilməsi münasibətlərin iqtisadi əsaslarının nə qədər möhkəmləndiyini göstərir.

Azərbaycan Prezidenti İlham Əliyev əmin olduğunu bildirdi ki, Azərbaycan-Qırğız İnvestisiya Fondunun maliyyə vəsaitinin iki dəfə - 200 milyon dollara qədər artırılması barədə razılığın əldə olunması da son hədd deyil: "Çünki fondun fəaliyyəti üzrə bizə nümayiş etdirilən təqdimat konkret məzmunla zənginləşir. Qırğızıstanda həyata keçirilən çoxlu layihə var və onlar birgə istehsal, yeni iş yerləri yaradır, qarşılıqlı fəaliyyətimizin iqtisadi potensialını möhkəmləndirir". Bu mexanizm iki ölkə arasında investisiya əməkdaşlığının institusional modelini formalaşdıraraq sahibkarların yeni layihələr həyata keçirməsinə imkan yaradır.

Qeyd edək ki, səfər proqramı çərçivəsində İssık-Kulun sahilində "Bakı" hotelinin də açılışı oldu. Bu beşulduzlu hotel Azərbaycan dövlətinin vəsaiti ilə inşa edilib.

Nəqliyyat-logistika istiqamətində əməkdaşlıq da sürətlə genişlənməkdədir. Orta dəhliz, "Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Avropa" multimodal marşrutu üzrə yükdaşımalar fəal şəkildə həyata keçirilir. Bakı-Bişkek və Bakı-İssık-Kul aviareysləri iqtisadi inteqrasiyanın əsas dayaqlarına çevrilib.

## Qarabağın bərpasında dostluğun rəmzi

Azərbaycan-Qırğızıstan münasibətlərinin ən dəyərli istiqamətlərindən biri Qarabağın bərpasında Qırğızıstanın göstərdiyi dəstəkdir. Qırğız hökumətinin maliyyə dəstəyi ilə Ağdamın Xıdırlı kəndində Ayköl Manas adına tam orta məktəb binasının tikilməsi, Qırğız hökumətinin azad edilmiş ərazilərdəki yaylaqlar üçün Azərbaycana 225 baş yak hədiyyə etməsi iki ölkə arasında münasibətlərin qardaşlıq prinsipləri ilə inkişaf etdiyini göstərir. Eyni zamanda Bişkekdəki Heydər Əliyev adına məktəb-gimnaziya kompleksi, Nizami Gəncəvi adına 103 saylı məktəb və "Dostluq" parkı Azərbaycan xalqına göstərilən xüsusi ehtiramın ifadəsidir.

Ölkəmizlə Qırğızıstan arasında münasibətlərin mühüm dayaqlarından biri də humanitar diplomatiyadır. Son illər qarşılıqlı Mədəniyyət Günlərinin keçirilməsi, Bakıda Çingiz Aytmatovun abidəsinin açılması, iki ölkə şəhərlərinin qardaşlaşması, media qurumlarının əməkdaşlığının genişlənməsi xalqlarımız arasında münasibətləri daha da möhkəmləndirib. Bu layihələr siyasi münasibətlərin cəmiyyətlər arasında da dərinləşməsinə xidmət edir.

Azərbaycan və Qırğızıstan həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq mövqedən çıxış edərək türk dünyasının inteqrasiyasına mühüm töhfələr verirlər. Bu əməkdaşlıq regional sabitliyin, iqtisadi inkişafın və ortaq mədəni irsin qorunmasının vacib elementlərindən birinə çevrilib.

## Bütöv geosiyasi strategiya

Dövlət səfəri çərçivəsində cənab İlham Əliyevə Qırğız Respublikasının ali dövlət mükafatı - 1-ci dərəcəli "Manas" ordeninin, Qırğızıstan Prezidenti Sadır Japarova isə Azərbaycanın ali ordeni - "Heydər Əliyev" ordeninin təqdim edilməsi iki ölkə arasında münasibətlərin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyinin siyasi və simvolik ifadələrindən biri kimi qiymətləndirilə bilər. Bu qarşılıqlı təltif dövlət başçılarının şəxsi xidmətlərinə verilən yüksək qiymət olmaqla yanaşı, eyni zamanda Azərbaycan-Qırğızıstan əlaqələrinin son illər qazandığı dinamik inkişafın, qarşılıqlı etimadın və ortaq siyasi iradənin rəsmi təsdiqidir. Hər iki ölkənin ali dövlət mükafatlarının qarşılıqlı şəkildə təqdim olunması türk dünyasında həmrəyliyin möhkəmləndirilməsi, ortaq tarixi-mədəni dəyərlərə söykənən əməkdaşlığın dərinləşdirilməsi və gələcək strateji tərəfdaşlığın uzunmüddətli xarakter daşıdığının mühüm siyasi mesajıdır. Bu addım eyni zamanda Azərbaycan ilə Qırğızıstan arasında münasibətlərin təkcə ikitərəfli formatda deyil, həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı etimad, həmrəylik və inteqrasiyanın gücləndirilməsi baxımından yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir.

Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri göstərdi ki, Azərbaycanın Mərkəzi Asiya siyasəti artıq ayrı-ayrı layihələr səviyyəsini keçərək bütöv geosiyasi strategiyaya çevrilib. Qırğızıstanla imzalanmış müttəfiqlik müqaviləsi bu strategiyanın mühüm halqalarındandır.

Bu gün Azərbaycan Mərkəzi Asiya üçün Xəzər hövzəsinin əsas logistika mərkəzi, Avropaya çıxış qapısı, enerji təhlükəsizliyinin etibarlı tərəfdaşı və türk dünyasının inteqrasiyasını təşviq edən aparıcı dövlətlərdən biri kimi çıxış edir. Qırğızıstan isə bu strateji xəttin mühüm iştirakçısıdır.

Müttəfiqlik münasibətlərinin rəsmiləşdirilməsi göstərir ki, Bakı və Bişkek qarşılıqlı etimad, ortaq tarix, iqtisadi maraqlar və siyasi baxışların vəhdəti əsasında uzunmüddətli əməkdaşlıq modelini formalaşdırıblar. Prezident İlham Əliyevin bu dövlət səfəri yalnız ikitərəfli münasibətlərdə deyil, bütövlükdə Mərkəzi Asiyada yeni geosiyasi balansın formalaşması və Avrasiya nəqliyyat-kommunikasiya sisteminin inkişafı baxımından da mühüm siyasi hadisə kimi tarixə düşdü.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Çolpon-Atadan verilən strateji mesajlar

## Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətləri gələcəklərini geosiyasi təzyiqlərlə deyil, müstəqil iradə və qarşılıqlı hörmət prinsipi əsasında formalaşdırırlar

**Müasir beynəlxalq münasibətlər sisteminin polisentrik transformasiyası və regional təhlükəsizlik arxitekturasının doktrinal əsaslarla yenidən formalaşması fonunda Cənubi Qafqaz və Mərkəzi Asiya geostrateji məkanlarının konvergensiyası prosesi keyfiyyətcə yeni hüquqi-siyasi müstəviyə qədəm qoyub.**

Bu tarixi əhəmiyyətə malik regionun siyasi coğrafiyasını köklü dəyişən institusional transformasiyanın mərkəzində Prezident İlham Əliyevin nümayiş etdirdiyi, milli suverenliyin toxunulmazlığı, bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı faydalılıq prinsiplərinə söykənən doktrinal xarici siyasət strategiyası dayanır. Dövlət başçısının təsbit etdiyi "Bizim ailəmiz türk dünyasıdır" doktrinası beynəlxalq hüququn əsas prinsipləri, BMT Nizamnaməsinin 52-ci maddəsində nəzərdə tutulan regional razılaşmalar institutu və geostrateji təhlil müstəvisində türk dövlətlərinin unifikasiya olunmuş müstəqil geopolitik subyekt kimi təşəkkül tapmasının nəzəri-konseptual və praktiki-normativ fundamentini təşkil edir.

**Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, dövlət başçısının Qırğız Respublikasına dövlət səfəri və bu çərçivədə əldə olunmuş normativ-hüquqi, iqtisadi-maliyyə və geonəqliyyat uzlaşmaları təsdiq edir ki, Azərbaycanın xarici siyasət doktrinası Avrasiyanın geoiqtisadi xəritəsində institusional paradiqmanı köklü şəkildə beynəlxalq hüququn ümumtanınmış normalarında bəyan olunan niyyətlərə müvafiq formada təməlli şəkildə dəyişdirir. Ölkəmizin rəhbərinin müstəsna diplomatik təşəbbüskarlığı ikitərəfli münasibətlərin klassik tərəfdaşlıq çərçivəsini aşaraq, qarşılıqlı strateji bağlar, təhlükəsizlik imperativləri və dövlətlərarası öhdəliklər rejiminə söykənən ali dərəcəli müttəfiqlik statusuna transformasiyasını hüquqi-inkarolunmaz şəkildə təmin edib. "Səfərin hüquqi-siyasi fundamentini təşkil edən "Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" beynəlxalq müqavilələr hüququ üzrə 1969-cu il Vyana Konvensiyasının universal kodifikasiya normalarına, eləcə də BMT Nizamnaməsinin 2-ci maddəsində təsbit edilmiş imperativ prinspilərə tam uyğun olaraq, tərəflərin suveren bərabərliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmamaq öhdəliklərini "jus cogens" norma qismində təsbit edir. Prezident İlham Əliyevin hüquqi-siyasi uzaqgörənliyinin məntiqi nəticəsi olan bu sənəd iki dövlətin xarici siyasət strategiyalarının və təhlükəsizlik paradiqmalarının unifikasiyasını normativ akt səviyyəsinə qaldırır. Beynəlxalq-hüquqi baxımdan Dövlətlərarası Şuranın Çolpon-Ata şəhərində keçirilən 3-cü iclasında qəbul edilən qərarlar müqavilə şərtlərinin icra mexanizmlərini institusionallaşdıraraq, qərarların monitorinqi və implementasiyası üzrə supranasionallaşma elementlərindən uzaq, lakin daxili hüquq sistemlərinin koordinasiyasına əsaslanan effektiv dövlətlərarası idarəetmə modeli yaradıb", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, müttəfiqlik münasibətlərinin bu ali hüquqi statusu, eyni zamanda dövlətlərarası əlaqələr tarixində müstəsna mənəvi-siyasi və diplomatik çəkiyə malik olan ali rəmzi jestlərlə daha da möhkəmləndirilməsi səfərin ən nəticəyönümlü məqamlarından biri kimi xüsusi diqqət çəkir. Dövlət başçılarının ali dövlət mükafatları olan 1-ci dərəcəli "Manas" və "Heydər Əliyev" ordenləri ilə qarşılıqlı təltif edilməsi beynəlxalq diplomatik protokolda dövlətlərarası ehtiramın, dövlət suverenliyinin və qarşılıqlı ali etimadın yüksək hüquqi-simvolik ifadəsidir. Bu ali mükafatlar ilk növbədə iki ölkə liderinin Avrasiya məkanında sabitliyin, hüququn aliliyinin və qardaşlıq bağlarının möhkəmləndirilməsindəki şəxsi tarixi xidmətlərinin hüquqi-siyasi etirafı kimi xarakterizə olunmalıdır.

B.Məhərrəmov bildirib ki, ötən dövrün geosiyasi proseslərini dəyişən konfiqurasiyalar fonunda təhlil etdikdə tarixən pərakəndə və konseptual baxımdan fərqli xarici siyasət vektorlarına malik olan türk dövlətlərinin vahid geostrateji platforma ətrafında konsolidasiyasında



istisnasız olaraq Prezident İlham Əliyevin ardıcıl və hüquqi baxımdan əsaslandırılmış diplomatik təşəbbüsləri həlledici önəmə malikdir: "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının müasir, institutsional nizamnaməyə və beynəlxalq təşkilat subyektivliyinə malik Türk Dövlətləri Təşkilatına transformasiyası regional inteqrasiya hüququnun keyfiyyətcə yeni mərhələsidir. Prezident İlham Əliyev də məhz türk dünyasını qlobal siyasi arxitekturada təkcə coğrafi və ya etno-mədəni birlik kimi deyil, beynəlxalq hüquqyaradıcılığı və qərarqəbuletmə mexanizmlərinə birbaşa təsir göstərən müstəqil güc mərkəzi kimi mövqeləndirib. Qlobal böhranlar, xüsusən COVID-19 pandemiyası dövründə Azərbaycan Prezidentinin təşəbbüsü ilə TDT-nin Fövqəladə Zirvə Görüşünün keçirilməsi beynəlxalq münasibətlər tarixində və çoxtərəfli diplomatiyada unikal hüquqi və operativ presedent yaratmışdır. Birləşmiş Millətlər Təşkilatının fəaliyyətində aksioloji durğunluq yarandığı, 2005-ci il Beynəlxalq Səhiyyə Qaydalarının çoxtərəfli icra mexanizmlərinin kənarda qaldığı və qlobal vaksinasiya sahəsində proteksionist "vaksin millətçiliyi"nin tüğyan etdiyi bir şəraitdə məhz cənab İlham Əliyevin liderliyində türk dünyasının vahid sinxronlaşdırılmış tandem kimi çıxış etməsi humanitar hüquq normalarına söykənən operativ böhran idarəetmə mexanizmlərinin səmərəliliyini nümayiş etdirdi".

Deputat vurğulayıb ki, türk dünyasının beynəlxalq nüfuzunun möhkəmləndirilməsi istiqamətində digər mühüm konsepsiya Prezident İlham Əliyevin geostrateji vizyonunun mühüm tərkib hissəsi kimi, türk dünyasının BMT idarəçiliyində və BMT Təhlükəsizlik Şurasının qərarlarında institusional çəkisinin artırılmasıdır. BMT TŞ-nin daimi üzvlərinin veto hüququndan irəli gələn struktur disbalansını, beynəlxalq hüququn selektiv tətbiqi böhranını və BMT Nizamnaməsinin reformasiyası zərurətini açıq şəkildə qeyd edən Azərbaycan lideri TDT üzvü olan dövlətlərin BMT platformasında konsolidasiya olunmuş səs hüququna və strateji təsir imkanlarına malik olmasını hüquqi-siyasi tələb kimi irəli sürür. Bu doktrinal yanaşma türk dünyasının qlobal iyerarxiyada beynəlxalq hüquq subyektivliyini artırmaqla yanaşı, BMT TŞ-nin qərarlarında və çoxtərəfli konvensiyaların qəbulu prosesində region dövlətlərinin milli maraqlarının konvergensiyasını təmin edir. "Bu baxış bucağı Azərbaycanın ikitərəfli əlaqələrdə, o cümlədən Qırğız Respublikası ilə münasibətlərdə Bakıya baxışda önəmli rol oynayaraq güvən diktə edir. Digər tərəfdən, bu çərçivədə geoiqtisadi və maliyyə-investisiya inteqrasiyasında Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji hədəflər kapitalın multiplikativ effektivliyini artırmaqla yanaşı, regionlararası makroiqtisadi və hüquqi sabitliyin təminatçısı rolunu oynayır. Bu prosesin praktiki davamı olaraq Azərbaycan-Qırğız İnkişaf Fondunun nizamnamə kapitalının iki dəfə artırılaraq 200 milyon ABŞ dollarına çatdırılması haqqında 2022-ci il 11 oktyabr tarixli sazişə daxil edilən ikinci əlavə saziş ikitərəfli əlaqələrə töhfə olmaqla yanaşı, Azərbaycanın Cənubi Qafqaz hüdudlarını aşaraq Mərkəzi Asiyada institusional sərmayəçi və maliyyə donoruna çevrilməsinin aydın göstəricisidir. İqtisadi inteqrasiya mexanizmlərinin hüquqi çərçivəsini tamamlayan digər mühüm sənədlər - Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə Qırğız Respublikasının Maliyyə Bazarının Tənzimlənməsi və Nəzarəti Xidməti arasında imzalanmış idarələrarası Anlaşma Memorandumu, eləcə də "AzerGold" QSC və "Kyrgyzaltyn" ASC arasındakı kooperasiya sənədləri maliyyə-bank sektorunun inteqrasiyası, resurs emalı və dağ-mədən sənayesində hüquqi şəffaflıqla dəstəklənən yeni investisiya rejiminin və transmilli mülkiyyət mühafizəsi standartlarının əsasını qoyur", - deyə o əlavə edib.

B.Məhərrəmov qeyd edib ki, Vətən müharibəsində əldə olunmuş tarixi Zəfər yalnız Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə məhdudlaşmır, bütövlükdə, Cənubi Qafqaz və Mərkəzi Asiya regionunun geopolitik konfiqurasiyasını kökündən dəyişdirir. BMT TŞ-nin 30 il kağız üzərində qalmış 822, 853, 874 və 884 saylı qətnamələrini, eləcə də BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit edilmiş özünümüdafiə hüququnu de-fakto və de-yure təkbaşına icra edən Azərbaycan dövləti beynəlxalq hüququn "jus cogens" normalarının aliliyini təmin edib. Bu Zəfər Türk dünyasına psixoloji və geostrateji özünəinamı qaytarıb, TDT-nin hərbi-siyasi, müdafiə sənayesi və təhlükəsizlik ölçülərinin dərinləşməsinə təkan verib. Postmünaqişə dövründə Prezidentin diktə etdiyi yeni regional təhlükəsizlik modeli kənar güclərin Cənubi Qafqaza konyunktur müdaxilə cəhdlərini neytralizasiya edərək BMT Nizamnaməsində təşviq edilən regional inklüzivlik və problemlərin vasitəçisiz həlli prinsipini bərqərar edib.

Deputat bildirib ki, Prezident İlham Əliyevin çoxsaylı geosiyasi təzyiqlərə və transmilli mənfi təsir mexanizmlərinə baxmayaraq zamanında reallaşdırdığı transmilli infrastruktural layihələr - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP və Bakı-Tbilisi-Qars dəmir yolu lineyar nəqliyyat xətləri olmaqdan çıxaraq, Avrasiyanın geoiqtisadi təhlükəsizlik arxitekturasının və beynəlxalq xüsusi hüquq rejimlərinin dayanıqlı sütunlarına çevrilib: "Müasir mərhələdə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun hüquqi, tarif və infrastruktural uzlaşmasını təmin edən Beynəlxalq Avtomobil Əlaqələri haqqında Saziş və dəniz yükdaşımalarına, gəmiçilik və gəmiqayırmaya dair memorandumların məzmunu göstərir ki, Orta dəhliz Mərkəzi Asiya dövlətləri, xüsusən Qırğızıstan, Qazaxıstan və Özbəkistan üçün Avropa bazarlarına alternativsiz və təhlükəsiz çıxış pəncərəsidir. "Landlocked" statuslu, yəni, dənizə birbaşa çıxışı olmayan Mərkəzi Asiya dövlətləri üçün Azərbaycanın yaradaraq təklif etdiyi multimodal logistik infrastruktur birtərəfli geoiqtisadi asılılıqları neytralizasiya edir, bu ölkələrin milli suverenliyinin və iqtisadi müstəqilliyinin beynəlxalq hüquq müstəvisində etibarlı təminatçılarından birinə çevrilir. Məhz bu ali vizyonla formalaşan energetika sahəsində 2026-2028-ci illər üzrə Yol Xəritəsi və neft məhsullarının tədarükünə dair Anlaşma Memorandumu Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyi arxitekturasındakı hab rolunu Mərkəzi Asiyanın zəngin resursları ilə sinxronlaşdırır".

B.Məhərrəmov söyləyib ki, Avrasiyanın rəqəmsal və informasiya təhlükəsizliyi arxitekturasında da unifikasiya meyilləri özünü göstərir. İki ölkə arasında kibertəhlükəsizlik sahəsində qurulan tərəfdaşlıq kritik rəqəmsal infrastrukturların transmilli kiberfəzada təhdidlərdən mühəndis-texniki və kəşfiyyata qarşı mübarizə imkanları ilə qorunmasını normativ hüquqi çərçivəyə salır. Azərbaycan dövlətinin birbaşa kapitallaşması hesabına İssık-Kul sahilində inşa edilən beşulduzlu "Baku Resort & Spa" rekreasiya kompleksi və regionlararası desentralizasiya diplomatiyasının təzahürü olan Şuşa-Çolpon-Ata, Qəbələ-Karakol, Gəncə-Oş şəhərləri arasında qardaşlaşma memorandumları Prezident İlham Əliyevin "yumşaq güc" strategiyasının növbəti parlaq təzahürüdür. Suveren dövlətlərarası münasibətlərin institusional arxitekturasında submilli idarəetmə vahidləri səviyyəsində birbaşa hüquqi-desentralizasiyalı əlaqələrin təsbit olunması xarici siyasət doktrinalarının regional və bələdiyyə səviyyələrində şaxələndirilməsinə xidmət edir. Şuşa şəhərinin beynəlxalq hüquqi statusunun və postmünaqişə dövründə onun yenidən qurulması prosesinin Türk dünyasının mədəni-siyasi mərkəzi kimi legitimliyinin daha da möhkəmləndirilməsi Çolpon-Ata ilə qurulan hüquqi bağlar vasitəsilə regional turizm və mədəniyyət hüququ çərçivəsində unifikasiya olunmuş təşəbbüslərin reallaşdırılmasını təmin edir. Eyni zamanda Qəbələ və Karakol şəhərlərinin aqro-ekoloji və dağ-xizək rekreasiya potensialının birləşdirilməsi, Gəncə və Oş şəhərlərinin isə tarixi-sənaye və akademik mərkəzlər kimi qarşılıqlı inteqrasiyası iki ölkə arasında investisiyaların təşviqi və qorunması, eləcə də regional iqtisadi klasterlərin formalaşdırılması baxımından mühüm hüquqi presedent yaradıb. Buna qarşılıqlı töhfə olaraq, Qırğızıstan tərəfindən Ağdam rayonunda Manas adına 960 şagird yerlik məktəbin inşa edilərək istifadəyə verilməsi postmünaqişə dövründə ərazilərin reabilitasiyası və rekonstruksiyası prosesinə Mərkəzi Asiya regionundan verilən hüquqi-mənəvi dəstəyin və sarsılmaz həmrəyliyin siyasi göstəricisidir. Bu cür addımlar iki xalq arasında mənəvi-mədəni reinteqrasiyanı dərinləşdirərək, strateji müttəfiqliyin ictimai təməllərini sarsılmaz edir.

Deputat vurğulayıb ki, səfər çərçivəsində Çolpon-Ata şəhərində keçirilən qeyri-rəsmi təmaslar və Azərbaycan, Qırğızıstan, Özbəkistan, Qazaxıstan, Tacikistan və Türkmənistan dövlət başçılarının iştirakı ilə baş tutan çoxtərəfli görüş Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının suveren aktorları arasında formalaşan normativ-hüquqi tərəfdaşlığın növbəti diplomatik təzahürüdür: "Dövlət rəhbərlərinin rəsmi protokol çərçivələrini aşaraq "Issyk-Kul Golf Resort" kompleksində birgə iştirak etdiyi format beynəlxalq hüququn suveren bərabərlik və qarşılıqlı etimad prinsiplərinə söykənən "qolf diplomatiyası" və "səmimi dialoq" mexanizmlərinin səmərəli tətbiqini göstərir. Bu qeyri-rəsmi platforma liderlər arasında yüksəksəviyyəli şəxsi etimadın mövcudluğunu və çoxtərəfli strateji müttəfiqlik münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçdiyini sübut edir. Bu proseslərin kulminasiya nöqtəsi kimi Çolpon-Ata Bəyannaməsi ilə təsbit edilən və Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşləri mexanizminə tamhüquqlu inteqrasiyasını nəzərdə tutan "Mərkəzi Asiya və Azərbaycan Dövlət Liderlərinin Formatı"nın bərqərar olması Prezident İlham Əliyevin beynəlxalq miqyaslı müstəsna liderlik missiyasının təntənəsidir. Azərbaycanın əvvəl olduğu fəxri qonaq statusundan çıxaraq bu mexanizmin tamhüquqlu üzvünə çevrilməsi Avrasiyanın mərkəzində yeni bir geosiyasi reallıq yaradıb. Bu mənada Çolpon-Atadan yayılan birgə strateji mesajlar, əslində, həm də qlobal güc mərkəzlərinə ünvanlanmış açıq bəyanatdır: Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətləri öz gələcəklərini xarici diktə, neokolonial yanaşmalar və geosiyasi təzyiqlərlə deyil, müstəqil iradə, vasitəçisiz dialoq və qarşılıqlı hörmət prinsipi əsasında şəkilləndirirlər".

O bildirib ki, Cənubi Qafqaz və Mərkəzi Asiya coğrafiyasının monolit geostrateji, geoiqtisadi və təhlükəsizlik məkanı kimi konsolidasiyası, təbii ki, BMT, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq platformalarda vahid cəbhədən çıxış etmək imkanlarını maksimuma çatdırır. Prezident İlham Əliyevin rəhbərliyi və müstəsna liderlik iradəsi ilə həyata keçirilən bu tarixi proses Türk dünyasının qlobal güc mərkəzi kimi beynəlxalq hüquq subyektivliyini sarsılmaz edir və XXI əsrdə Avrasiya qitəsində uzunmüddətli sülhün, sabitliyin və tərəqqinin etibarlı zəminini formalaşdırır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Türk media nümayəndələri Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər

Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu (TADİV) və Kültürlerarası Ağ Dərnəyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Sülhün coğrafiyası: Qarabağ - Cənubi Qafqazda quruculuq, sabitlik və regional əməkdaşlıq" proqramı çərçivəsində Türkiyədən Azərbaycana səfərə gələn media nümayəndələri və qeyri-hökumət təşkilatlarının rəhbərlərindən ibarət nümayəndə heyəti avqustun 3-də Şəhidlər xiyabanını və Türk şəhidliyini ziyarət edib.





AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti əvvəlcə Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanını ziyarət edib, məzarları önünə gül dəstələri düzüblər.

Daha sonra nümayəndə heyəti "Türk şəhidliyi" abidəsini ziyarət edib. Burada Azərbaycanın ərazi bütövlüyü və Bakının bolşevik-erməni daşnak işğalından azad edilməsi uğrunda mübarizədə canlarından keçmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

# Kürşad ZORLU: "Türk dünyasına verdiyi töhfələrə görə Prezident İlham Əliyevə minnətdarıq"

**Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasında həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş təşəbbüsləri ardıcıl və fəal şəkildə dəstəkləyir. Türk dünyasının gündəliyində duran mühüm məsələlərə daim xüsusi diqqət göstərdiyinə görə Azərbaycan dövlətinin başçısına səmimi təşəkkür edirik.**



Bu fikirləri AZƏRTAC-a Ankarada Türkiyənin hakim **Ədalət və İnkişaf Partiyasının (AK Parti) Türk dünyası ilə əlaqələr üzrə sədr müavini, professor Kürşad ZORLU** deyib.

O, Prezident İlham Əliyevin iştirakı ilə keçirilən tədbirlərin əhəmiyyətini xüsusi vurğulayıb.

"Oktyabr ayında Ankarada keçiriləcək TDT Zirvə görüşünü türk dünyası üçün əlamətdar hadisə hesab edirik. TDT üçün mühüm qərarların qəbulunun nəzərdə tutulduğu Zirvə görüşünün 2026-cı il oktyabrın 29-da - Respublika Günü ilə eyni tarixdə keçiriləcəyi Türkiyə vətəndaşları üçün xüsusi əhəmiyyət daşıyır", - deyə siyasətçi bildirib.

Onun sözlərinə görə, Ankarada keçiriləcək TDT Zirvə görüşündən qısa müddət sonra Antalyada BMT-nin COP31 İqlim Sammiti öz işinə başlayacaq.

"Türk dünyasında böyük hörmət qazanmış lider olan Prezident İlham Əliyevin Türkiyə üçün mühüm əhəmiyyət daşıyan hər iki tədbirdə iştirakını böyük məmnunluq hissi ilə gözləyirik", - deyə Kürşad Zorlu vurğulayıb.

# Şantaj və təhdid siyasi mübarizə üsulu deyil

## Cəmiyyət emosional manipulyasiya ilə rasional müzakirə arasındakı fərqi aydın görür



**"Son dövrlər xaricdə fəaliyyət göstərən "söyüş müxalifəti" yenidən eyni ssenarini təkrarlayır. Bu radikallar özlərini siyasi mübarizə aparan qüvvə kimi təqdim etməyə çalışsalar da, cəmiyyət artıq görür ki, onların arqument və proqram əvəzinə əsas silahları təhqir, böhtan, şantaj və şəxsi təhdidlərdir. Siyasi mübarizə aparmaq istəyən şəxs fakt və arqumentlə çıxış etməlidir, küçə leksikası ilə yox".**

Bu fikirləri qəzetimizə **Milli Məclisin deputatı Müşfiq MƏMMƏDLİ** deyib. O bildirib ki, diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycan dövlətinin rəsmiləri onların qarşısına çıxır, verilən sualları cavablandırır və mövqelərini əsaslandırırlar. Bunun fonunda isə radikal qrupların ciddi arqument ortaya qoya bilmədiyi, müzakirəni yenidən söyüş və təhqir müstəvisinə çəkməyə çalışdığı açıq görünür. "Sağlam siyasi mühitdə əsas meyar emosional çıxışlar deyil, faktlar, məntiq və ictimai maraqlara söykənən təkliflərdir. Hər hansı fikir ayrılığı təhqirlə deyil, əsaslandırılmış mövqe ilə cavab verməyi tələb edir. Məhz buna görə də cəmiyyət zaman keçdikcə emosional manipulyasiya ilə rasional müzakirə arasındakı fərqi daha aydın görür", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, bu qrupların fəaliyyəti artıq siyasi mübarizə deyil, sosial şəbəkələrdə diqqət toplamaq naminə aparılan ucuz təxribat kampaniyasıdır: "Onlar müzakirənin mahiyyətindən yayınaraq qalmaqal yaratmağa, cəmiyyətin diqqətini süni gündəmlərə yönəltməyə çalışırlar. Eyni zamanda Azərbaycanın maraqlarını müdafiə etmək əvəzinə ölkənin beynəlxalq imicinə zərbə vurmağa çalışır, xarici dairələrin informasiya gündəminə xidmət edən xəyanətkar davranışlar nümayiş etdirirlər. Belə yanaşma nə siyasi mədəniyyətə, nə də demokratik debat prinsiplərinə uyğundur. Əksinə, bu üsul cəmiyyətdə qarşıdurmanı dərinləşdirir, sağlam dialoq imkanlarını zəiflədir və ictimai etimadı sarsıdır".

M.Məmmədli bildirib ki, Azərbaycan cəmiyyəti çoxdan seçim edib. İnsanlar söyüş siyasətini deyil, nəticə verən siyasəti, məsuliyyətli mövqeni və arqumentə əsaslanan dialoqu dəstəkləyirlər. Kim özünü siyasi xadim hesab edirsə, təhqirlə deyil, proqramı, ideyası və faktları ilə rəqabət aparmalıdır. Söyüş, şantaj və təhdid heç vaxt siyasi fəaliyyətin meyarı ola bilməz və bu üsullarla cəmiyyətin etimadını qazanmaq mümkün deyil. Bu, son nəticədə həmin qüvvələri vətənə xəyanətə sürükləyir.

Deputat vurğulayıb ki, belə davranış tərzi həmin qrupların öz iddia etdikləri məqsədlərdən uzaqlaşmasına və cəmiyyətlə aralarındakı uçurumun daha da dərinləşməsinə səbəb olur: "Siyasi mübarizə yalnız milli maraqları üstün tutan, məsuliyyətli və konstruktiv fəaliyyət üzərində qurulduqda cəmiyyət tərəfindən qəbul edilir. Əks halda davamlı təhqir və qarşıdurma ritorikası həmin qüvvələrin ölkənin maraqlarına zidd mövqe tutduqları barədə tənqidlərin güclənməsinə və ictimai etimadlarını daha da zəiflətməsinə gətirib çıxarır".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bakı-Bişkek əlaqələri: strateji tərəfdaşlıqdan müttəfiqliyə

## Azərbaycan-Qırğızıstan münasibətlərinin dərinləşməsi Avrasiyanın nəqliyyat və təhlükəsizlik arxitekturasını, türk dünyasının geostrateji birliyini daha da möhkəmləndirir

**Azərbaycanın Mərkəzi Asiya istiqamətində yürütdüyü xarici siyasət keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Qlobal mənzərənin sürətlə dəyişdiyi, beynəlxalq nəqliyyat və logistika dəhlizlərinin əhəmiyyətinin kəskin artdığı bir dövrdə türk dünyasının inteqrasiyası etnik və mədəni bağlılıq müstəvisindən çıxaraq, geostrateji zərurətə çevrilib. Bu prosesdə Azərbaycan ilə Mərkəzi Asiya respublikaları, o cümlədən Qırğızıstan arasında qurulan münasibətlər özünün ən yüksək inkişaf səviyyəsini nümayiş etdirir. Ortaq soy-kök, mənəvi dəyərlər, dil və mədəniyyət təməlində formalaşan dialoq bu gün artıq sistemli və instutsional xarakter daşıyır.**

Bu fonda Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri ikitərəfli münasibətlərin inkişafında tarixi mərhələnin başladığını rəsmiləşdirdi və tərəfdaşlığı müttəfiqlik səviyyəsinə yüksəltdi. İki ölkə arasında Müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması və Azərbaycanın Mərkəzi Asiya dövlətləri başçılarının Məşvərət görüşlərinə tamhüquqlu tərəfdaş kimi qoşulması tərəflər arasında mövcud olan dərin etimadın aydın təzahürüdür. Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında birbaşa coğrafi sərhədlərin olmamasına rəğmən, dövlət başçıları səviyyəsində saxlanılan intensiv təmaslar, son dörd il ərzində keçirilən yüksəksəviyyəli görüşlər siyasi iradənin konkret layihələrə çevrilməsini təmin edib.

Azərbaycan Respublikası və Qırğız Respublikası Dövlətlərarası Şurasının növbəti iclasının keçirilməsi də göstərir ki, tərəflər bəyanatlardan praktiki əməkdaşlıq müstəvisinə tam sürətlə keçid ediblər. Bişkek ilə rəsmiləşdirilən müttəfiqlik statusu, eyni zamanda Azərbaycanın türk dünyasının geostrateji inteqrasiyasına dair genişmiqyaslı baxışının mühüm tərkib hissəsidir. Türkiyə ilə imzalanan tarixi Şuşa Bəyannaməsi, Qazaxıstan və Özbəkistan ilə qurulan analoji müttəfiqlik münasibətlərindən sonra Qırğızıstanla da bu hüquqi çərçivənin tamamlanması Türk Dövlətləri Təşkilatının ikitərəfli dayaqlarını son dərəcə gücləndirir.

Çoxtərəfli institutların tam formalaşması zaman tələb etdiyi bir şəraitdə, ikitərəfli müttəfiqlik sazişləri təhlükəsizlikdən iqtisadiyyata, siyasətdən mədəniyyətə qədər bütün sahələrdə mexanizmləri dərhal hərəkətə gətirməyə və vahid mövqedən çıxış etməyə imkan verir. Siyasi sahədəki bu yüksək dinamika real iqtisadi göstəricilərdə də öz əksini tapmaqdadır. İki ölkə arasında ticarət dövriyyəsinin sürətlə artaraq 77 milyon dolları ötməsi, Azərbaycan sərmayədarların İssık-Kul gölü ətrafındakı turizm və infrastruktur layihələrinə yatırımları uzunmüddətli iqtisadi etimadın bariz nümunəsidir.

Bu xüsusda, Azərbaycan-Qırğız İnkişaf Fondunun nizamnamə kapitalının 200 milyon dollara qədər artırılması



qərarı iqtisadi əməkdaşlıqda dönüş nöqtəsidir. Sözügedən fond sırf özəl təşəbbüsləri gözləmədən, birbaşa iri istehsal və infrastruktur layihələrini maliyyələşdirən effektiv təşəbbüskar rolunu oynayacaq, hər iki ölkədə yeni iş yerlərinin açılmasına və məşğulluğun yüksəlməsinə təkan verəcək. Eyni zamanda Qırğızıstan tərəfindən Ağdamda məktəb binasının inşası tərəflərin bəyanatlardan əməli həmrəyliyə keçdiyini aydın nümayiş etdirir.

İki tərəf arasındakı əməkdaşlığın ən mühüm və strateji istiqamətlərindən birini nəqliyyat, logistika və tranzit dəhlizlərinin inkişafı təşkil edir. Açıq dənizə çıxışı olmayan Mərkəzi Asiya dövlətləri, o cümlədən Qırğızıstan üçün Azərbaycanın müasir nəqliyyat infrastrukturu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu xətti Avropa və qlobal bazarlara çıxış baxımından ən etibarlı və qısa qapıdır. Çindən başlayaraq Mərkəzi Asiya ölkələrindən və Azərbaycandan keçməklə Avropaya uzanan Orta dəhlizin geostrateji çəkisi günbəgün artır.

Azərbaycan Mərkəzi Asiyanı dünya bazarları ilə əlaqələndirən əvəzsiz geoiqtisadi qovşaq statusunu daha da möhkəmləndirir, enerji təhlükəsizliyi və logistika sahəsində regional inteqrasiyanı dərinləşdirir. Səfər çərçivəsində qəbul edilmiş Çolpon-Ata Bəyannaməsi də Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında siyasi dialoq, iqtisadi inteqrasiya, nəqliyyat-kommunikasiya və humanitar sahələrdə uzunmüddətli tərəfdaşlığın hüquqi-siyasi təməlini təşkil edir. Azərbaycanın Mərkəzi Asiya Məşvərət görüşlərində fəal yer alması ölkəmizin regionun ayrılmaz strateji tərəfdaşına çevrildiyini, "Şərq-Qərb" və "Şimal-Cənub" tranzit dəhlizlərinin birləşdirici mərkəz rolu oynadığını təsdiqləyir. Prezident İlham Əliyevin "Müttəfiqlik münasibətləri çox böyük məsuliyyət deməkdir və biz bu məsuliyyətə hazırıq" bəyanatı da bu tarixi səfərin dərin siyasi və mənəvi mahiyyətini özündə ehtiva edir. Bu ifadə yalnız iki dövlət arasında hüquqi sənədlərin imzalanması deyil, gələcək onilliklər üçün müəyyənləşdirilən vahid strateji xəttin, qarşılıqlı etimadın və birgə məsuliyyətin ifadəsidir.

Bakı və Bişkek arasında möhkəmlənən bu strateji ittifaq regional təhlükəsizliyə, iqtisadi tərəqqiyə və türk dünyasının sarsılmaz birliyinə xidmət edən uzunmüddətli geostrateji arxitekturanın möhkəm təməllərindən biridir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Kraudfandinq haqqında" qanunun iqtisadi əhəmiyyəti böyükdür

## Azərbaycanda ilk dəfə bank kreditləri ilə fond bazarı arasında digər maliyyələşmə kanalı formalaşacaq

**İqtisadi fəaliyyət subyektlərinə, xüsusilə də startaplara, mikro, kiçik və orta sahibkarlara biznes aktivliyinin artırılması məqsədilə informasiya ehtiyatlarından və sistemlərindən, habelə kapital bazarının imkanlarından istifadə etməklə operativ və davamlı alternativ maliyyələşmə kanallarına əlverişli çıxış imkanlarının yaradılması məqsədilə hazırlanan "Kraudfandinq haqqında" qanun həmçinin maliyyələşmədə iştirak edən investorların hüquqlarının müdafiəsini təmin edəcək.**

**Altı ay sonra qüvvəyə minəcək qanun səhm və borc əsaslı kraudfandinqin həyata keçirilməsinin hüquqi, təşkilati və iqtisadi əsaslarını, kraudfandinq platforması operatorunun fəaliyyətinə dair tələbləri, onların fəaliyyəti üzərində dövlət nəzarətini və digər məsələləri tənzimləyəcək.**



**Yeni qanun investorların hüquqlarını qorunmaqla yanaşı, gənc sahibkarların və kiçik bizneslərin bank kreditindən asılı olmadan vəsait cəlb etməsinə şərait yaradacaq.**

**İqtisadçı Pünhan MUSAYEV** qəzetimizə açıqlamasında deyib ki, yeni qanunun preambula hissəsindən də aydın olduğu kimi, bu sənəd iqtisadi fəaliyyət subyektləri üçün biznes aktivliyini artıran alternativ maliyyələşmə imkanları yaratmağı və maliyyələşmədə iştirak edən investorların hüquqlarını qorumağı hədəfləyir. Elə bundan irəli gələrək, qanun kraudfandinqin iki növünü - səhm və borc, yəni istiqraz buraxılışı əsaslı kraudfandinqi tənzimləyən hüquqi çərçivə formalaşdırmaqla, hər iki halda qiymətli kağızların yerləşdirilməsi və investisiyaların gerçəkləşdirilməsi üçün xüsusi prosedurları əhatə edir. "Yanaşma maliyyələşmə mexanizmlərinin institusional əsaslarını genişləndirməkdən əlavə, iqtisadiyyatda kapitalın hərəkətinin təşkili istiqamətində də dəyişikliyi ifadə edir. Belə ki, əvvəllər layihələrin maliyyələşmə alətləri ənənəvi dövlət maliyyə resursları, əsasən büdcə vəsaitlərinə əsaslanırdı, hətta bank kreditləri yolu ilə maliyyələşmənin də mənbəyini birbaşa və ya dolayı olaraq dövlət vəsaitləri təşkil edirdi. Belə bir model hər nə qədər maliyyə təminatı yaratsa da, resurs bölgüsündə səmərəsizlik və iqtisadi subyektlərdə dövlət maliyyəsinə həddindən artıq arxalanma kimi məhdudlaşdırıcı xüsusiyyətlər daşıyırdı", - deyə o əlavə edib.

P.Musayev qeyd edib ki, digər tərəfdən, uzun illər milli iqtisadiyyat və mərkəzləşmiş maliyyə resurslarının əsas mənbəyi olan neft sektoruna dair pozitiv gözləntilərin əvvəlki illərlə müqayisədə aşağı olması səmərəlilik prinsiplərinin və fərqli mənbələrin ortaya çıxmasına zərurəti artırıb. Daha əvvəl Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən Sığorta Fondu kimi qurumların sərbəst vəsaitlərinin investisiyalara yönəldilməsi, eləcə də dövlət büdcəsinin xəzinə qalığında yığılan vəsaitlərin bank depozitlərinə yerləşdirilməsi kimi qərarlar məhz bu yanaşmaya uyğun atılan ilkin tədbirlər olmuşdu. Belə həllər prinsipcə ona görə fərqlənir ki, burda kapitalın mülkiyyətçisi birbaşa dövlət deyil, vəsaitlər özəl yığımlardan formalaşır. Dövlət, sadəcə, hüquqi infrastrukturu təşkil edir ki, bu da bazar iqtisadiyyatının təbiətindən irəli gələn maliyyə sistemində dövlətin rolunu "maliyyələşdirici"dən daha çox "bazarı təşkil edən" prinsipinə yaxınlaşdırır.

İqtisadçı bildirib ki, məsələyə bu perspektivdən yanaşdıqda kraudfandinq platformalarının hüquqi statusunun müəyyənləşdirilməsini daha geniş strategiyanın tərkib hissəsi kimi başa düşmək olar: "Kraudfandinqin həyata keçirilməsini startap layihələr, o cümlədən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin büdcə və bank kreditlərindən kənar alternativ maliyyələşmə imkanlarını genişləndirmək məqsədindən əlavə, son illərdə həyata keçirilən kapital bazarının inkişafı, istiqraz bazarının genişləndirilməsi, investisiya alətlərinin geniş çeşiddə təşviqi və rəqəmsal maliyyə xidmətlərində irəliləyişlər üçün tamamlayıcı tədbir olaraq dəyərləndirə bilərik. Beləliklə, qanunun ən böyük iqtisadi əhəmiyyəti ondadır ki, Azərbaycanda ilk dəfə bank kreditləri ilə fond bazarı arasında digər maliyyələşmə kanalı formalaşmış olur. Bu isə o anlama gəlir ki, kraudfandinqi ayrıca maliyyə aləti kimi yox, Azərbaycan iqtisadiyyatının struktur transformasiyasının bir elementi kimi nəzərdən keçirmək daha məqsədəuyğun hesab oluna bilər".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Askar NURŞA: "Azərbaycan Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında vahid məkanın formalaşmasına mühüm töhfə verir"

**"Azərbaycanın 2025-ci ildə Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşlərinə qoşulması regionda artıq baş verən proseslərin formal təsdiqi idi. Çoxşaxəli əməkdaşlığa qarşılıqlı maraq həmişə mövcud olub. Həmin vaxta qədər Azərbaycan və Mərkəzi Asiya ölkələri siyasi dialoq üzrə ciddi irəliləyişlər əldə edib və bir neçə strateji sahədə əməkdaşlığı daha da genişləndirmək yollarını müəyyənləşdirib".**

Bu barədə **qazaxıstanlı siyasi analitik Askar NURŞA** AZƏRTAC-a açıqlamasında Çolpon-Atada keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələri dövlət başçılarının qeyri-rəsmi görüşünü şərh edərkən bildirib.

Analitik qeyd edib ki, Azərbaycanın bu formatda iştirakı son illərdə region ölkələri ilə münasibətlərin inkişafında təkcə ikitərəfli deyil, həm də çoxtərəfli səviyyədə əldə edilən əhəmiyyətli irəliləyişi nümayiş etdirir.

Qazaxıstanlı ekspertin sözlərinə görə, Prezident İlham Əliyevin Çolpon-Atada keçirilən Azərbaycan və Mərkəzi Asiya ölkələri dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirakı Mərkəzi Asiyanın bütün prezidentlərinin iştirakı qədər təbii idi. "Ölkələrimiz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında vahid geosiyasi və geoiqtisadi məkanın formalaşması istiqamətində olduqca sürətlə irəliləyir. Azərbaycan diplomatiyası formatın sabitləşdirici sütunlarından biridir və ortaq dəyərlərin inkişafında iştirak edən ölkə qismində onların tamamlanması və bütövləşməsi prosesinə



əhəmiyyətli töhfə verir", - deyə Askar Nurşa sözlərini yekunlaşdırıb.

# Qisas qiyamətə qalmadı

**Azərbaycan 2020-ci ilin payızında qazandığı möhtəşəm Zəfərlə beynəlxalq hüququn uzun illər kağız üzərində qalmış prinsiplərini döyüş meydanında bərpa edərək ərazi bütövlüyünün böyük hissəsini təmin etdi və Cənubi Qafqazda tamamilə yeni geosiyasi reallıq formalaşdırdı. Bu mərhələ daha həssas və məsuliyyətli idi. Çünki qarşıda duran əsas vəzifə qazanılmış qələbənin nəticələrini qorumaq, bölgədə sabitliyi möhkəmləndirmək və dövlət suverenliyini tam təmin etməkdən ibarət idi.**



Rəsmi Bakı bu mərhələdə regionda davamlı sülhə nail olmaq, uzunmüddətli əməkdaşlıq mühitinin formalaşdırılması, kommunikasiyaların açılması, sərhədlərin müəyyənləşdirilməsi və dövlətlərarası münasibətlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında qurulmasının tərəfdarı olduğunu dəfələrlə bəyan edərək sülh gündəliyini irəli sürürdü. Bununla yanaşı, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarının tam və vaxtında icra olunmasının bölgədə davamlı sabitliyin əsas şərtlərindən biri olduğunu da unutmurdu.

Hadisələrin sonrakı inkişafı göstərdi ki, postmüharibə dövrünün əsas çağırışı məhz qəbul edilmiş öhdəliklərin icrası ilə bağlıdır. Amma Ermənistan rəhbərliyi imzaladığı sənəddən irəli gələn bütün öhdəlikləri yerinə yetirmək əvəzinə, müxtəlif bəhanələr və siyasi manipulyasiyalar yolu ilə prosesi uzatmağa çalışırdı. Xüsusən Qarabağ bölgəsində mövcudluğunu davam etdirən qanunsuz erməni silahlı dəstələrinin ərazidən çıxarılmaması, onların mühəndis-istehkam işlərini davam etdirməsi və vaxtaşırı silahlı təxribatlara əl atması bölgədə yaranmış kövrək təhlükəsizlik mühitini ciddi təhdid edirdi.

2022-ci ilin yay aylarında vəziyyət daha da gərginləşdi. Qarabağın dağlıq ərazilərində yerləşən bir sıra strateji yüksəkliklərdə erməni qanunsuz silahlı birləşmələrinin fəallaşması, yeni müdafiə mövqelərinin yaradılması cəhdləri, həmçinin Azərbaycan Ordusunun mövqelərinə qarşı həyata keçirilən silahlı təxribatlar təhlükəsizlik risklərini daha da artırdı. Bu proseslər göstərirdi ki, bəzi qüvvələr postmüharibə reallıqlarını qəbul etmək əvəzinə, yeni gərginlik ocaqları yaratmağa çalışırlar. Avqustun 3-də Laçın istiqamətində törədilmiş silahlı təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Anar Kazımovun şəhid olması hadisələrin dözülməz mərhələyə keçdiyini göstərdi. Çünki bu, təsadüfi sərhəd münaqişəsi deyildi, dövlətin suverenliyinə və hərbi qulluqçularının təhlükəsizliyinə qarşı yönəlmiş silahlı hücum idi. Belə təxribata cavab verməmək postmüharibə təhlükəsizlik mühitini ciddi təhlükə altında qoya bilərdi. Bu səbəbdən Azərbaycan rəhbərliyi hadisələrə milli təhlükəsizlik maraqları baxımından yanaşdı. Məqsəd isə yeni hərbi qarşıdurma yaratmaq yox, qanunsuz fəaliyyət göstərən silahlı fəaliyyətin qarşısını almaq, strateji üstünlüyü təmin etmək və gələcəkdə baş verə biləcək daha geniş planlı silahlı qarşıdurmanın qarşısını qətiyyətlə almaq idi.

2022-ci il avqustun 3-də həyata keçirilən "Qisas" əməliyyatı postmüharibə dövründə formalaşmış təhlükəsizlik çağırışlarına verilən ölçülü, hüquqi əsaslara söykənən və hərbi baxımdan dəqiq hesablanmış cavab idi. Bu əməliyyat Azərbaycanın yeni təhlükəsizlik strategiyasının mahiyyətini nümayiş etdirdi - sülh təşəbbüsləri qətiyyətli müdafiə siyasəti ilə tamamlanmalı, dövlət suverenliyinə qarşı istənilən təhdid isə vaxtında və təsirli şəkildə neytrallaşdırılmalıdır. Məhz bu strateji yanaşma "Qisas" əməliyyatının qısa müddətdə uğurla başa çatmasını şərtləndirdi və onun hərbi-siyasi nəticələrini postmüharibə dövrünün mühüm hadisələrindən birinə çevirdi. "Qisas" əməliyyatı və onun doğurduğu nəticələr taktiki uğurun hüdudlarını aşaraq ölkəmizin postmüharibə təhlükəsizlik strategiyasında mühüm mərhələyə çevrildi.

Əməliyyat zamanı Azərbaycan Ordusu qarşıya qoyduğu vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Sarıbaba və Qırxqız yüksəklikləri, eləcə də bir sıra əlverişli mövqelər nəzarətə götürüldü, qanunsuz silahlı birləşmələrin dayaq məntəqələrinə və hərbi infrastrukturuna dəqiq zərbələr endirildi. Bu yüksəkliklər üzərində nəzarətin təmin olunması təkcə ərazinin fiziki nəzarəti demək deyildi, həm də dağlıq ərazilərdə yüksəkliklərə sahib olmaq, əməliyyat şəraitinə nəzarət etmək, müşahidə imkanlarını genişləndirmək, düşmənin hərəkətlərini məhdudlaşdırmaq və gələcək təhlükələrin qarşısını əvvəlcədən almaq baxımından xüsusi əhəmiyyət daşıyırdı.

Məhz bu baxımdan "Qisas" əməliyyatı preventiv təhlükəsizlik tədbiri kimi qiymətləndirilməlidir. Azərbaycan göstərdi ki, dövlət öz suveren ərazisində təhlükə mənbələrinin formalaşmasına imkan verməyəcək, hərbi-siyasi vəziyyətin inkişafını təşəbbüskar tərəf kimi özü müəyyənləşdirəcək. Bu, postmüharibə dövrünün mühüm strateji dəyişikliklərindən biri idi.

Əməliyyatın diqqətçəkən cəhətlərindən biri də onun miqyası ilə məqsədi arasında qorunan dəqiq balans idi. Məqsəd genişmiqyaslı döyüş əməliyyatları aparmaqla konkret təhlükəni aradan qaldırmaq, qanunsuz silahlı fəaliyyətlərin qarşısını almaq və gələcək təxribatlara yol verilməyəcəyini nümayiş etdirmək idi. Bu yanaşma Azərbaycan Silahlı Qüvvələrinin müasir döyüş idarəetmə sisteminin, peşəkar hazırlığının və yüksək operativ çevikliyinin göstəricisi oldu.

"Qisas" əməliyyatı siyasi baxımdan da mühüm mesajlar verdi. Azərbaycan bir daha nümayiş etdirdi ki, regionda davamlı sülhün tərəfdarıdır. Lakin sülh yalnız bəyanatlarla deyil, imzalanmış öhdəliklərə əməl olunması və dövlətlərin suveren hüquqlarına hörmət göstərilməsi əsasında mümkündür. Əgər bu prinsiplər pozularsa, dövlət öz təhlükəsizliyini təmin etmək üçün beynəlxalq hüququn tanıdığı bütün legitim vasitələrdən istifadə etmək hüququna malikdir.

Əməliyyatdan sonra erməni silahlı birləşmələrinin manevr imkanları əhəmiyyətli dərəcədə məhdudlaşdı, postmüharibə dövründə uzadılmağa çalışılan bir sıra proseslərin sürətlənməsi üçün də yeni şərait yarandı. Xüsusən alternativ Laçın yolunun istifadəyə verilməsi istiqamətində baş verən hadisələr göstərdi ki, hərbi sahədə nümayiş etdirilən qətiyyət siyasi proseslərə də təsirsiz qalmır. Bu əməliyyat bir daha təsdiqlədi ki, Azərbaycan artıq hadisələrə reaksiya verən deyil, təhlükəsizlik mühitini formalaşdıran dövlətdir. Sübut olundu ki, təşəbbüs tam Azərbaycan tərəfinin əlindədir və sonrakı proseslərin istiqamətini də məhz bu amil müəyyənləşdirəcək.

Tarixi proseslərə bu prizmadan baxdıqda aydın görünür ki, 2022-ci ilin avqustunda həyata keçirilən "Qisas" əməliyyatı sonrakı hadisələrdən təcrid olunmuş şəkildə qiymətləndirilə bilməz. O, 2023-cü ilin sentyabrında həyata keçiriləcək lokal antiterror tədbirlərinə aparan strateji xəttin mühüm halqalarından biri idi. Həmin tədbirlər nəticəsində Azərbaycanın dövlət suverenliyi ölkənin bütün ərazisində tam bərpa olundu, qanunsuz silahlı birləşmələrin mövcudluğuna son qoyuldu və Dövlət bayrağı Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə, Əsgəranda və digər yaşayış məntəqələrində dalğalandı. Beləliklə, uzun illər davam edən separatizm problemi hüquqi və siyasi baxımdan tam aradan qaldırıldı.

Tarix hərbi əməliyyatları yalnız onların davametmə müddəti və ya iştirak edən qüvvələrin sayı ilə qiymətləndirmir. Əsas meyar həmin əməliyyatların dövlətin gələcək taleyinə, milli təhlükəsizlik sisteminə və siyasi inkişafına göstərdiyi təsirdir. Bu baxımdan "Qisas" əməliyyatının Azərbaycan dövlətinin postmüharibə dövründə təhlükəsizlik strategiyasının uğurlu tətbiqinin nümunələrindən biri kimi tariximizdə layiqli yeri var. Bu əməliyyat bir daha təsdiq etdi ki, Azərbaycan sülhə sadiq dövlətdir, lakin dövlət suverenliyinə, ərazi bütövlüyünə və milli maraqlarına qarşı yönələn istənilən təhdidə qətiyyətlə cavab verməkdə əzmindədir və bu əzm real güclə təmin olunur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Ermənistan tarixi seçim və geosiyasi dilemma qarşısındadır

**Təcrübə göstərir ki, beynəlxalq münasibətlər sistemində dövlətlərin inkişaf trayektoriyasını həlledici siyasi mərhələlərdə qəbul edilən qərarlar müəyyənləşdirir. Ermənistan da bu gün məhz belə bir mərhələni yaşayır. Ölkədə müşahidə olunan daxili siyasi proseslər ilk baxışdan hakimiyyətlə müxalifət arasında növbəti qarşıdurma təsiri bağışlasa da, əslində, onların mahiyyəti Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar və regionun gələcək təhlükəsizlik arxitekturasını müəyyənləşdirəcək mürəkkəb proseslərlə sıx bağlıdır.**





Ermənistan artıq təkcə xarici siyasət kursunu deyil, bütövlükdə gələcək dövlətçilik modelini, təhlükəsizlik konsepsiyasını və yeni regional düzəndə tutacağı yeri müəyyən edəcək taleyüklü seçim qarşısındadır.

2020-ci ilin 44 günlük Vətən müharibəsində Azərbaycan qazandığı tarixi Zəfərlə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə Cənubi Qafqazda onilliklər boyu mövcud olmuş geosiyasi nizamı kökündən dəyişdirdi. Status-kvonun qorunmasına hesablanmış siyasət artıq tarixə qovuşub. Yeni regional reallıq Ermənistanı əvvəlki yanaşmalardan imtina etməyə və tamamilə fərqli siyasi-hüquqi mühitdə fəaliyyət göstərməyə məcbur edir.

Bu səbəbdən İrəvanın qarşısında duran əsas məsələ yalnız xarici siyasət kursunu dəyişmək deyil. Söhbət postmüharibə dövründə yaranmış siyasi, hüquqi və geosiyasi reallıqların qəbul edilməsindən gedir. Ermənistan ya yeni regional şəraitə uyğunlaşaraq sülh və əməkdaşlıq yolunu seçməli, ya da köhnə siyasi stereotiplərin və revanşist düşüncənin təsiri altında ciddi böhranlarla üzləşməlidir. Baş nazir Nikol Paşinyanın son dövrlər verdiyi bəyanatlar da bu reallığın qəbul edildiyini göstərir. Azərbaycanla sülh müqaviləsinin imzalanmasına maraq göstərilməsi, Ermənistanın xarici siyasətini heç bir geosiyasi mərkəzdən asılı olmadan qurmaq niyyətini bəyan etməsi və Avropa istiqamətində diplomatik fəallığını artırması rəsmi İrəvanın daha praqmatik siyasi kurs formalaşdırmağa çalışdığını göstərir. Bununla belə, bu kursun həyata keçirilməsi elə də asan görünmür.

Ermənistanın siyasi sistemi uzun illər xarici təsir mərkəzlərinin formalaşdırdığı təhlükəsizlik və iqtisadi asılılıq modeli üzərində qurulub. Xüsusilə Rusiya ilə mövcud strateji bağlılıq ölkənin müstəqil qərarvermə imkanlarını ciddi şəkildə məhdudlaşdırıb. Buna görə də İrəvanın atdığı hər bir addım təkcə daxili siyasi qərar kimi deyil, həm də Moskvanın Cənubi Qafqazdakı maraqları kontekstində nəzərdən keçirilir.

Son aylar Rusiya ilə Ermənistan arasında müşahidə olunan gərginlik bunun aydın göstəricilərindəndir. Erməni məhsullarının Rusiya bazarına çıxışına müxtəlif məhdudiyyətlərin tətbiqi, iqtisadi əməkdaşlıq mexanizmlərində yaranan çətinliklər və Avrasiya İqtisadi İttifaqının fəaliyyəti ilə bağlı İrəvanda səslənən tənqidi fikirlər münasibətlərdə etimad böhranının dərinləşdiyini göstərir. Formal səbəblər iqtisadi xarakter daşısa da, proseslərin arxasında siyasi mesajların dayandığı aydın görünməkdədir. Moskva anlayır ki, Ermənistanın Avropa İttifaqı ilə yaxınlaşması yalnız xarici siyasətdə istiqamət dəyişikliyi deyil, həm də Rusiyanın Cənubi Qafqazda uzun illər formalaşdırdığı təsir imkanlarının zəifləməsi deməkdir. Elə buna görə də Kremlin İrəvana ünvanladığı mesajlar əvvəlki dövrlərlə müqayisədə daha açıq və sərt xarakter almağa başlayıb. Bununla yanaşı, hadisələrin gedişi göstərir ki, Nikol Paşinyan hökuməti artan xarici təzyiqlərə baxmayaraq, seçdiyi kursdan geri çəkilmək niyyətində deyil. Rəsmi İrəvan bəyan edir ki, Ermənistan milli maraqlarına uyğun balanslaşdırılmış və çoxşaxəli xarici siyasət yürütmək hüququna malikdir. Son 30 ildə ilk dəfə ölkənin xarici siyasətində daha geniş manevr imkanları əldə etməyə yönəlmiş cəhdlər müşahidə olunur. Lakin bu siyasətin uğuru təkcə Ermənistan rəhbərliyinin siyasi iradəsindən deyil, həm də Cənubi Qafqazda formalaşan yeni güc balansından və aparıcı geosiyasi aktorların mövqeyindən asılı olacaq.

Məhz buna görə də Ermənistanda baş verən hadisələrə ayrı-ayrı siyasi epizodlar kimi yanaşmaq doğru olmaz. Ölkədə gedən proseslərin mərkəzində Ermənistanın gələcək geosiyasi istiqaməti, təhlükəsizlik modeli və regional siyasətdə tutacağı yer dayanır. Konstitusiya islahatları təşəbbüsü, hakimiyyətlə Erməni Apostol Kilsəsi arasında yaranmış qarşıdurma, revanşist qüvvələrin fəallaşması, Rusiyanın təsir imkanlarını qorumaq cəhdləri və Avropa İttifaqının İrəvana artan siyasi dəstəyi eyni geosiyasi prosesin müxtəlif istiqamətlərdə təzahürüdür.

Ölkə daxilində baş verən proseslər göstərir ki, Ermənistanın üzləşdiyi böhran təkcə hakimiyyətlə müxalifət arasında siyasi qarşıdurmadan ibarət deyil, əsl mübarizə ölkənin gələcək geosiyasi kimliyi, təhlükəsizlik modeli və xarici siyasət prioritetləri uğrunda gedir. 2020-ci ildən sonra formalaşmış regional reallıq əvvəlki siyasətin yürüdülməsini mümkünsüz edib. Məhz buna görə də rəsmi İrəvan bir tərəfdən Azərbaycanla münasibətləri normallaşdırmağa və sülh müqaviləsini imzalamağa çalışır, digər tərəfdən isə xarici siyasətini balanslaşdırılmış əsaslar üzərində yenidən qurmağa cəhd göstərir. Amma bu kurs Ermənistan cəmiyyətində birmənalı qarşılanmır. Keçmiş hakimiyyətə bağlı siyasi dairələr, revanşist qüvvələr və radikal qruplar hesab edirlər ki, yeni regional reallıqların qəbul edilməsi uzun illər formalaşdırdıqları siyasi ideologiyanın iflası deməkdir. Buna görə də onlar sülh prosesinə inamsızlıq yaratmağa, ictimai narazılığı dərinləşdirməyə və ölkəni yenidən qarşıdurma mühitinə qaytarmağa çalışırlar.

Bu mübarizədə diqqət çəkən əsas amillərdən biri də Erməni Apostol Kilsəsinin tutduğu mövqedir. Kilsə tarixən Ermənistan cəmiyyətində dini işlərdən çox milli ideologiyanın formalaşmasına təsir göstərən mühüm siyasi-ictimai mərkəz kimi fəaliyyət göstərib. Son hadisələr göstərir ki, kilsənin siyasi proseslərin fəal iştirakçısına çevrilməsi cəmiyyətdə parçalanmanı daha da dərinləşdirib. Hakimiyyət dövlət institutlarının üstünlüyünü möhkəmləndirməyə çalışdığı bir vaxtda müxalif qüvvələr kilsənin nüfuzundan siyasi məqsədlər naminə istifadə etməyə cəhd göstərirlər. Diqqətdən qaçırılmamalıdır ki, Erməni Apostol Kilsəsinin rəhbərliyinin uzun illər Rusiya ilə sıx siyasi və ictimai əlaqələri olub. Bu səbəbdən siyasi müşahidəçilər kilsəni Moskvanın ölkədə təsir imkanlarını qoruyan mühüm ideoloji platformalardan biri kimi qiymətləndirirlər. Bu baxımdan Paşinyan hakimiyyətinin kilsənin siyasi fəaliyyətini məhdudlaşdırmağa yönəlmiş addımları yalnız daxili idarəetmə tədbiri deyil, həm də Rusiyanın təsir mexanizmlərini zəiflətməyə hesablanmış strategiyanın tərkib hissəsidir.

Bütün bunlar göstərir ki, Ermənistan yalnız geosiyasi seçim deyil, həm də bu seçimin hüquqi əsaslarını müəyyənləşdirmək zərurəti ilə üz-üzədir. Məhz buna görə də ölkədə referendum keçirilməsi məsələsi getdikcə daha çox siyasi aktuallıq qazanır. Əslində, Ermənistan cəmiyyəti qarşısında bir-biri ilə sıx bağlı iki strateji məsələ dayanır. Birincisi, ölkənin gələcək geosiyasi kursunun müəyyənləşdirilməsidir. Avropa İttifaqı ilə inteqrasiya istiqamətində irəliləmək barədə qərar yalnız xarici siyasət seçimi deyil, eyni zamanda Ermənistanın uzun illər formalaşmış geosiyasi asılılıq modelindən nə dərəcədə uzaqlaşmağa hazır olduğunu göstərəcək. İkincisi isə daha fundamental xarakter daşıyır. Azərbaycanın mövqeyinə görə, Ermənistanın konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə zidd müddəalar qüvvədə qaldığı müddətdə sülh müqaviləsinin uzunmüddətli hüquqi etibarlılığı təmin edilə bilməz. Bu baxımdan konstitusiyaya dəyişikliklərin edilməsi ilə bağlı referendum yalnız Ermənistanın daxili hüquqi islahatı deyil, həm də ölkəmizlə davamlı sülhün formalaşmasına xidmət edəcək mühüm siyasi addım kimi qiymətləndirilməlidir. Beləliklə, Ermənistan rəhbərliyinin qarşısında duran əsas vəzifə yalnız Şərqlə Qərb arasında geosiyasi seçim etmək deyil. Daha mühüm məsələ bu seçimi cəmiyyətin iradəsinə söykənən hüquqi mexanizmlərlə təsdiqləmək, dövlət siyasətini yeni regional reallıqlara uyğunlaşdırmaq və bununla həm ölkənin gələcək inkişafına, həm də Cənubi Qafqazda uzunmüddətli sabitliyə xidmət edəcək siyasi-hüquqi zəmin formalaşdırmaqdır.

Bütün bu proseslər göstərir ki, Ermənistanın üzləşdiyi böhran hakimiyyətlə müxalifət arasında siyasi rəqabət çərçivəsini çoxdan aşıb. Ölkədə gedən mübarizə, əslində, Ermənistanın gələcək dövlətçilik modelinin, geosiyasi kimliyinin və milli təhlükəsizlik strategiyasının müəyyənləşdirilməsi uğrunda aparılmalıdır. Bu baxımdan İrəvanın qəbul edəcəyi qərarlar təkcə ölkənin daxili siyasi inkişafına deyil, bütövlükdə Cənubi Qafqazın gələcək siyasi mənzərəsinə də birbaşa təsir göstərəcək.

Son illərin təcrübəsi göstərir ki, regionda yaranmış yeni geosiyasi reallıqlar fonunda davamlı sülhün alternativi yoxdur. Ermənistan revanşist yanaşmalardan və köhnə siyasi stereotiplərdən nə qədər tez uzaqlaşarsa, regional iqtisadi əməkdaşlıqdan, nəqliyyat-kommunikasiya layihələrindən və təhlükəsizlik mühitinin möhkəmlənməsindən faydalanmaq imkanları da bir o qədər genişlənəcək. Əks halda köhnə siyasi düşüncənin saxlanılması ölkəni yeni geosiyasi risklərlə və iqtisadi itkilərlə üz-üzə qoya bilər. Bu baxımdan Ermənistan rəhbərliyinin qarşısında duran əsas vəzifə yalnız xarici siyasətdə geosiyasi istiqamət seçmək deyil. Daha mühüm məsələ bu seçimi hüquqi baxımdan möhkəmləndirmək, dövlət siyasətini yeni regional reallıqlara uyğunlaşdırmaq və cəmiyyətin iradəsinə söykənən legitim qərarlar qəbul etməkdir. Məhz bu yanaşma həm Ermənistanın gələcək inkişaf strategiyasının formalaşmasına, həm də regionda etimad mühitinin möhkəmlənməsinə xidmət edə bilər.

Azərbaycan isə prinsipial mövqeyini açıq şəkildə ifadə edib - dövlətlərin suverenliyi və ərazi bütövlüyünə zidd hüquqi əsaslar aradan qaldırılmadan uzunmüddətli və etibarlı sülh mümkün deyil. Ermənistan konstitusiyasına dəyişiklik edilməsi məsələsi yalnız bu ölkənin daxili hüquqi gündəliyi deyil, həm də Azərbaycanla sülh müqaviləsinin dayanıqlı hüquqi baza üzərində qurulması baxımından xüsusi əhəmiyyət kəsb edir. İrəvan ya yeni geosiyasi reallıqları qəbul edərək sülh, əməkdaşlıq və inkişaf yolunu seçməlidir, ya da köhnə siyasi yanaşmaların və xarici təsir amillərinin yaratdığı məhdudiyyətlər içərisində növbəti böhranlarla üzləşməlidir. Hansı yolun seçilməsi isə artıq Ermənistanın deyil, Cənubi Qafqazın gələcək sabitliyi və təhlükəsizliyi ilə bağlı həlledici əhəmiyyət daşıyacaq.

*E.QƏNİYEV,*
*"Azərbaycan"*

# Süni intellekt qlobal siyasəti necə dəyişir?

**Tarix boyunca dövlətlərarası münasibətlərdə güc anlayışı dəyişib. Bir zamanlar xammal ehtiyatları, geniş ərazilər və böyük ordular dövlətlərin nüfuzunu müəyyən edirdisə, XXI əsrin əvvəlində isə tamam fərqli mənzərənin şahidi olduq. Artıq qlobal siyasətdə üstünlük alqoritmlər və hesablama gücü ilə ölçülür. Süni intellekt iqtisadiyyatla yanaşı, dünya siyasətindəki güc nisbətini də dəyişir. Dünyanın ən böyük beynəlxalq şirkətlərindən olan Böyük Britaniyanın "PwC" konsaltinq şirkətinin proqnozlarına görə, 2030-cu ilə qədər süni intellektin qlobal iqtisadiyyata töhfəsi 15,7 trilyon dollara çatacaq ki, bu da texnologiyanın makroiqtisadi güc amilinə çevrildiyini göstərir.**

Dünya İqtisadi Forumunun təhlillərində qeyd edildiyi kimi, süni intellekt artıq dünya siyasətində əsas güc mənbələrindən biridir. Ənənəvi diplomatiya və ordunun rolu qalsa da, artıq "hesablama infrastrukturu diplomatiyası" adlı yeni bir anlayış meydana çıxıb. Məlumat mərkəzləri və mikroçip zavodları isə müasir dövrün strateji limanlarını və enerji kəmərlərini əvəz edir. Tayvanın TSMC şirkətinin dünyadakı ən qabaqcıl mikroçiplərin 90 faizdən çoxunu istehsal etməsi texnoloji asılılığın necə böyük qlobal risk yarada biləcəyinin bariz nümunəsidir.

Bu gün dövlətlərarası mübarizədə ən əsas amil müasir çiplər və güclü kompüterlərdir. Köhnə iqtisadi yardım modelləri zəiflədiyi üçün ölkələr artıq bir-birinə texnologiya ötürməklə təsir göstərməyə çalışırlar. Qabaqcıl texnologiya və yarımkeçiricilərin ixracına qoyulan qadağalar texnoloji embarqoların günümüzdə silaha çevrildiyini açıq göstərir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) məlumatına görə, dövlətlərin bir-birinə etdiyi rəsmi yardımlar son illərdə azalıb. Yaranan



bu boşluğu isə böyük texnologiya şirkətlərinin və inkişaf etmiş ölkələrin təqdim etdiyi rəqəmsal sistemlər doldurur. Belə ki, inkişaf etməkdə olan ölkələrə verilən bulud sistemləri, süni intellektə əsaslanan səhiyyə və təhsil alətləri köhnə iqtisadi yardımları əvəz edir. Birləşmiş Ərəb Əmirlikləri və Sinqapur kimi ölkələr öz süni intellekt imkanlarını genişləndirərək dünyada vasitəçi rolu oynamağa başlayırlar. "Microsoft", "Google" və "OpenAI" kimi texnologiya nəhəngləri isə artıq beynəlxalq müqavilələrin və razılaşmaların birbaşa iştirakçısına çevrilirlər. Xüsusilə "OpenAI" və "Microsoft"un iştirakı ilə gündəmə gələn və 100 milyard dollar dəyərində qiymətləndirilən "Stargate" superkompüter layihəsi texnoloji infrastrukturun artıq kommersiya çərçivəsindən çıxaraq dövlətlərarası güc alətinə çevrildiyini sübut edir. Sinqapurun milli süni intellekt strategiyası çərçivəsində tədqiqatlara 1 milyard dollardan çox vəsait ayırması isə ölkələrin rəqəmsal suverenlik uğrunda necə ciddi yarışdığının nümunəsidir.

Süni intellektin strateji planlaşdırmaya tətbiqi qərarların çox sürətlə qəbul edilməsinə təkan verir. Lakin bu sürət özü ilə risklər də gətirir. Beynəlxalq əlaqələrdə kəşfiyyat məlumatlarının təhlili və gələcək ssenarilərin hazırlanması süni intellektə tapşırılanda, alqoritmlər liderlərin qarşısına çıxan informasiyanı bir növdə elə özləri seçib süzgəcdən keçirmiş olurlar. Süni intellektin təklif etdiyi sürət qərarlar üçün vacib olan canlı müzakirələri və fərqli baxış bucaqlarını arxa plana ötürə bilər. Bu isə təhlükəli vəziyyət yaradır. Əgər insanlar süni intellektin hazırladığı səliqəli və inandırıcı hesabatlara kor-koranə inanarlarsa, dərin təhlil qabiliyyəti zəifləyir. Alqoritmlərin təqdim etdiyi ehtimallar sorğulanmadıqda düşüncə daralır və eyni proqramdan istifadə edən ölkələr eyni səhvləri təkrar etmək riski ilə üzləşirlər.

Qeyd edək ki, süni intellektin yaratdığı riskləri neytrallaşdırmaq üçün mütəxəssislər "hibrid intellekt" modelini təklif edirlər. Bu model texnologiyanın böyük məlumat emalı gücünü insanın ciddi və tənqidi düşüncəsi ilə birləşdirir. İdarəetmədə "hibrid intellekt" modeli üç əsas qaydaya əsaslanır. Belə ki, ilk növbədə şəxs tapşırığın çərçivəsini və məqsədini dəqiq müəyyən etməlidir. Süni intellektin hazırladığı hər bir analitik material təsdiqlənənə qədər, sadəcə, ilkin layihə hesab olunmalı, faktlar və tarixi uyğunluq mütəxəssislər tərəfindən yoxlanılmalıdır. Son olaraq, alqoritmin hansı mənbələrdən istifadə etdiyi və nəticəyə necə gəldiyi tam şəffaf şəkildə izlənməlidir.

Süni intellektin qlobal siyasətdəki rolunu tam şəkildə müsbət və ya mənfi kimi qiymətləndirmək mümkün deyil. Bu texnologiya böyük verilənlər bazasını sürətlə təhlil etmək imkanı versə də, insani dəyərləri, tarixi təcrübəni və etik prinsipləri tam əvəz edə bilməz. Qlobal siyasətdə yeni güc balansının formalaşdığı bu dövrdə qalib gələn tərəflər ən sürətli alqoritmlərə sahib olanlar və bu alqoritmləri insani tənqidi təfəkkürlə doğru şəkildə balanslaşdıra bilən dövlətlər olacaq. Rəqəmsal suverenlik uğrunda gedən mübarizə gələcəyin siyasi xəritəsini müəyyənləşdirən əsas amil kimi qalmaqdadır.

*Təhminə VERDİYEVA, "Azərbaycan"*

# BTQ: "Korsika Assambleyası Fransanın siyasi gündəminin alətinə çevrilməməlidir"

**Bakı Təşəbbüs Qrupu (BTQ) Korsika Assambleyasının qondarma "Artsax Respublikası" və Azərbaycan Respublikasında cinayət məsuliyyətinə cəlb olunmuş Ermənistan vətəndaşları ilə bağlı qəbul etdiyi ilkin qanunvericilik təşəbbüsünü qətiyyətlə pisləyir.**




AZƏRTAC xəbər verir ki, bu barədə BTQ-nin bəyanatında bildirilib.

Bəyanatda həmçinin deyilir: "Bu, birtərəfli, təxribat xarakterli və siyasi motivlərlə hazırlanmış təşəbbüsdür. Suverenlik, ərazi bütövlüyü və daxili işlərə qarışmamaq kimi fundamental prinsiplərə zidd olan bu təşəbbüs rəsmi Paris tərəfindən irəli sürülən geosiyasi narrativləri təkrarlayır.

Bu təşəbbüsü dəstəkləyən şəxslərin davranışı Korsika xalqının siyasi iradəsinin müstəqil ifadəsi kimi qiymətləndirilə bilməz. Onlar Fransanın xarici siyasət gündəmini ötürən vasitələr kimi çıxış etməyi seçərək, Korsikanın milli maraqlarını, dilini, mədəniyyətini və kimliyini müdafiə etməli olan nümayəndələrdən daha çox Parisin siyasi alətlərinə - faktiki olaraq marionetlərinə çevriliblər.

Bu mövqenin ikiüzlülüyü xüsusilə diqqət çəkir. Minlərlə kilometr uzaqda öz müqəddəratını təyinetmə hüququndan yüksək səslə danışan eyni siyasi dairələr Korsikanın özündə Korsika xalqının ən elementar dil və siyasi hüquqlarını təmin etmək istəmir.

Fransa Konstitusiyasının 2-ci maddəsinə əsasən, fransız dili respublikanın yeganə rəsmi dilidir. Fransa məhkəmə orqanları Korsika və fransız dillərinin həm Korsika Assambleyasında müzakirə dili, həm də Korsika İcra Hakimiyyətinin işçi dilləri kimi tanınmasını nəzərdə tutan müddəaları ləğv edib. 2025-ci ilin iyun ayında isə Fransa Dövlət Şurası Korsika hakimiyyət orqanlarının həmin qərarlardan verdiyi apellyasiya şikayətinin qəbul olunmasından imtina edib.

Bundan əlavə, Fransa 1999-cu ildə Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyasını imzalasa da, bu günədək onu ratifikasiya etməyib. Avropa Şurası Korsika dilini Xartiyanın əhatə etdiyi tarixi regional dillərdən biri kimi açıq şəkildə tanıyır.

Cənubi Qafqazla bağlı təşəbbüslər qəbul etməzdən əvvəl həmin nümayəndələr bir neçə suala cavab verməlidirlər:

- *Nə üçün onlar Korsika dilinə bərabər institusional status verməkdən imtina edən dövlətə tabe olaraq qalırlar?*
- *Nə üçün rəsmi Paris tərəfindən həyata keçirilən mərkəzləşdirici və məqsədyönlü assimilyasiya siyasətinə qarşı eyni qətiyyəti nümayiş etdirmirlər?*
- *Nə üçün xaricdə dekolonizasiya ritorikasından istifadə etdikləri halda, Korsikanın kimliyi, təhsili, dili və siyasi qərarverməsi üzərində Fransa hökmranlığının davam edən nəticələrini görməzlikdən gəlirlər?*

BTQ Korsika xalqı ilə Fransa hökumətinin maraqlarına xidmət edən və Korsikanın milli maraqlarını müdafiə etmək əvəzinə Parisə siyasi itaəti seçən şəxslər arasında aydın fərq qoyur.

Korsika xalqı Korsika dilini qoruyan, Korsika mədəniyyətini yaşadan və xalqın öz siyasi gələcəyini müəyyən etmək hüququnu ardıcıl şəkildə müdafiə edən nümayəndələrə layiqdir, Fransa xarici siyasətinin alətlərinə çevrilmiş nümayəndələrə deyil.

BTQ Korsika Assambleyasının diqqətini ilk növbədə Korsika xalqının həll olunmamış hüquqlarına yönəltməyə çağırır.

Assambleya Fransadan aşağıdakıları tələb etməlidir:

- *Korsika dilinin tam institusional tanınması;*
- *Onun təhsil, idarəetmə və ictimai həyatda maneəsiz istifadəsinə təminat verilməsi;*
- *Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyasının ratifikasiya edilməsi;*
- *Korsika xalqının milli kimliyinin və mədəniyyətinin qorunması;*
- *Korsika xalqının siyasi iradəsinə və öz müqəddəratını təyinetmə hüququna həqiqi hörmət göstərilməsi.*

BTQ Korsika Assambleyasını siyasi və institusional müstəqilliyini qorumağa və Fransa dövlətinin milli gündəmini irəli aparan bir alətə çevrilməsinə imkan verməməyə çağırır. Korsika xalqının nümayəndə orqanı olaraq assambleya Korsika xalqının dil, mədəniyyət və siyasi hüquqlarını müdafiə etməli, Korsikanın kimliyini və arzularını zəiflədən siyasətlərin legitimləşdirilməsi üçün istifadə olunmasına yol verməməlidir".


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Dost, qardaş, müttəfiq
S.N.Japarovun "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Qırğızıstana səfəri barədə videoçarx paylaşılıb
Azərbaycan aparıcı Avropa dövlətlərinin etibarlı tərəfdaşı statusundadır
Müstəqil dövlətimiz dilimizin saflığının qorunması üçün ciddi addımlar atır
Yeni nəslin həmrəylik modeli
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Hava yağmursuz keçəcək

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 23-26, gündüz 31-36 dərəcə isti olacaq. Atmosfer təzyiqi norma daxilində - 760 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 22-26, gündüz 33-38, dağlarda gecə 15-20, gündüz 23-28 dərəcə isti olacağı ehtimal edilir.

# İyulda Bakıda orta aylıq temperatur iqlim normasından yuxarı olub

**Bu ilin iyul ayında Bakıda və Abşeron yarımadasında havanın temperaturu iqlim norması ilə müqayisədə 27 gün normadan yuxarı (0-6 dərəcə), 2 gün normadan aşağı, 2 gün isə norma daxilində olub. Orta aylıq temperatur 28 dərəcə isti olub ki, bu da iqlim normasından 1 dərəcə yuxarıdır.**

AZƏRTAC xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəsmisi Gülnarə Abbasova bildirib.

Onun sözlərinə görə, Bakıda və Abşeron yarımadasında iyul ayında maksimal temperatur iyulun 26-da 40 dərəcə isti (Sumqayıt), bölgələrdə isə həmin gün 41 dərəcə isti (Ordubad) qeydə alınıb. Havanın minimal temperaturu Bakıda və Abşeron yarımadasında iyulun 3-də və 9-da 20 dərəcə isti (Maştağa və Sumqayıt), yüksək dağlıq ərazilərdə isə iyulun 2-də 4 dərəcə isti (Şahdağ) olub: "İyul ayının bəzi günlərində hava şəraiti fasilələrlə yağıntılı keçib, şimşək çaxıb, dolu düşüb. Bəzi yerlərdə yağıntılar intensiv və güclü olub. Ən çox yağıntı bölgələr üzrə aylıq normanın 324 faizi olmaqla Balakən-Şəki zonasına (Balakən - 250 millimetr), aylıq normanın 236 faizi olmaqla Mərkəzi Aran zonasına (Mingəçevir - 47 millimetr), aylıq normanın 144 faizi olmaqla Lənkəran-Astara zonasına (Lənkəran - 20 millimetr) və aylıq normanın 125 faizi olmaqla Bakı və Abşeron yarımadasına (Bakı - 3 millimetr) düşüb".

Gülnarə Abbasova deyib ki, iyul ayı ərzində Laçın rayonunun Şəlvə, Qovuşuq və Vəlibəyli kəndlərində, Şuşa şəhərində və Kəlbəcər rayonunun İstisu qəsəbəsində dolu müşahidə olunub. Ən iri dolu Kəlbəcər rayonunun İstisu qəsəbəsində qeydə alınıb və diametri 8-12 millimetr təşkil edib.

Eyni zamanda iyul ayının bəzi günlərində küləkli hava şəraiti ilə əlaqədar 10 sarı və narıncı xəbərdarlıq verilib. Bakı və Abşeron yarımadasında 9, bölgələrdə isə 21 gün küləkli hava şəraiti müşahidə olunub. Küləyin maksimal sürəti iyulun 27-də Bakı və Abşeron yarımadasında saniyədə 28, bölgələrdə isə 23 metrə çatıb.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev və akademiyanın kollektivi "Şərəf", "Şöhrət", "İstiqlal" və "Heydər Əliyev" ordenli, Heydər Əliyev mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi, Xalq şairi

**NƏRİMAN HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş Prokurorluğunun idarə prokuroru Kərim Kərimliyə atası, Azərbaycan Respublikası Prokurorluğunun veteranı, Əməkdar hüquqşünas

**İKRAM KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Xalq şairi

**NƏRİMAN HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Xalq şairi

**NƏRİMAN HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Mirələm və Mirhaşim Calalovlar ailələri ilə birlikdə Əli İsa oğlu Məmmədova əzizi Xalq şairi

**NƏRİMAN HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Xalq şairi

**NƏRİMAN HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov "Heydər Əliyev" ordenli Xalq şairi

**NƏRİMAN HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Ağsaqqallar Şurasının sədri, respublikanın Əməkdar hüquqşünası

**İKRAM KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Xalq şairi

**NƏRİMAN HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Abşeron Rayon Vəkil Bürosunun kollektivi Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Ağsaqqallar Şurasının sədri, Əməkdar hüquqşünas

**İKRAM KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Ağsaqqallar Şurasının sədri, Əməkdar hüquqşünas

**İKRAM KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Hakimlər İttifaqının üzvləri Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Ağsaqqallar Şurasının sədri, Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, sabiq hakim

**İKRAM KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3255
Sifariş 977

Qiyməti 60 qəpik